# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

№ 2 ' 2002

BAKI - 2002

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

№ 2 ' 2002

BAKI - 2002

KBT 78
K 73

***Təsisçi və
Baş redaktor:
dosent
Xəlil İSMAYILOV***

***Məsul redaktor:
Baş müəllim
Knyaz ASLAN***

**REDAKSİYA HEYƏTİ:**

Professor Abuzər XƏLƏFOV
Professor Zöhrab ƏLİYEV
Professor Bayram ALLAHVERDİYEV
Dosent Tacəddin QULİYEV
Dosent Əşrəf XƏLƏFOV
Dosent Rasim KAZIMOV
Desent Nadir İSMAYILOV

*K 73 Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jürnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2002. - №2. – 130 s.*

*Redaksiyanın ünvanı: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23, 2 №-li tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi, "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası. Telefonlar: 39-05-47; 39-03-66.*

***© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2002***

## *BU NÖMRƏDƏ*


***YUBİLEY***

Heydər Əliyev - 80

***KİTARXANAŞÜNASLIQ***

| | |
|---|---|
| Abuzər Xələfov. | Heydər Əliyev əsərlərinin nəşri və təbliği məsələləri |
| Abuzər Xələfov, Rasim Kazımov. | Azərbaycan elminin qızıl fondu |
| Tacəddin Quliyev. | Azərbaycan Həmkarlar Ittifaqı Kitabxanaları 1981-1985-ci illərdə |
| Əli Rüstəmov Zöhrab Baxşəliyev. | Elektron kitabxanaların formalaşdırılmasının bəzi məsələləri |
| Mayıl Həsənov. | Kitabxana fonduna rəhbəriliyin təşkili problemləri |
| Knyaz Aslan. | Oxucuların bədii-estetik prosesində kitabxanaların rolu |
| Zakirə Əliyeva. | Avtomatlaşdırlmış informasiya sisteminə keçid mərhələsində strateji planlaşdırma |
| Sevda Xələfova. | Sistemli katoloqdan istifadənin səmərəliliyi |

***BİBLİOQRAFİYAŞÜNASLIQ***

| | |
|---|---|
| Əşrəf Xələfov. | Ədəbi faktoqrafık axtarış haqqında |
| Fərman Bayramov. | H.Z .Şirvani yaradıcılığında mütaliə və biblioqrafıya məsələləri |

***KİTABŞÜNASLIQ***

| | |
|---|---|
| Şəhla Tahirqızı. | Bakı Dövlət Universitetinin Nəşriyyatı və mətbu orqanları |

***TƏBRİK EDİRİK***

| | |
|---|---|
| Xəlil İsmayılov Əşrəf Xələfov Knyaz Aslan. | Şair təbli biblioqraf-alim (İslam Ağayev - 70) |

# YUBİLEY



***May ayının 10-da Azərbaycan Respublikasının prezidenti, dünya şöhrətli siyasi xadim, xalqımızın sevimli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 80 illik yubileyi tamam olur***

*Azərbaycan Respublikasının prezidenti möhtərəm cənab Heydər Əliyevə!*

*Hörmətli prezident!*

*Sizi - Azərbaycanın müasir tarixində özünəməxsus yeri olan görkəmli dövlət xadimini anadan olmağınızın 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik.*

*Sizin zəngin fəaliyyətiniz XX əsrin 50-ci illərindən başlayaraq xalqımızın taleyi ilə sıx bağlı olmuşdur. Siz istər 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edərkən, istərsə də 1982-1987-ci illərdə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən doğma respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatının çiçəklənməsi yolunda böyük taleyüklü işlər həyata keçirmiş, Vətənimizi öncüllər sırasına çıxarmısınız.*

*1993-cü ildə müstəqil Azərbaycan Respublikasının prezidenti seçilmiş,ötən müddətdə Vətənimizin tərəqqi və dirçəlişi, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması istiqamətində uğurlu siyasət yürütmüş, Azərbaycanı bir sıra beynəlxalq tədbirlərdə uğurla təmsil etmisiniz.*

*Siz çoxşaxəli fəaliyyətiniz dövründə Azərbaycanda iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın və başqa sahələrin inkişafını həmişə diqqətdə saxlamısınız. Milli Məclisdə uzun müzakirələrdən sonra qəbul edilmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununu təsdiqləməyiniz (29 dekabr 1998) və həmin qanunun tətbiq edilməsi barədə fərman imzalamağınız (12 mart 1999) da Sizin milli mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinə yüksək qiymətinizin parlaq təzahürüdür. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasındakı çıxışınızda: «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir» kimi dəyərli sözlər söyləməyiniz Sizin bu sahəyə xüsusi diqqətinizi nümayiş etdirir.*

*Əziz Heydər Əlirza oğlu! Sizi çoxsaylı kitabxana işçiləri adından 80 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və müstəqil Azərbaycanımızın dünya dövlətləri sırasında layiqli yer tutması naminə uğurlar arzulayırıq!*

*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiya heyəti*

**Abuzər XƏLƏFOV**
*BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

# HEYDƏR ƏLİYEV ƏSƏRLƏRİNİN NƏŞRİ VƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ

XX əsr Azərbaycan xalqına çox böyük bir tarixi şəxsiyyət bəxş etmişdir. Bu şəxsiyyət respublikamızın prezidenti, görkəmli dövlət, siyasət, elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevdir.

XX əsrin ikinci yarısında hakimiyyətə gələn, 34 il ardıcıl olaraq dövlət sükanının arxasında məharətlə dayanan, Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşümul tarixi əhəmiyyətə malik işlər görən bu böyük insan Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi, Şərqin ulduzuna çevrilmişdir.

Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fikri, qabiliyyəti ilə yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, onun polad iradəsi, dönməz xarakteri, şəxsiyyət kimi bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək göstərmişdir.

1950-ci ildə Sankt-Peterburq (Leninqrad) milli təhlükəsizlik orqanları məktəbini əla qiymətlərlə, 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən və həyat təcrübəsinə malik olan Heydər Əliyev artıq gənc yaşlarından rəhbər işə irəli çəkilmiş, 1964-cü ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən isə komitə sədri vəzifəsi-

nə təyin edilmişdir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevə qədər Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində ancaq rus millətindən olan şəxslər işləmişlər. Heydər Əliyev bu böyük vəzifəni tutan ilk azərbaycanlı olmuşdur. Heydər Əliyevin dövlətçilik məharətinə, təşkilatçılıq qabiliyyətinə yuxarı dairələrin marağı gün-gündən artmış, o, böyük şəxsiyyət imici qazanmışdır.

Məhz buna görədir ki, 1969-cu ilin iyul ayında Heydər Əliyev Sov. İKP MK-nın tövsiyəsi ilə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildi. O, bu vəzifəyə seçilərkən respublika rəhbərliyinin yuxarı eşalonunda böyük hərc-mərclik, dedi-qodu, anarxiya, qeyri-sabitlik hökm sürürdü. Xalq və kənd təsərrüfatlarının, sənayenin inkişafı sahəsində Sovet İttifaqı respublikaları içərisində Azərbaycan *sonuncu yeri tuturdu. Dövlət planlarının heç biri yerinə* yetirilmirdi. Belə ağır şəraitdə hakimiyyətə gələn Heydər Əliyev öz təşkilatçılıq qabiliyyəti, möhkəm iradəsi sayəsində qısa müddətdə böyük müvəffəqiyyətlər əldə etdi, xalqın məhəbbətini qazandı, xalqın sevimli, ədalətli rəhbərə çevrildi. Respublikanın zəhmətkeşləri, ziyalıları tərəfindən ardıcıl dəstəklənməyə başladı.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın ictimai–siyasi, sosial–iqtisadi və mədəni-mənəvi həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz onun qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial–iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək Sovetlər Birliyinin ən böyük mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və iftixarla çəkilmişdir. Bu müvəffəqiyyətlər qısa zaman içərisində onun bir partiya və dövlət xadimi kimi nüfuzunun təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında artmasına, böyük şöhrət qazanmasına səbəb oldu. Məhz buna görədir ki, o, 1979-cu ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. SSRİ hökumətində ikinci şəxs olan Heydər Əliyev tezliklə SSRİ məkanında, həmçinin xarici ölkələrdə müdrik dövlət xadimi kimi böyük nüfuz qazandı. Bu da Sovetlər Birliyi dövründə beynəlxalq aləmdə öz fəaliyyəti ilə şöhrət və hörmətə çatmış Azərbaycan oğlunun dünya siyasətində tutduğu yüksək mövqedən xəbər verirdi.

O, Moskvada işlədiyi müddətdə də Azərbaycanla əlaqəsini kəsməmiş, həmişə doğma respublikanın qeydinə qalmış, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.



1991-ci ildə SSRİ dağılandan sonra Azərbaycan müstəqillik əldə etdi. Azərbaycan xalqı illərdən bəri ürəyində bəslədiyi arzusuna çatdı. Ancaq bu müstəqillik çox baha başa gəldi. 1988-ci ildə erməni daşnak millətçiləri tərəfindən qızışdırılan Dağlıq Qarabağ millətçi daşnak ermənilər Ermənistan Respublikasının və SSRİ dövlətinin başçılarına arxalanaraq Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi niyyətlərini həyata keçirmək üçün açıq-aşkar separatçılıq və təxribatçılıq fəaliyyətinə başladılar.

Bu məsələnin həllində o zamankı Azərbaycan rəhbərliyinin tam səbatsızlıq göstərməsi, Moskvanın tapşırıqlarını canla-başla yerinə yetirməsi torpaqlarımızın bir hissəsinin ermənilər tərəfindən işğal olunmasına gətirib çıxardı. Müstəqillik əldə etdikdən sonra hakimiyyət başına gəlmiş Azərbaycan Xalq Cəbhəsi və «Müsavat» cütlüyü iqtidarının səriştəsizliyi üzündən Dağlıq Qarabağ və ona bitişik olan rayonlarımızın əraziləri erməni faşistləri tərəfindən işğal edildi. Ölkədə hakimiyyət böhranı baş verdi.

Acınacaqlı haldır ki, 1993-cü ilin əvvələrində Azərbaycanın bir neçə «müstəqil» bölgəyə parçalanması prosesi gedirdi. Respublikamızda ayrı-ayrı «xanlıqlar» yaradılması həvəsi ilə yaşayan, xalq tərəfindən tanınmayan və qətiyyətlə *rədd edilən bəzi üzdəniraq* liderlər üçün hakimiyyət ehtirası Vətən, xalq, torpaq kimi müqqədəs anlayışlardan çox-çox yüksəklərdə dururdu. Məhz belə bir dövrdə - ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyyətin - Heydər Əlirza oğlu Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ölkəni parçalanma bəlasından xilas etdi, milli dövlətçiliyimizin qorunub saxlanılmasına *əlverişli şərait yaratdı.*

Heydər Əliyevin 1993-cü ildən başlayaraq respublikamızda yaranmış çətinlikləri məhz xalqla məsləhətləşərək, xalqa arxalanaraq aradan qaldırması ona bəslənilən ümidi və ehtiramı durmadan artırdı. Onun milli dövlətçiliyimiz, milli ideologiyamız və müstəqilliyimiz istiqamətində apardığı işlər əvəzsizdir, misilsizdir. Bunu zaman bir daha sübut edir.

Bütün göstərdiyimiz problemlərin həllində Heydər Əliyevin elmi, ideoloji fəaliyyəti həmişə ön planda olmuşdur. Ölkənin həyatında baş verən mürəkkəb prosesləri düzgün qiymətləndirmək, sosial-siyasi hadisələri qabaqlamaq, onun həlli yollarını zərgər dəqiqliyi ilə müəyyənləşdirmək qabiliyyətinə, böyük elmi təfəkkürə malik olan bu insan öz məruzələrində, çıxış və nitqlərində, fərman

və sərəncamlarında, göstəriş və tövsiyələrində, xalqa müraciətlərində həmin problemlərin həlli yollarını açıb göstərməklə cəmiyyətin irəliyə doğru inkişafını təmin etmişdir. Onun bütün çıxışları və nitqləri əvvəlcə dövri mətbuatda: qəzetlərdə və jurnallarda dərc edilmiş, sonra isə kitab şəklində buraxılmışdır. Böyük iftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı olaraq, zəngin elmi-nəzəri və mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin «qızıl fondu»na daxil edilmişdir. Müasir şəraitdə bu zəngin irsin öyrənilməsinə böyük ehtiyac hiss edilməkdədir. Respublikamızın bütün vətəndaşlarının, alimlərin, mütəxəssislərin, əhalinin bütün təbəqələrinin, xüsusilə ölkəmizin gələcəyi olan gənclərin bu irsin öyrənilməsinə böyük ehtiyacı duyulmaqdadır.

Heydər Əliyevin tariximizə, dilimizə, milli ideologiyamıza, soy-kökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri bütün sahələrdəki elmi araşdırmaların metodoloji əsasıdır.

Bu əsərlər Azərbaycanşünaslığa böyük hədiyyədir. Heydər Əliyevin nəzəri irsi həm də Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin elmi əsasıdır. Bu əsərlər siyasi tarix, vətəndaşlıq, həmçinin dövlət quruculuğu dərsliyidir.

Heydər Əliyevin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə-neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir. Bu əsərləri zaman özü yaratdığından daim, yaşayacaq, gələcəyə işıq saçacaq.

Heydər Əliyevin əsərləri rahat kabinetlərdə yaranmamışdır, böyük natiqlik qabiliyyətinə, dərin zəkaya, məntiqi ardıcıllığa, kəskin zehinə, möhkəm yaddaşa malik olan bu böyük insan öz əsərlərini xalq qarşısında çıxışlarında, dinləyicilərlə üzbəüz, onların gözü qarşısında, onların iştirakı ilə yaratmışdır. Olduqca unikal bir şəxsiyyət olan Heydər Əliyevin hər bir məruzəsini, çıxışını və nitqini redaktə etmədən nəşr etmək olar.

Dünyada çoxlu dövlətlər, onları idarə edən çoxlu dövlət başçıları var. Ancaq onların heç də hamısı yüzlərlə kitab yazmaq qabiliyyətinə malik deyillər.

Etiraf edilməlidir ki, Heydər Əliyev kimi zəngin irsi, çoxsaylı əsərləri olan dövlət başçıları olduqca azdır.



Heydər Əliyevin əsərlərini mütaliə edərkən belə bir həqiqət aşkarlanır ki, bu əsərlərdə çox geniş elmi məlumat toplanmışdır. Bu əsərlərdə bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, misallar, məlumatlar və elmi fikirlər müəllifin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət, görkəmli ziyalı olduğunu sübuta yetirir.

Heydər Əliyevin əsərlərinin respublikamızda nəşrini şərti olaraq iki mərhələyə ayırmaq olar. Birinci mərhələ Sovetlər Birliyi dövrünü, yəni 1969-1993-cü illəri əhatə edir. Bu dövrdə, xüsusilə də 1982-ci ilə qədərki dövrdə respublikamızda Heydər Əliyevin nəşr olunmuş əsərləri 151 adda, 85 çap vərəqi həcmindədir.

Bunlardan təxminən 285 çap vərəqi həcmində olan 68-ci Azərbaycan dilində, 207 çap vərəqi həcmində olan 83-ü rus dilindədir. Doğrudur, bu rəqəmləri tam hesab etmək olmaz və onları dəqiqləşdirmək üçün hələ ciddi tədqiqatlar aparmaq lazım gəlir.

Heydər Əliyevin 1969-1982-ci illərdə nəşr edilmiş əsərlərini məzmununa görə dörd qrupa bölmək olar:

1. Qurultaylarda, plenumlarda, müşavirələrdə çıxışları;
2. Müxtəlif təntənəli yığıncaqlarda, yubileylərdə, ideoloji müşavirələrdə məruzələri, nitqləri və çıxışları;
3. Elmi məclislərdə, konfranslarda, mərasimlərdə çıxışları və nitqləri;
4. Ayrı-ayrı problemlər barədə, əsasən Azərbaycan haqqında əsərləri.

Heydər Əliyevin məruzə və çıxışlarında, həmçinin ayrı-ayrı əsərlərində Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatı yüksək şəkildə işıqlandırılmış, geniş elmi təhlillər, konkret faktlar və rəqəmlərlə ümumiləşdirmələr aparılmış, nəticələr çıxarılmışdır. Məhz buna görədir ki, göstərilən dövrün sosial-iqtisadi və ictimai-siyasi tarixini Heydər Əliyevin əsərlərini öyrənmədən yazmaq mümkün deyildir. Heydər Əliyevin əsərlərində tarixi hadisələr, ictimai-siyasi proseslər, onları doğuran səbəblər və qanunauyğunluqlar çox böyük elmi uzaqgörənliklə şərh və izah edildiyindən onlar geniş oxucu kütləsi ilə yanaşı mütəxəssislər və tədqiqatçılar üçün də böyük əhəmiyyət kəsb edir.

Sovetlər Birliyi dövründə nəşr edilmiş bu kitablarla tanışlıq oxucuda belə bir qənaət yaradır ki, möhtərəm prezidentimiz Heydər

Əliyevin o dövrkü fəaliyyəti bilavasitə Azərbaycanın tərəqqi və inkişafına yönəlmişdir.

Heydər Əliyev o dövrdə Sovetlər Birliyinin xammal və aqrar bazası hesab edilən Azərbaycan iqtisadiyyatını hərtərəfli inkişaf etdirərək, güclü infrastruktura malik bir respublikaya çevrilməyə yönəlmiş yeni inkişaf kursunu elan etdi. Bu kursun bütün mahiyyəti, strukturu, ümummilli əhəmiyyəti Heydər Əliyevin əsərlərində öz əksini tapmışdır. Bu kursun məzmununda respublikanın iqtisadi inkişafı ilə yanaşı olaraq, mədəni inkişafa da xüsusi diqqət yetirilmişdir. Bu da tezliklə - 70-80-ci illərdə respublikanın inkişafında özünü göstərdi, misli-bərabəri olmayan nəticələr əldə edildi. Ona görə də 70-90-cı illərin Azərbaycan tarixini obyektiv yazmaq, cəmiyyətdə baş verən proseslərin mənfi və müsbət istiqamətlərini müəyyənləşdirmək, xalqımızın qazandığı elmi və mədəni nailiyyətləri, sosial-iqtisadi inkişafın xüsusiyyətlərini hərtərəfli öyrənib araşdırmaq üçün Heydər Əliyevin əsərləri ən qiymətli və metodoloji əhəmiyyətə malik olan qiymətli mənbədir. Heydər Əliyevin o dövrdə nəşr edilmiş əsərlərində cəmiyyətin inkişafının tam mənzərəsi verilmiş, dövrün tarixi, baş verən hadisələr, həyata keçirilən problemlər ardıcıllıqla şərh edilmişdir.

1993-cü ildə xalqın istəyi və arzusu ilə hakimiyyətə gələn bu dahi şəxsiyyətin həyatının həmin illəri sakitlik və rahatlıq içində keçməmiş, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, milli dövlətçiliyin yaradılması və möhkəmləndirilməsi uğrunda aparılan gərgin mübarizə illəri olmuşdur. Heydər Əliyevin böyük siyasətə qayıtması dövlət müstəqilliyini qoruyub saxladı, Azərbaycanın bütövlüyünü, bu gününü və gələcəyini təmin etdi.

Dövlət başçımızın bu böyük fəaliyyəti, apardığı ölüm-qalım mübarizəsinin strategiyası və taktikası, uzaqgörən daxili və xarici siyasətin elmi-praktik əsasları onun o dövrdəki məruzələrində, çıxışlarında, nitqlərində, müraciətlərində öz əksini tapmışdır. Cəmiyyət quruculuğunun bütün sahələrini: siyasi, iqtisadi, mədəni və beynəlxalq sahələri əhatə edən bu əsərlər böyük milli-mənəvi sərvət əhəmiyyətinə malikdir. Ona görə də müstəqillik dövründə Heydər Əliyev irsinin öyrənilməsinə, əsərlərinin nəşr edilib yayılmasına böyük ehtiyac duyulmaqda idi. Cəmiyyətin özündən doğan, zamanın sifarişi olan bu ehtiyacın ödənilməsi böyük ümumxalq, dövlət əhəmiyyəti kəsb etməyə başlamışdır.



Xatırlatmaq istəyirəm ki, 1995-ci ilə qədər bu sahədə elə bir ciddi iş görülməmişdi. Məhz buna görədir ki, bu məsələ mətbuatda qaldırılmağa başladı. 1995-ci il may ayının 17-də «Azərbaycan» qəzetində bu məqalənin müəllifinin «Milli dövlətçiliyimiz naminə» yazısında Heydər Əliyev əsərlərinin nəşrinə başlanmasının zəruriliyi əsaslandırıldı. O dövrdə respublikamızda məşhur olan «Səhər» qəzetinin redaksiyası dərhal bu faydalı təşəbbüsə qoşularaq, dövlət başçısının 1989-1995-ci illərdəki fəaliyyətini əhatə edən irihəcmli, 848 səhifəlik «Qətiyyətin təntənəsi» adlı kitabını oxucuların istifadəsinə verdi.

Ümumiyyətlə, «Zəruri ön söz»dən və «Mən heç vaxt susmamışam», «Söz istəyirəm», «Naxçıvan yaşayır, döyüşür», «Xalqın iradəsi ilə», «Biz vətən müharibəsi aparırıq», «Sülhü arzulamaq azdır», «Dövlət özünü müdafiə etməyə qadirdir» başlıqlı 7 bölmədən ibarət olan «Qətiyyətin təntənəsi» kitabı Heydər Əliyevin zəngin ideya-nəzəri irsinin ayrı-ayrı nümunələrini ilk dəfə olaraq sistemləşdirən əvəzsiz mənbə kimi olduqca böyük əhəmiyyət kəsb edir.

Təqdirəlayiq bir haldır ki, 1997-ci ildən başlayaraq latın qrafikalı Azərbaycan əlifbası ilə H.Əliyevin «Müstəqilliyimiz əbədidir» çoxcildliyinin (oncildliyinin) nəşrinə başlanılmış və uğurla başa çatdırılmışdır. Azərbaycan Dövlət Nəşriyyatında yüksək poliqrafik icrada hazırlanan bu çoxcildliyin buraxılışına məsul Ramiz Mehdiyev və Hidayət Orucovdur. Çoxcildliyin çapa hazırlanmasında və nəşrində tərtibçilərin xüsusi xidmətini qeyd etmək yerinə düşər.

«Müstəqilliyimiz əbədidir» çoxcildliyinə H.Əliyevin xalqımızın istəyi və tələbi ilə 1993-cü ilin iyununda Azərbaycan rəhbərliyinə qayıdışından sonrakı çıxışları, nitqləri, bəyanatları, müsahibələri və s. daxil edilmişdir. Kitabdan göründüyü kimi, zəmanəmizin böyük tarixi şəxsiyyəti, dünya səviyyəli siyasi xadim, müdrik xalq rəhbəri H.Əliyev Azərbaycanın başı üzərində fəlakətlər dolaşan həmin dövrdə son dərəcə kəskin və coşqun siyasi fəaliyyətlə məşğul olmuş, özünün zaman-zaman qazandığı zəngin siyasi təcrübəsini bütövlükdə xalqımızın bəlalardan xilas olmasına, dövlət müstəqilliyimizin qorunub saxlanılmasına, qüdrətli və nüfuzlu Azərbaycan dövlətinin yaradılmasına, milli dövlətçiliyimizin inkişafına həsr etmişdir. Çoxcildlik tərtib olunarkən haqlı olaraq dahi şəxsiyyətin çıxışları, nitqləri, məruzələri, müraciətləri xronoloji ardıcıllıqla verilmişdir ki, bu da dövlətimizin başçısı Heydər Əliyevin çoxcəhətli ictimai-siyasi fəaliyyəti, gərgin iş rejimi, hadisələrə obyektiv

və prinsipial mövqedən yanaşması ilə yaxından tanış olmağa şərait yaradır.

Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» çoxcildliyinə daxil edilmiş materiallar 1993-cü ilin iyunundan bəri Azərbaycanda baş vermiş mürəkkəb ictimai-siyasi hadisələri, müstəqil milli dövlət quruculuğunun ayrı-ayrı mərhələlərini, ölkənin sosial, iqtisadi, hərbi, elmi və mədəni sahələrindəki problemləri, daxili və xarici siyasətin əsas istiqamətlərini dərindən təhlil etmək və həmin dövrü tam obyektiv qiymətləndirmək baxımından mühüm tarixi-siyasi əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, H.Əliyevin 4-5 illik ictimai-siyasi fəaliyyətinin salnaməsi olan «Müstəqiliyimiz əbədidir» çoxcildliyində dövlət başçısının rəsmi qəbullarındakı materiallar öz əksini tapmayıb. Buna baxmayaraq, çox vaxtında nəşr edilmiş bu oncildlik Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin müasir tarixinin son dərəcə ağır və məsuliyyətli bir dövrünü əhatə etdiyindən böyük elmi və tarixi mənbə kimi dəyərlidir. Çoxcildliyin alimlər, politoloqlar, siyasətşünaslar və digər mütəxəssislər, həmçinin geniş oxucular üçün qiymətli və əvəzsiz mənbəyə çevriləcəyi tamamilə şəksizdir.

Əminik ki, «Müstəqilliyimiz əbədidir» oncildliyinin hər kitabını dərindən öyrənən və mənimsəyən hər bir azərbaycanlı H.Əliyevin bütün əsərlərinin vətəndaşlıq, dövlətçilik, Vətənə sevgi dərsliyi olduğunu qətiyyətlə və məsuliyyətlə təsdiqləyəcək, respublikamızın gələcəyi naminə bu böyük şəxsiyyətin gördüyü möhtəşəm tədbirləri bir daha yüksək qiymətləndirəcəkdir.

Tamamilə maraqlı və alqışlanmalıdır ki, latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr edilən «Müstəqilliyimiz əbədidir» çoxcildliyi ilə yanaşı olaraq «Azərbaycan» nəşriyyatında 1997-ci ildən Heydər Əliyevin «Müstəqillik yollarında» oncildliyi kiril qrafikası ilə nəşr olunmuşdur. Bu oncildliyin buraxılışına məsul Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadədir. Nəfis şəkildə, yüksək bədii və poliqrafik tərtibatda nəşr edilən çoxcildliyin artıq dörd cildi işıq üzü görmüş və oxuculara çatdırılmışdır.

1-ci cildin «Ön söz»ündə deyildiyi kimi, «Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitq və çıxışlarını əhatə edən «Müstəqillik yollarında» çoxcildliyi siyasi tariximiz üçün xüsusi əhəmiyyət kəsb edən bir əsərdir. XX əsrin görkəmli siyasi xadimi Heydər Əliyev Azərbaycanın müstəqillik salnaməsi olan bu kitabla xalqına dövlət quruculuğu dərsliyini bəxş etmişdir. Kitabın



baş qəhrəmanı Azərbaycan xalqı, əsas mövzusu isə siyasi tarix olduğundan o, eyni zamanda vətəndaşlıq dərsliyidir».

Heydər Əliyevin «Müstəqillik yollarında» çoxcildliyi Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarını qurban verənlərə ithaf olunur, şəhidlərimizin işıqlı xatirəsini əbədiləşdirir. Bu kitab eyni zamanda ölkəmizin ziddiyyətlərlə, təlatümlərlə, problemlərlə dolu müasir dövrünün canlı şahidləri olan bugünkü Azərbaycan vətəndaşları və 90-cı illərlə bağlı tarixi həqiqətləri dərk etməyə can atan gələcək nəsillər üçün nəzərdə tutulmuşdur.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, oxuculara təqdim olunan «Müstəqillik yollarında» çoxcildliyini Heydər Əliyev rahat və yumşaq masa arxasında, geniş və işıqlı kabinetlərdə yazmamışdır. Kitaba daxil edilmiş hər bir nitq, hər bir çıxış xalqın gözü qabağında: ictimai-siyasi yığıncaqlarda, izdihamlı mitinqlərdə, əsgər səngərlərində, qaçqın düşərgələrində, rəsmi dövlət tədbirlərində, beynəlxalq məclislərdə yaranmış və Azərbaycanda dövlət quruculuğu proqramının, milli dövlətçilik ideologiyasının əsasını təşkil etmişdir. Bu çoxcildliyin hər birində müasir Azərbaycanın keçməkeşli tarixi öz geniş əksini tapmış, ölkənin iqtisadi, sosial, elmi, mədəni problemləri təhlil olunmuş, onların həlli yolları göstərilmişdir.

Onu da qeyd etmək lazımdır ki, "Müstəqillik yollarında" çoxcildliyinə Heydər Əliyevin yalnız prezidentlik dövründə söylədiyi çıxış və nitqlərinin bir hissəsi daxil edilmiş, 1993-cü ilin iyun ayından oktyabr ayınadək, yəni Azərbaycan Respublikası Ali Sovetinə rəhbərlik etdiyi dövr bu kitabda öz əksini tapmamışdır.

Bununla belə, çoxcildliyə daxil edilmiş materiallar əslində dövrümüzün əzəmətli və nəhəng abidəsidir. Bu tarixi abidənin qeyri-adi müəllifi isə zəmanəmizin dahi şəxsiyyəti, Azərbaycan xalqının dünya şöhrətli oğlu Heydər Əliyevdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin çoxcildlik əsərlərindən başqa Azərbaycan, rus və digər dillərdə 40-dan artıq adda ayrı-ayrı əsərləri nəşr edilmişdir. Bu kitablar geniş oxucu kütləsinin müxtəlif sahələrə dair sorğularını və ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, 1970-2003-cü illərdə Heydər Əliyevin təxminən 1500 çap vərəqi həcmində 209 adda kitabı nəşr edilmişdir. Bunlardan 151 adda kitab 1970-1993-cü illərin, qalan kitablar isə müstəqillik dövrünün payına düşür.

Maraqlıdır ki, bu kitabların ümumi həcmi Azərbaycan və rus dillərində 23 min səhifədən artıqdır.

23 min səhifədən artıq, 1500 çap vərəqi həcmində əsər yazmaq, onu çap etdirib xalqın istifadəsinə vermək heç də dünya dövlətləri başçılarının əksəriyyətinə nəsib olmamışdır. Belə xoşbəxtlik ancaq nadir dövlət başçılarının, Heydər Əliyev kimi dünya şöhrətli dövlət xadimlərinin qismətinə düşmüşdür. H.Əliyevin bu əsərləri, zəngin elmi-nəzəri irsi Azərbaycan xalqının milli sərvətidi, Azərbaycan kitabının qızıl fonduna daxildir.

Bütün bunlarla yanaşı olaraq, Heydər Əliyev haqqında nəşr olunmuş ədəbiyyat da diqqəti xüsusilə cəlb edir. Bu nəşrlər Azərbaycan, rus, ingilis, türk, fars, fransız və gürcü dillərindədir. Həmin kitablarda görkəmli dövlət xadiminin həyat və fəaliyyəti araşdırılır, zəngin və mənalı ömrünün müxtəlif sahələrinə ayna tutulur. Heydər Əliyev şəxsiyyəti dünənin bu günün və sabahın timsalında səciyyələndirilir, bütövlükdə bu dahi insanın mənəvi aləmi və ayrı-ayrı taleyüklü məsələlərə vətəndaşlıq mövqeyi xarakterizə olunur.

Heydər Əliyev haqqında ədəbiyyat Azərbaycan dilində 269 adda, rus dilində 36 adda, ingilis dilində 21 adda, türk dilində 5 adda, fars, fransız və gürcü dillərinin hərəsində isə 1 adda, cəmi 334 adda kitab nəşr edilmişdir.

Bütün bunlarla yanaşı, Heydər Əliyevə həsr edilmiş bədii ədəbiyyat nümunələri də xüsusi yer tutur. Onların arasında şairlərimizdən Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Fikrət Qoca, Xəlil Rza, Rəfiq Zəka, Əli Vəkil, Kəmalə və başqalarının dərc etdirdikləri şerlər bu böyük şəxsiyyətə xalq sevgisinin təzahürü kimi təqdirəlayiqdir.

Məhz buna görə də xalqımızın tükənməz milli, mədəni, mənəvi sərvətlərini qorumaq ideyasının daşıyıcısı olan Heydər Əliyev irsinin təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir.

Mən indi Heydər Əliyev irsinin daha dərindən öyrənilməsi və daha yaxşı təbliğ olunması məqsədilə bir sıra təkliflər irəli sürmək, bir çox tövsiyələr vemək istəyirəm. Bu tövsiyə və təkilfləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Heydər Əliyev irsini dərindən öyrənmək, əsərlərinin akademik nəşrini hazırlayıb nəşr etdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının, yaxud Bakı Dövlət Universitetinin yanında «Heydər Əliyev irsini öyrənən elmi mərkəz» yaradılmalı və tezliklə fəaliyyətə başlamalıdır; mərkəz «Heydər Əliyev və dövlətçilik məktəbi» adlı elmi jurnal da nəşr etdirə bilər;

- Məlum olduğu kimi, ABŞ prezidentlərinin bir neçəsi ayrıca kitabxana binası tikdirmiş və xalqa hədiyyə etmişdir. Məncə, «Heydər Əliyev irsini öyrənən elmi mərkəz»in yanında xüsusi kitabxana yaradılmasına başlanmalı və o, «Prezident Heydər Əliyev Kitabxanası» adlandırılmalıdır;

- Heydər Əliyevin əsərləri külliyyatını hazırlamaq və nəşriyyata təqdim etmək məqsədilə müxtəlif elm sahələrində çalışan görkəmli alimlərdən və yüksək səviyyəli mütəxəssislərdən ibarət işçi qrupu yaradılmalıdır.

- Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev əsərlərinin nəşrini və onların respublikamızın bütün kitabxanalarına verilməsini təmin etməlidir. Hazırda kitablar baha olduğundan əhalinin aztəminatlı təbəqəsi kitab almaq imkanından məhrumdur. Kitabxanalar isə oxuculara pulsuz xidmət göstərdiyindən hər bir kəs dövlət başçısının əsərlərini burada mütaliə edə biləcəkdir. Bu baxımdan imkanlı iş adamları da kitabxanalara yardım göstərməyə çalışmalıdırlar;

- M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında ayrıca «Heydər Əliyev kitab fondu» yaradılması məqsədəuyğundur. Bu fonda Heydər Əliyevin həmin kitabxanaya bağışladığı kitablar, onun öz əsərləri və ona həsr olunmuş kitablar, həmçinin dövlətçiliyimizə dair ədəbiyyat toplana bilər. Dövlət kitabxanasında xüsusi «Heydər Əliyev guşəsi» yaradılmasına da ehtiyac duyulmaqdadır;

- Azərbaycan Respublikası Təhsil Nazirliyi müxtəlif elm və bilik sahələrini əhatə edən təhsil standartlarını və fənn proqramlarını təsdiq edərkən Heydər Əliyev irsindən istifadə məsələsinə xüsusi diqqət yetirməlidir;

- Ali məktəb tələbələri üçün tərtib edilən fənn proqramlarında, dərslik və dərs vəsaitlərində Heydər Əliyev irsindən istifadə edilməsinə rektorluğun tələbkarlığı artırılmalı və bu işin elmi–metodik proqramı hazırlanmalıdır;

- Orta və ali məktəb tələbələri üçün yüksək səviyyədə tərtib edilmiş «Heydər Əliyev Azərbaycanın müstəqilliyi haqqında», «Heydər Əliyev müəllim haqqında», «Heydər Əliyev təhsil haqqında», «Heydər Əliyev elm haqqında» və s. mövzusunda məcmuələrin hazırlanıb nəşr olunması məqsədəuyğundur;

- Hazırda respublikamızda «Heydər Əliyev məktəbləri»nin geniş şəbəkəsi yaradılmışdır. Bu təqdirəlayiq iş davam etdirilməli, bütün məktəblərdə, mədəniyyət ocaqlarında, istehsalat və sənaye müəssisələrində, yaşayış məntəqələrində bu məktəb əhatəli fəaliyyətə başlamalıdır. Həmin məktəbin kənd mədəni-maarif müəssisələrinin yanında yaradılması, kənd kitabxanalarında «Heydər Əliyev fondu» təşkil edilməsi, Azərbaycanın müstəqilliyi ilə bağlı nəşrlərin də bu fonda daxil edilməsi də məqsədəuyğun olar.

***Халафов А.А.***

***Вопросы издания и пропаганда сочинений Гейдара Алиева***


**Резюме**

*В статье излагается концепция издание и пропаганды сочинений президента Азербайджанской Республики Гейдара Алиева. Статистические данные охарактеризует реализации этой концепции как в советском , так и независимом Азербайджане.*

**Abuzər XƏLƏFOV**
*Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

**Rasim KAZIMOV**
*Pedoqoji elmlər namizədi, dosent*

# *AZƏRBAYCAN ELMİNİN QIZIL FONDU*

## *(AMEA Mərkəzi Elmi Kitabxanasının bugünü və sabahı)*

XX əsrdə Azərbaycan xalqının qazandığı ən böyük nailiyyətlərdən biri onun Elmlər Akademiyasının yaranması və bununla da elm və mədəniyyətimizin tarixində yeni mərhələnin başlanması olmuşdur.

60 ilə yaxın bir dövr ərzində Milli Elmlər Akademiyası olduqca şərəfli və mürəkkəb bir inkişaf yolu keçmişdir.

Hazırda Milli Elmlər Akademiyamızın bir çox sahələr üzrə tanınmış alimlərinin tədqiqatları dünya elmi mərkəzlərinin diqqət mərkəzindədir, onlar tərəfindən öyrənilir və təqdir olunur.

Ölkəmizin prezidenti möhtərəm Heydər Əliyevin dediyi kimi, xalqın ümumi zəkasını, ağlını birləşdirən Azərbaycan Elmlər Akademiyası böyük bir sərvətdir.

Mübaliğəsiz deyə bilərik ki, Milli Elmlər Akademiyası xalqımızda sonsuz qürur, fərəh duyğusu oyadan elm, mədəniyyət və mənəviyyət ocağıdır.

Bu möhtəşəm elm ocağının təşkilatlanması və formalaşmasında görkəmli mütəfəkkirlərimiz və elm xadimlərimizdən M.Mirqasımov, Ü.Hacıbəyov, S.Vurğun, Y.Məmmədəliyev, M. Topçubaşov, H.Hüseynov və başqalarının əvəzsiz xidmətləri olmuşdur.

Son 60 ilə yaxın bir dövrdə xalqımızın ən böyük elm adamları: riyaziyyatçıları, fizikləri, kimyaçıları, geoloqları, bioloqları, tarixçiləri, filoloqları, filosofları, şərqşünasları, hüquqşünasları, iqtisadçıları, sənətşünasları, memarları, mətnşünasları məhz bu möhtəşəm elm ocağında fəaliyyət göstərmiş, yazıb yaratmışlar.

Bu gün də yeni demokratik, hüquqi dövlət, bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan üçün Milli Elmlər Akademiyası aparıcı elmi qüvvə kimi çıxış edir.

Böyük qürur hissilə qeyd etmək istərdik ki, 90-cı illərdə sovet imperiyası dağıldıqdan sonra bir sıra keçmiş sovet respublikalarında Elmlər Akademiyasının ləğv edilməsi və respublikamızda da bu məsələlərin bəzi mürtəce qüvvələr tərəfindən gündəmə gəlməsinə baxmayaraq xalqımız, dövlətimizin o qanlı-qadalı günlərində, ölkəmizin ağır sosial-iqtisadi böhran keçirdiyi bir vaxtda bu möhtəşəm elm məbədini qoruyub saxlaya bildi, burada çalışan ziyalılar isə elmə sadiq olduqlarını bir daha nümayiş etdirdilər.

Son vaxtlar dövlətimizin, onun prezidenti möhtərəm Heydər Əliyev tərəfindən Milli Elmlər Akademiyasına göstərilən qayğı, maddi və mənəvi köməklik, o cümlədən əməkdaşların əmək haqlarının artırılması ona ikinci nəfəs verdi, bu elm sükançısını yaşatmaq, yeni zirvələrə qaldırmaq üçün əsaslı zəmin yaratdı.

Azərbaycan Milli Elmlər Akademiyasının öz fəaliyyəti dövründə qazandığı ən böyük uğurlardan biri onun çoxsaholi kitabxana şəbəkəsinin və bu kitabxanalarda cəmləşdirilmiş, zəngin informasiya sərvətlərinin yaranması olmuşdur.

Özündə 4 milyona yaxın informasiya daşıyıcısı mühafizə edən bu möhtəşəm kitabxana şəbəkəsinin aparıcı müəssisəsi Mərkəzi Elmi Kitabxanadır.

Respublika üzrə təbiət, texniki və humanitar elmlər üzrə ən iri kitabxana sayılan, AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50 dilində 3 milyondan artıq ədəbiyyatı əhatə edən zəngin, universal kitab fonduna malikdir.

İlk özəyi 1923-cü ildə «Azərbaycan tədqiq və tətəbbö cəmiyyətində» yaradılmış bu möhtəşəm kitab məbədi 80 ilə yaxın bir dövr ərzində dünyanın ən böyük kitabxana-informasiya müəssisələrindən birinə çevrilərək hazırda Azərbaycan elminin qızıl fondunu təşkil edir. Bu kitabxana ölkəmizdə elmin inkişafında, ayrı-ayrı elm sahələrinin yaranması və formalaşmasında, yüzlərlə elmi kadrların yetişməsində əvəzsiz rol oynamışdır.

Kitabxananın yaranması və inkişafında müxtəlif dövrlərdə N.Nərimanov, Ə.Haqverdiyev, H.Zeynallı, Y.Məmmədəliyev, H.Hüseynov, Z.Xəlilov, M.A.Dadaşzadə, H.Araslı, M.Topçubaşov, H.Abdullayev, Z.Bünyadov kimi böyük alimlərin bilavasitə yaxından iştirakı və xidmətləri olmuşdur.



Ən yeni tarixin sosial təcrübəsi göstərir ki, hər bir ölkənin gücü və dinamik inkişafını təmin edən əsas amil yalnız təbii sərvətlər olmayıb, həm də onun yüksək intellektual potensialıdır. Bu intellektual potensialın varlıq formalarından ən mühümü isə kitabxanalarda cəmləşdirilmiş çap əsərləri və digər informasiya daşıyıcılarıdır.

Çap əsərləri xalqın, millətin, dövlətin elmi və mədəni potensialını bütün dünyada təmsil edən mədəni sərvətdir. Bu baxımdan AMEA-nın MEK-da formalaşmış informasiya sərvətləri Azərbaycan elminin qüvvəsi və qüdrətidir.

Burada xalqımızın və dövlətimizin lideri Heydər Əliyevin kitabxanalar haqqındakı müdrik sözlərini yada salmaq yerinə düşər. «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün, müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir».

Zənnimizcə, ABŞ prezidenti Corc Buşun da öz ölkəsinin kitabxanaları haqqında ifadə etdiyi aşağıdakı fikir inkişaf etmiş dövlətlərdə kitabxana işinə münasibətin təcəssümü kimi qiymətləndirilə bilər: «Qüvvətli texnika ilə təchiz edilmiş Amerika kitabxanaları ABŞ-ın iqtisadiyyatda və demokratiyada dünya liderliyinin əsas rəhnidir».

Məlum faktdır ki, müasir cəmiyyətdə elmin inkişafı müasir informasiya texnologiyasına əsaslanan kitabxanalardan səmərəli istifadə edilmədən mümkün ola bilməz. İndi kitabxanaların fəaliyyəti cəmiyyətdə getdikcə genişlənən və dərinləşən informasiyalaşdırma prosesləri ilə əlaqədar daha mürəkkəb şəkil almış, informasiya təminatı ilə əlaqədar daha çətin vəzifələrin həll edilməsinə yönəldilmişdir. Bu gün kitabxanaların və xüsusən elmi kitabxanaların fəaliyyətinin həmişə daşıdığı mənası xeyli dəyişmiş, zənginləşmiş və genişlənmişdir. Bu, şübhəsiz ki, ilk növbədə kitabxanaların cəmiyyətdə baş verən informasiyalaşdırma proseslərinə inteqrasiyası ilə əlaqədardır. Bütün dünya elmi, informasiya axınının sürətlə artımı, köhnəlməsi və səpələnməsi elmdə baş verən inteqrasiya və diferensiasiya meyilləri elmi tədiqatların kitabxana-informasiya təminatı qarşısında ciddi, keyfiyyətcə yeni vəzifələr qoyur.

XXI əsr cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin modernləşdirilməsi, hərtərəfli inkişafı və yüksəlişi əsri olmalıdır.

Bu baxımdan MEA-nın MEK-nın fəaliyyətində dövrün tələblərinə müvafiq əsaslı dəyişikliklərin həyata keçirilməsi, kitabxanaya diqqət və qayğının artırılması zərurəti meydana çıxır.

Etiraf etməliyik ki, MEK-nın fəaliyyəti həmişə Milli Elmlər Akademiyası rəhbərliyinin diqqət mərkəzində olmuşdur.

Hələ 60-cı illərdə akademiya şəhərciyinin əsas binası istifadəyə verilərkən orada kitabxana üçün xüsusi korpus ayrılmış, kitabxana dövrün müasir avadanlığı və texniki vasitələri ilə təchiz edilmişdir. MEK 90-cı illərin əvvəllərinə qədər kifayət dərəcədə maliyyə vəsaiti, o cümlədən hər il orta hesabla 40-45 min məbləğində valyuta ilə təmin edilmişdir. Bunun nəticəsində MEK-ya hər il təqribən 100 min nüsxə yeni elmi ədəbiyyat daxil olurdu.

Kitabxana hər il Elmlər Akademiyasında təmsil olunmuş elmi istiqamətlər üzrə SSRİ məkanında rus dilində nəşr edilən bütün əsərlərin pullu məcburi nüsxələrini, eləcə də xarici ölkələrdən 13-15 min adda monoqrafiyalar, dissertasiyalar, elmi əsərlər, məcmuələr, 2 min addan artıq dövri mətbuat materialları alırdı. Bütün bunlarla yanaşı, MEK kifayət qədər yerli nəşrlər əldə edirdi. Mübadilə fondunun hesabına dünyanın 55 ölkəsinin 500-dən artıq elmi müəssisəsi ilə kitab mübadiləsi təşkil edərək öz fondunu zənginləşdirirdi.

Milli Elmlər Akademiyası Rəyasət Heyətinin diqqət və qayğısı nəticəsində vaxtaşırı kitabxananın strukturu təkmilləşir, ştatı artır, maddi-texniki bazası güclənir, işçilərin fəaliyyətinin maddi və mənəvi stitmullaşdırılması siyasəti həyata keçirilirdi.

70-80-cı illərdə MEK artıq SSRİ məkanında yüksək nüfuz qazanmış iri kitabxana informasiya elmi müəssisəsi kimi tanınırdı. Kitabxananın bazasında kitabxanaçılıq, biblioqrafiya və elmi informasiya problemləri üzrə ümumittifaq və respublika əhəmiyyətli elmi konfranslar, seminar və müşavirələr təşkil edirdi.

MEK hər il elmin müxtəlif problemləri və görkəmli elm və mədəniyyət xadimlərinə həsr olunmuş, 50-60 çap vərəqi həcmində əsaslı biblioqrafik əsərlər çap edir, elmi-tədqiqat müəssisələrinə operativ informasiya xidməti sistemi tətbiq edirdi.

MEK akademiyanın elmi-tədqiqat müəssisələrindəki kitabxanaların fəaliyyətini istiqamətləndirir, onlara metodik kömək göstərir, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsi məqsədilə kurslar, seminarlar və praktikumlar təşkil edirdi.

Kitabxanada yaradılmış elmi-tədqiqat şöbəsində Azərbaycanda kitabxana işinin tarixi və nəzəri problemləri, elmi işçilərə kitabxana xidmətinin optimallaşdırılması istiqamətində tədqiqatlar aparılırdı.



Təsadüfi deyildi ki, MEK dəfələrlə elmi kitabxanaların ümumittifaq müsabiqələrinin qalibi diplomlarına layiq görülmüşdü.

Şübhəsiz ki, MEK-nın əldə etdiyi bütün bu nailiyyətlər Milli Elmlər Akademiyası rəhbərliyinin dəstəyinin və qənaətbəxş madditexniki təminatının nəticəsi idi.

90-cı illərdən başlayaraq məlum səbəblərdən, o cümlədən SSRİ məkanında vahid informasiya sisteminin pozulması səbəbindən MEK-nın fəaliyyətinində böhran vəziyyəti yarandı. Belə vəziyyət özünü ilk növbədə elmi-informasiya qıtlığında göstərdi. Maliyyə çatışmazlığından kitabxana fondunun yeni ədəbiyyatla tamamlanması işində ciddi boşluqlar yarandı, elmi tədqiqatların operativ informasiya təminatı dayandırıldı. Kitabxananın maddi-texniki bazası zəiflədi, onun yeni, müasir kompüter texnologiyası ilə təmin edilməsi ləngidi, beynəlxalq əlaqələri məhdudlaşdırıldı. Eyni zamanda akademiyada kitabxana-informasiya sisteminin idarəetmə mexanizmi elmi də yeni reallıqlara uyğun şəkildə təkmilləşdirilə bilmədi.

Bütün bunlar elmi işçilərin MEK-dan istifadə intensivliyini zəiflətdi, bu da öz növbəsində Milli Elmlər Akademiyasında aparılan elmi tədqiqatların keyfiyyət və kəmiyyət göstəricilərinə mənfi təsir göstərdi.

Sevindirici haldır ki, son vaxtlar MEA-nın rəhbərliyi, xüsusən Akademiyanın prezidenti Mahmud Kərimov tərəfindən MEK-ya diqqət artmış, onun fəaliyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür.

Kitabxananın maddi-texniki təminatının güclənməsi kadr potensialının strukturunun təkmilləşdirilməsi rəhbərliyinin demokratik seçki üsulları ilə seçilməsi və s. tədbirlər, şübhəsiz ki, təqdirəlayiqdir.

Eyni zamanda bu gün MEA-da elmi tədqiqatların kiatbxanainformasiya təminatında hələ öz həllini gözləyən problemlər çoxdur. Bu problemlərin həlli ilk növbədə MEK-nın fəaliyyətinin köklü şəkildə yeniləşməsi zərurətini irəli sürür. Biz bu yeniləşməni təmin edən elmi-təşkilatı işlərin mühüm istiqamətlərini belə görürük:

- Zənnimizcə, ilk növbədə MEA sistemində elmi tədqiqatların kitabxana-informasiya təminatında MEK-nın rolunu yaxın gələcəkdə onun fəaliyyətinin sistemli inkişafının mühüm istiqamətlərini müəyyənləşdirən konsepsiya yaradılmalıdır.

Bu konsepsiya qarşıdakı 10-12 il ərzində MEK -nın informasiya ehtiyatlarının inkişaf meyllərini, onların istifadə səmərəliliyinin artırılması yollarını, oxuculara kompleks xidmət proseslərinin informasiyalaşdırılması istiqamətlərini, eləcə də kitabxananın strukturunun, maliyyələşdirilmesi və maddi-texniki təminatının, kadr potensialının və idarəetmə mexanizminin yerləşdirilməsini təmin edə biləcək elmi əsaslarda qurulmuş strateji proqram olmalıdır;

- MEK-nın fəaliyyətini normal vəziyyətə salınması məqsədilə ən mühüm və təxirəsalınmaz tədbirlər, onun maliyyələşdirilməsinin qənaətbəxş səviyyəyə qaldırılması olmalıdır.

Kitabxananın illik büdcəsi ona yerli ədəbiyyatla yanaşı, ABŞ, Rusiya, Qərb və Şərq ölkələrində buraxılan və MEA-nın elmi istiqamətlərinə müvafiq mühüm çap əsərlərini, xüsusən dövrü orqanları və elektron nəşrlərini əldə etmək imkanı yaratmalıdır.

Bu məqsədlə kitabxananın əvvəlki illərdə olduğu kimi, kifayət məbləğdə valyuta ilə təmin edilməsi olduqca vacibdır.

Unutmaq olmaz ki, elmi informasiyaya qoyulan kapital heç vaxt səmərəsiz olmur. Onun səmərəsi özünü mütləq elmi tədqiqatların nəticəsində göstərir.

Əks halda, məşhur ingilis alimi, elmşünaslığın banisi, Nobel mükafatı laureatı C.Bernqalın dediyi kimi: «Elm prosesi yeni informasiya ilə təmin edilmədikdə, tədqiqatçılar əksər hallarda «velosiped» icad etməyə məhkum olurlar».

- MEK-nın informasiya ehtiyatlarının zənginləşməsində maliyyə baxımından baha başa gələn ənənəvi çap materialları ilə yanaşı, həmin materialların, xüsusən dövri nəşrlərin elektron versiyalarının əldə edilməsinə xüsusi diqqət yetirilməlidir. Məlumdur ki, son illər Rusiya Elmi Kitabxanaları tərəfindən xüsusi proqramlar çərçivəsində müxtəlif elm sahələri üzrə dünya dövrü orqanlarının məzmununun elektron versiyaları hazırlanıb kitabxanalara təqdim edilir. Belə proqramların əldə edilməsi kitabxanalara ənənəvi üsuldan təqribən 15-20 dəfə ucuz başa gəlir. Beləliklə, istər iqtisadi, istərsə də informasiyanın operativliyi baxımından kitabxananın fondunun yeni informasiya daşıyıcıları ilə tamamlanmasında elektron nəşrlərin alınması tədricən ön plana çəkilməlidir.

- MEK-nın informasiya potensialının inkişafı vəzifələri onun ədəbiyyat mübadiləsi istiqamətində beynəlxalq əlaqələrinin genişlənməsi zərurətini irəli sürür. Bu sahədə zəngin təcrübəyə və ənənələrə malik olan MEK üçün ölkəmizin müstəqilliyi şəraitində



daha geniş imkanlar yaranmışdır. Respublikada dünyanın aparıcı dövlətlərinin səfirliklərinin mövcudluğu, informasiya azadlığının təmin edilməsi, beynəlxalq əlaqələrdə sovet rejimindən miras qalmış bürokratik əngəllərin aradan qaldırılması, «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda kitabxanaların beynəlxalq əlaqələrinin hüquqi bazasının yaradılması, nəhayət, ölkəmizdə müxtəlif beynəlxalq yardım və inkişaf fondlarının fəaliyyəti, MEK-nın dünya kitabxanaları və digər elmi təşkilatları ilə ədəbiyyat və informasiya mübadiləsi istiqamətində əməkdaşlıq fəaliyyətinin inkişafı, kooperasiya və əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır ki, belə şəraitdə MEK daha səmərəli istifadə etməklə özünün informasiya ehtiyatlarını və bütövlükdə fəaliyyətini əsaslı surətdə təkmilləşdirə bilər.

Xatırlatmaq istəyirik ki, beynəlxalq kitab mübadiləsi iqtisadi baxımdan çox əlverişlidir. Çünki manatla alınan yerli nəşrlərin valyuta tələb edən xarici nəşrlərlə mübadiləsi kitabxananın maliyyə vəsaitinin daha səmərəli istifadəsini təmin edir.

Beynəlxalq kitab və informasiya mübadiləsinin bir mühüm üstünlüyü də ondan ibarətdir ki, mübadilə prosesində bir tərəfdən dünya elminin nailiyyətləri Azərbaycan elmi ictimaiyyətinə çatdırılırsa, digər tərəfdən, ölkəmizin alimlərinin əsərləri xarici ölkə kitabxanalarına daxil olur ki, bu da öz növbəsində elmimizin uğurlarının dünya miqyasında tanınmasına və təbliğinə xidmət edir.

- MEA-nın MEK-nın fəaliyyətinin yeniləşməsinin ana xəttini dünyada baş verən kitabxana-informasiya prosesləri kontekstində oxuculara xidmət sisteminin yenidən dərk olunması və bu sistemin müasir modelinin hazırlanıb həyata keçirilməsi təşkil etməlidir.

İnkişaf etmiş ölkələrin kitabxana təcrübəsi sübut edir ki, bu gün oxuculara kitabxana xidmətinin optimallaşdırılması yalnız və yalnız elmi prinsiplər və müasir informasiya texnologiyası əsasında mümkündür.

Hazırda dünyada baş verən qlobal informasiyalaşdırma prosesləri oxuculara və xüsusən elmi işçilərə kitabxana xidmətinin fəlsəfəsini dəyişmiş, bu işi ənənəvi kitab verilişindən dünya informasiya məkanından tam, dolğun, operativ və kompleks şəkildə istifadə etmək səviyyəsinə qədər inkişaf etdirmişdir.

Bu baxımdan MEK-da oxuculara xidmət prosesinin hələ də köhnə, primitiv şəraitdə olmasını etiraf etməyə məcburuq.

Müasir dövrdə MEK-da oxuculara xidmət işi elmi proseslərin informasiya təminatının dinamikliyini nəzərə almaqla keyfiyyət və təşkilati baxımdan yeni mütərəqqi iş üsulları ilə zənginləşməlidir.

Bu iş üsulları özündə kompüter texnologiyasına əsaslanan SD-ROM elektron nəşrləri, elektron poçtu, elektron kataloqları, məlumat bazaları və məlumat bankları internet məkanında istifadə etmə, ON-LİNE ədəbiyyat axtarış və sifarişi və s.səmərəli xidmət vasitələrini birləşdirən proqramlaşdırılmış sistemli fəaliyyət kimi həyata keçirilməlidir.

Oxuculara xidmət prosesi eyni zamanda, MEA-nın elmi istiqamətlərinə, tədqiqatçıların informasiya tələbatlarına tam uyğunlaşmış çevik, müntəzəm sürətdə təkmilləşən idarəetmə mexanizminə malik olmalıdır.

Şəbhəsiz ki, oxuculara xidmət işinin müasir informasiya texnologiyası əsasında yeniləşməsi ilə əlaqədar meydana çıxan məsələlərin həlli MEK-nın maddi-texniki bazasının əsaslı surətdə gücləndirilməsini tələb edir.

Oxuculara xidmət prosesinin kompleks avtomatlaşdırılması üçün tətbiqi proqram paketinin hazırlanması, zəruri olan texniki qurğular və vasitələrin, o cümlədən kompüter şəbəkəsi, kommunikasiya elektirik, mühafizə avadanlıqlarının alınması, rabitə xətləri və kanallarının yaradılması, eləcə də yerləşdirmə və quraşdırma işləri avtomatlaşdırılmış, işçi yerlərinin hazırlanması və s. tədbirlərin həyata keçrilməsi xeyli vəsait tələb edəcəkdir. Biz belə düşünürük ki, bu prosesin həyata keçirilməsində dövlət vəsaiti ilə yanaşı, beynəlxalq yardım fondlarının maliyə köməyindən daha fəal və məqsədyönlü istifadə edilməlidir.

Onu da qeyd edək ki, son illər MEK bu istiqamətdə müəyyən təcrübə əldə etmişdir. Lakin bu təcrübə hələlik sistemli fəaliyyətə çevrilməmiş, alınan qrantlar isə oxuculara xidmət ilə əlaqədar əsaslı problemlərin həllinə yönəlməmişdir.

Zənnimizcə, bu gün MEK-nın fəaliyyətində kitabxana informasiya proseslərinin kompleks avtomatlaşdırılmasının və bu çərçivədə oxuculara xidmət işinin tam informasiyalaşdırılmasını həyata keçirən qrant proqramının tərtib edilməsi və müvafiq donor təşkilatları tərəfindən bu proqramın maliyyə dəstəyini təmin etmək prioritet istiqamət olmalıdır.

Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılmasının ən mühüm şərtlərindən biri də onun



kadr potensialının qüvvətləndirilməsidir. Bu məsələ ilə əlaqədar xatırlatmaq istərdik ki, dünyanın ən qədim və humanist peşələrindən biri olan kitabxanaçılıq peşəsi keçmiş kitabdarlar və klassik kitabxanaçılardan başlayaraq müasir dövrə qədər öz missiyasını hər bir dövrün elmi, mədəni tələbatına kifayət qədər səmərəli xidmət göstərmişdir. Bu gün isə kitabxanaçı peşəsi öz klassik mənasını və missiyasını cəmiyyətin inkişafının reallıqlarına uyğun şəkildə yeniləşdirmişdir. Hazırda kitabxanaçılıq peşəsi özündə «Kitabxanaçı-biblioqraf», «Kitabxanaçı-informator», «Kitabxanaçı-sosioloq», «Kitabxanaçı-analitik», «Kitabxanaçı-marketoloq», «Kitabxanaçı-texnoloq», «Kitabxanaçı-menecer» «Kitabxanaçı-politoloq» və s. ixtisasları birləşdirən sosial, elmi, mədəni kommunikasiya peşəsinə çevrilmişdir.

Beynəlxalq standartlara görə müasir kitabxanaçılar dünyada informasiya axınının inkişaf qanunauyğunluqlarına dərindən bələd olan, kompüter texnologiyasını mənimsəmiş, bir neçə dildə təmasda olmaq bacarığına, malik, yüksək intellektual səviyyəli ziyalı təbəqəsidir.

Bu kontekstdə MEK-nın kadr potensialına, onun kollektivinə və xüsusən aparıcı mütəxəssislərinə verilən peşə tələblərində, əsaslı keyfiyyət dəyişikliklərinin aparılması zərurəti aktuallaşır.

Etiraf etməliyik ki, bu gün, Milli Elmlər Akademiyası sistemində çalışan kitabxanaçılar respublikanın təqribən 40 minlik kitabxana işçiləri sırasında ən yüksək maaşla təmin edilən işçilərdir.

Milli Elmlər Akademiyası sistemində elmi işçilrin əmək haqlarının artırılmasının kitabxana işçilərinə də şamil edilməsi dövlətimizin, akademiyanın rəhbərliyinin kitabxana işinin elmin inkişafındakı rolunun yüksək qiymətləndirilməsindən xəbər verir ki, bu da çox sevindirici haldır.

Akademiya sistemində kitabxana işçilərinə göstərən qayğı kitabxanalarda ilk növbədə MEK-da kadrların seçilməsi və yerləşdirilməsi işində yeni daha yüksək meyarların tədbiq edilməsini tələb edir.

Biz belə güman edirik ki, MEK-nın rəhbərliyi ilə yanaşı kitabxananın şöbə və qrup müdirləri, aparıcı mütəxəssisləri də (baş kitabxanaçılar, baş biblioqraflar) mütləq müsabiqə yolu ilə seçilməlidirlər.

Kitabxanaya kadrlar seçilərkən BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin magistraturasını bitirənlərə, habelə xarici dilləri və kompüter texnikasını bilənlərə üstünlük verilməlidir.

Eyni zamanda MEK-da MEA-nın kitabxana şəbəkəsinin əməkdaşlarının peşə səviyyəsinin yeniləşməsini və yüksəldilməsini təmin edən ixtisasartırma sistemi yaradılmalıdır. Müvafiq tədris planı və proqramları əsasında təşkil edilmiş ixtisasatrırma prosesində kitabxana işçiləri dünya kitabxana-informasiya məkanında baş verən yeniliklərə xüsusi diqqət yetirməlidirlər.

Bu məqsədlə MEK-da qrant proqramları əsasında kitabxana-informasiya problemləri üzrə beynəlxalq seminar – treninqlərin təşkil edilməsi olduqca vacibdir.

MEK-nın kadr paotensialının təkmilləşdirilməsində perspektivli əməkdaşların xarici ölkələrin kitabxanalarında və ilk növbədə Rusiya Elmlər Akademiyasının kitabxanalarında stajorluq keçməsi faydalı olar.

Zənnimizcə, EA-nın sisteminin kitabxana işçilərinin vaxtaşırı attestasiya edilməsi də kadr tərkibinin təkmilləşməsinə yönəlmiş tədbir ola bilər.

Nəhayət, bizə elə gəlir ki, MEK-nın kadr potensialının qüvətləndirilməsi istiqamətində olduqca əhəmiyyətli tədbirlərdən biri də kitabxanaya «elmi müəssisə» statusunun verilməsi olar. Bu status MEK -ya kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, elmi informasiya və digər sahələrdə yüksək elmi potensiala malik alim- mütəxəssislərin cəlb edilməsinə əlverişli şərait yaradar, onun bazasında profilli istiqamətlər üzrə aspirantura xətti ilə elmi kadrların hazırlanması üçün geniş imkanlar açardı. Onu da qeyd edək ki, Rusiya və keçmiş sovet respublikaları EA MEK-nın əksəriyyəti bu statusa maliikdirlər.

Bir sözlə MEA-nın MEK-nın elmi əsaslarla qurulmuş, kadr siyasətinin strateji proqramı yaradılıb həyata keçirilməlidir.

- Məlum olduğu kimi hər bir elmi müəssisənin normal fəaliyyətini təmin edən mühüm amillərdən biri də onun struktur quruluşudur. Bu baxımdan bizim qənaitimizə görə MEK-nın müasir strukturunu qənaətbəxş saymaq olmaz.

Son vaxtlar kitabxananın quruluşunda edilmiş «yeniliklər», məntiqsiz dəyişikliklər özünü doğruldmur. Belə ki, elmi kitabxanaların fəaliyyətinin ən mühüm istiqamətlərindən birini təşkil edən «elmi biblioqrafiya» şöbəsinin ləvğ edilib onun «nəşriyyat» şöbəsi ilə əvəz edilməsini, «elmi-texniki informasiya» şöbəsinin quruluşunun heçə endirilməsini, ədəbiyyatın kataloqlaşdırılması ilə əlaqədar struktur dəyişikliklərini, eləcə də elmi-tədqiqat və metodik şöbələrin fəaliyyətinin faktiki olaraq ləvğ edilməsini, bu gün ehtiyac duyulmayan yeni kütləvi işlər şöbəsinin yaradılmasını və s. lüzumsuz təşkilati tədbirlərin qeyri-məntiqli olduğunu sübut edən kifayət qədər əsaslar vardır. Bunun üçün Rusiya və digər ölkələrin elmi kitabxanalarının strukturu ilə tanış olmaq də kifayət edər.

Biz bu məqalədə heç də MEK-nın müasir texnoloji prinsiplərə əsaslanan struktur qruluşunun sxemini təqdim etmək fikrində deyilik. Məqsədimiz sadəcə olaraq MEK-nın struktur quruluşunun, onun şöbə və bölmələrinin hazırkı ştat cədvəli əsasında dünya təcrübəsi kontekstinldə yenidən baxılması zərurətini nəzərə çatdırmaqdır.

- MEK-nın fəaliyyətinin yaxın gələcəkdə dünya standartları səviyyəsinə qaldırılmasının mühüm şərtlərindən biri də onun idarəetmə mexanizminin təkmilləşməsidir.

- Kitabxananın idarə olunma problemi çoxşahəli olduğundan biz bu problemin bəzi məsələlərinə toxunmaq istəyirik.

- Əvvəla məqaləmizin əvvəlində qeyd etdiyimiz kimi MEK-nın fəaliyyəti onun inkişaf strategiyasını əks etdirən konsepsiya əsasında idarə olunmalı və tənzimlənməlidir.

- İlk növbədə kitabxananın müasir sosial funksiyalarını müəyyənləşdirən nizamnaməsinin, yeni variantı hazırlanmalı, eləcə də onun şöbələrinin, digər bölmələrinin, həmçinin işçilərin funksiyanal vəzifələrini və mühüm texnoloji proseslərini tənzimləyən normativ sənədlərin müasir vəzifələrə uyğun yeni variantları hazırlanıb MEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilməlidir.

- MEK-nın fəaliyyətinin yeniləşməsi ilə əlaqədar meydana çıxan problemlərin operativ həllində MEA-nın Rəyasət Heyətinin Kitabxana Şurasının rolu gücləndirilməli və səlahiyyətləri genişləndirilməsidir. Bu məqsədlə kitabxana şurasının tərkibinin təkmilləşdirilməsi, bəzi «fəxri üzvülərin» işgüzar alimlərlə əvəz olunması, eləcə də şuranın fəaliyyətinə respublikanın tanınmış kitabxanaşünas alim və mütəxəssislərinin cəlb edilməsi faydalı olardı.

- Kitabxana şurası ilə ilə yanaşı MEK-nın elmi-metodik şurasınında da respublikanın təcrübəli kitabxana mütəxəssilərinin iştirak etməsi onun fəaliyyətinə səmərəli təsir göstərərdi.

- Müasir dövrdə MEK-nın idarə oolunmasında demokratik, sağlam, işgüzar iqlim yaradılmalı, süni inzibatçılıq, birokratizm, diletantçılıq və digər zərərli ünsürlər aradan qaldırılmalıdır.

- Nəhayət, MEK-nın fəaliyyətinin elmin müasir tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi onun müstəqil bina ilə təmin edilməsi zərurətini irəli sürür.

- Bu məqsədlə yaxın gələcəkdə kitabxana üçün Akademiya şəhərciyində 5 millyonluq kitab fondu sahəsi, ixtisaslaşdırılmış oxu zalları və kabinələri olan, müasir texniki vasitələri ilə təchiz edilmiş, nadir və unikal nəşrlərin mühafizəsini təmin edən xüsusi şəraitə malik yeni binanın tikilməsi ən vacib vəzifə kimi meydana çıxır.

- Zənnimizcə, MEA-nın rəhbərliyi tərəfindən bu işin həyata keçirilməsi elmimizə çox böyük töhfə olardı.

- MEK-nın müstəqil bina ilə təmin edilməsi alimlərə həftə ərzində fasiləsiz və iki növbəli xidmət göstərilməsi üçün şərait yaradılması ilə yanaşı, elmi tədqiqatları kitabxana-informasiya təminatında keyfiyyətcə yeni tarixi mərhələ olardı. Əlbəttə, bu iş nəzərə çarpan dərəcədə kapital qoyuluşu tələb edəcəkdir. Bununla əlaqədar xatırlatmaq istərdik ki, Yaponların məşhur »Kim informasiyaya malikdirsə, o dünyaya malikdir» ifadəsində çox böyük həqiqət vardır.

- Odur ki, alimlərimizin informasiyaya malik olması naminə çəkilən xərc özünü mütləq doğruldacaqdır.

- Biz əminik ki, MEA-nın möhtəşəm informasiya mənbəyi olan MEK, onun zəhmətkeş kollektivi elmimizin inkişafına daha layiqli, daha səmərəli xidmət göstərəcəklər.

***Халафов А.А.***
***Кязимов Р.А.***

***Золотой фонд Азербайджанской науки***

**Резюме**

*В статье освещены важнейшие проблемы совершенствования деятельности центральной научной библиотеки Национальной Академии Наук Азербайджана в информационном обществе.*

***Tacəddin QULİYEV***
*Kitabxana fondu və kataloqların*
*təşkili kafedrasının müdiri,*
*tarix elmləri namizədi, dosent*

# *AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQI KİTABXANALARI 1981-1985-ci illərdə*

***2-ci məqalə***

1981-1985-ci illərdə respublikamızda həmkarlar ittifaqlarının kitabxana şəbəkəsi sənayenin, yeni zavod və fabriklərin, elmin və mədəniyyətin inkişafı ilə birlikdə artırdı. Bu dövrdə elə bir zavod, fabrik, sovxoz və digər sənaye müəssisəsi yox idi ki, orada həmkarlar ittifaqları kitabxanası və bu kitabxanaların zəngin fondu olmasın.

Respublikanın həmkarlar ittifaqları kitabxanalarının ən xarakterik cəhəti o idi ki, bunlar istehsala daha çox yaxınlaşdırılmış və onların hər biri müəyyən oxucu kollektivinə-müəssisələrin əməkdaşlarına xidmət göstərirdi və buna görə də onların sorğularını ödəmək üçün daha çox imkanlara malik idi. Həmkarlar ittifaqları kitabxanaları oxucuların istehsalat sorğularına xidmət etmək üçün öz fondlarını məhdud xüsusi ədəbiyyatla yox, nisbətən geniş istifadə üçün, kütləvi istehsalat təhsili üçün, o cümlədən ali, orta ixtisas və texniki-peşə məktəblərində xüsusilə qiyabi təhsil alan oxucular üçün nəzərdə tutulan kitablarla komplektləşdirirdilər.

Respublika həmkarlar ittifaqları kitabxana fondlarının 1981-1985-ci illərdə formalaşdırılması haqqında 1-ci məqalədə geniş bəhs edilmişdir.

Kitabxana fondlarının düzgün komplektləşdirilməsi kitabxana işçilərinin qarşısında duran mühüm vəzifə olduğu kimi, fondun işlənməsi, sistemləşdirilməsi, kataloqlaşdırılması və nəhayət, fondun oxucular arasında geniş təbliğ edilməsi də vacib iş prosesidir.

Bu mənada 1981-1985-ci illərdə həmkarlar ittifaqları kitabxanalarının əsas vəzifələrindən biri oxucularda peşə biliklərinin genişləndirilməsinə kömək göstərilməsi, ictimai-siyasi, təbii-elmi, texniki və bədii ədəbiyyat mütaliəsinə rəhbərlik, əmək adamlarının estetik tərbiyəsinə kömək göstərilməsindən ibarət olmuşdur.

Respublika həmkarlar ittifaqları kitabxanaları uzun illərdir ki, fəhlə və qulluqçuların hərtərəfli inkişafı, dünyagörüşünə, peşə və texniki biliklərə sahib olmaları üçün zəruri olan ən mühüm ədəbiyyatın seçilməsi və oxuculara çatdırılmasına çalışırlar. Bu kitabxanalar fasiləsiz təhsilin bazası kimi oxucuların bütün qruplarına, oxucuların mütaliə dairəsinin formalaşmasına kömək edən kitab təbliğinin və mütaliəyə rəhbərliyin bütün forma və üsullarından, o cümlədən mədəni–kütləvi tədbirlərdən geniş istifadə edirlər.

Həmkarlar ittifaqları göstərdiyimiz vəzifələri yerinə yetirmək üçün öz işlərini daim təkmilləşdirir, kitab təbliğinin və mütaliəyə rəhbərliyin elmi əsaslarını -- kitabxana işinin sosioloji, psixoloji, pedaqoji tərəflərinin inkişaf etdirilməsinə çalışır, oxucuları öyrənir, xidmət işinin səmərəliliyini öyrənir və yeni metodları praktikada tətbiq edir. Əmək adamlarını mənəvi cəhətdən tərbiyə etmək məqsədilə kitabın kompleks təbliğindən, tövsiyə biblioqrafiyasından və kitab təbliğinin metodlarından və s. geniş istifadə edilir.

Respublika həmkarlar ittifaqları kitabxanaları başlıca olaraq oxucuların istehsalat fəaliyyəti ilə, xalq təsərrüfatının bütün sahələri üçün yüksək ixtisaslı mütəxəssis kadrların tərbiyə edilməsi və hazırlanması ilə əlaqədar tələbləri təmin etməyə səy göstərirlər.

1981-1985-ci illərdə Azərbaycan Respublikası sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində mühüm bir şərt – əhalinin intellektual səviyyəsinin yüksəldilməsini tələb edirdi.

Qeyd etdiyimiz kimi, bu işdə kitabxanaların qarşısında çox mühüm vəzifələr qoyulmuşdur. Bu vəzifələrin həyata keçirilməsində AHİŞ Katibliyinin 1982-ci il iyunun 27-də "Respublika həmkarlar ittifaqları kitabxanalarının vəziyyəti, onların fəaliyyətinin təkmilləşdirilməsi və əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması tədbirləri haqqında" (1) qərarının mühüm əhəmiyyəti oldu. Qərarda göstərilir ki, respublikanın xalq təsərrüfatı sahəsində olduğu kimi, mədəniyyət sahəsində də görkəmli nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərin əldə edilməsində qabaqcıl iş təcrübəsinə malik olan həmkarlar ittifaqları kitabxanalarının dövlətin qarşıya qoyduğu bütün vəzifələri yerinə yetirməsi üçün böyük potensial qüvvəyə, ehtiyat



mənbələrinə malik olması mühüm şərt olaraq qalır. Bu potensial qüvvə isə ancaq MKS şəraitində mümkündür. Ona görə də bu sistemi genişləndirmək lazımdır.

1981-1985-ci illərdə fəhlə sinfinin dünyagörüşünün yüksəldilməsi işinin ön sıralarında gedən respublika həmkarlar ittifaqları kitabxanalarının fəaliyyəti məhz bu vəzifələrin yerinə yetirilməsinə doğru yönəlmişdir.

MKS şəraitində oxuculara xidmət işinin məzmununu həm də oxucu tərkibinin öyrənilməsi təşkil edir. Kitabxanaçının vəzifəsi oxucunu öyrənməkdən, kitabı dərindən bilməkdən ibarətdir. Ona görə də kitabxanaların əməkdaşları oxucunun yaşadığı mühiti, onun fərdi xüsusiyyətlərini, onlara yanaşma metodunu aydınlaşdırmağa çalışırlar. Oxucuların tərkibi haqqında əldə etdikləri məlumatları oxucuların ixtisas kartotekasında qeyd edirlər. (2).

MKS şəraitində oxuculara kitabla xidmət işinin dərinləşməsi və genişlənməsinə xüsusi fikir verilir. Sistemin hər bir oxucusu üçün bütün kitabxanalardan (mərkəzi, filial) geniş istifadə etmək imkanı yaranmışdır. MKS müxtəlif oxucu qruplarının zəruri materiallarla təmin olunmasına, çoxsaholi sorğularının öyrənilməsinə xüsusi qayğı ilə yanaşır, müxtəlif kütləvi tədbirlər vasitəsilə peşələrinə aid lazımi ədəbiyyatın onlara çatdırılmasına, ixtisaslarının yüksəldilməsinə kömək edir. Bu cəhətdən həmkarlar ittifaqları kitabxanalarında vaxtaşırı təşkil olunan mühazirələr, söhbətlər, görüşlər, biblioqrafik icmallar, konfranslar, disputlar və s. xüsusi əhəmiyyət kəsb edir. Kitabxanalarda müntəzəm olaraq mütəxəssislər üçün "məlumat günləri", "informasiya günləri", "mütəxəssis günləri" və s. mədəni-kütləvi tədbirlər təşkil olunur ki, burada da müxtəlif mövzulara aid ədəbiyyatla yanaşı yeni kitablar da tövsiyə edilir. "Mütəxəssis günləri"nin təşkili prosesi geniş həcmli olduğuna görə mədəniyyət saraylarında fəaliyyət göstərən "texnika evləri", zavodların nəzdində olan elmi-texniki kitabxanalarla birlikdə təşkil edilir.

"Mütəxəssis günləri"nin mövzuları və proqramları MKS-in mərkəzi kitabxanaları, müəssisənin rəhbərliyi, həmkarlar təşkilatı və kitabxana şurası üzvləri tərəfindən əvvəlcədən təsdiq edilir. Sərgidə nümayiş etdirilən ədəbiyyat AHİŞ-in metodkabinəsi, RespublikaBaza Kitabxanasının köməyi ilə müəyyən edilir.

Sistemin mərkəzi kitabxanaları 1981-1985-ci illərdə komplektləşdirdiyi kitabların bülletenlərini hazırlayıb makinada çap edib kitabxanalara, idarə və müəssisələrə göndərirdilər. Məsələn, Res-

publika Həmkarlar İttifaqının Baza Kitabxanasının vahid fonduna daxil olan "Yeni kitablar" başlığı altında tərtib etdiyi (1981-1985-ci illərdə – 10) bülleteni öz sistemində olan 11 kitabxana-filiala göndərməklə yanaşı, digər mərkəzi kitabxanalar da, İliç adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-in tərtib etdiyi "Yeni kitablar" bülleteni (1981-1985-ci illərdə – 8), Xətai adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-nin tərtib etdiyi "Yeni kitablar" bülleteni (1981-1985-ci illərdə – 10) öz sistemlərində olan kitabxana-filiallara, idarə və müəssisələrə göndərirlər (3).

Kitabxanalarda müntəzəm olaraq "Yeni kitab və jurnallar"ın icmalları, fərdi və qrup şəklində söhbətlər, biblioqrafik icmallar və s. kütləvi tədbirlər təşkil edilir (4). Müasir elmi-texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar olaraq oxucuların kitaba olan tələbatını ödəmək, xidmət işinin səviyyəsini yüksəltmək üçün respublika həmkarlar ittifaqlarının MKS-də təşkil edilən tədbirləri ildən-ilə təkmilləşdirilir, kitabxanalara cəlb edilən mütəxəssis oxucuların sayı və onlara kitab verilişi ildən-ilə artırdı. Məsələn, Respublika Baza Kitabxanasından mühəndis-texniki işçilərə 1981-ci ildə bülletenə əsasən 4300 nüsxə kitab, (5), 1985-ci ildə 5674 nüsxə kitab verilmişdir (6). Xətai adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-dən 1981-ci ildə mühəndis-texniki işçilərin bülletenə əsasən 4564 nüsxə (7), 1985-ci ildə 6486 nüsxə (8), İliç adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-dən 1981-ci ildə 4486 nüsxə (9), 1985-ci ildə 5396 nüsxə (10) kitab verilmişdir. Mühəndis-texniki işçilərə xidmət işi S.Bəhlulzadə adına Xəzər Dənizçiləri Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-də və digər kitabxanalarda da sürətlə inkişaf edirdi.

Cəmiyyətin strukturunda baş verən dəyişikliklər, oxucuların mədəni və professional səviyyələrinin yüksəlməsi, onların tərkibində ali, orta ixtisas və ümumi orta təhsilli insanların çoxalması kitabxana xidmətinin təşkilində zamanın tələblərinə cavab verə biləcək yeni forma və üsullardan istifadə etməyi, oxuculara xidmət prosesini yenidən qurmağı, bu prosesin bütün sahələrini sistem halında daha da mərkəzləşdirməyi tələb edir. Müasir şəraitdə oxuculara xidmət işinin təşkilinə sistem halında yanaşmadan, bu sistemin bütün vasitələrində bir-birilə əlaqədar, bir-birini tamamlayan kimi lazımi səviyyədə təşkil etmədən müasir oxucunun tələb və sorğularına cavab vermək mümkün deyildir. Oxuculara xidmət prosesinə sistemli yanaşma onun elmi əsaslar



üzərində qurulmasına səbəb olur. Şübhəsiz, işin bu şəkildə qurulması həmkarlar ittifaqları kitabxanalarından oxuculara kitab verilişinin artmasına səbəb olurdu. Məsələn, 1981-ci ildə respublika həmkarlar ittifaqlarının 286 kitabxanasından istifadə edən 315.122 nəfər oxucusuna 671612 nüsxə (11), 1985-ci ildə 290 kitabxanadan istifadə edən 316898 nəfər oxucuya 10432270 nüsxə kitab verilmişdir (12). Bu rəqəmlərdən görünür ki, 5 il ərzində həm kitabxanaların miqdarı, həm oxucuların sayı, həm də oxuculara kitab verilişi xeyli artmışdır. Bu illərdə oxucular 1776 nəfər, kitab verilişi isə 3716146 nüsxə artmışdır.

Həmkarlar ittifaqları kitabxanalarından istifadə edən oxucuların tərkibi də müxtəlifdir. Belə ki, həmkarlar ittifaqları MKS-dən: fəhlələr, mühəndis-texnik işçiləri, konstruktorlar, səhiyyə işçiləri, neftçilər və onların ailə üzvləri və s. oxucu qrupları istifadə edirlər. Bu oxucu qrupları arasında mühəndis-texniki işçilərin mütaliəsinin məzmunu və məqsəd istiqaməti onların əmək fəaliyyətinin konkret məzmunundan və xarakterindən asılıdır. Buna görə də kitabxanalarda mühəndis-texnik işçilərinə xidmət göstərərkən oxucuların bu qrupu yerinə yetirdiyi funksional-peşə vəzifələri əlamətlərinə görə diferensiallaşdırılır. Bir qayda olaraq MKS-də mühəndis-texniki işçilər aşağıdakı oxucu qruplarına ayrılır:

- İstehsalat kollektivlərinin rəhbərliyi ilə baş mütəxəssislər;
- İdarəetmənin orta və illik mərhələlərinin rəhbərləri (ustalar, sahə rəisləri, sex rəisləri və s.);
- Müəssisənin texniki, iqtisadi və digər xidmət mütəxəssisləri (konstruktorlar, texnoloqlar, iqtisadçılar və s.);
- Müəssisələrin texniki informatorları (13);
- Səmərələşdiricilər və ixtiraçılar;

Sənaye müəssisələri ətrafında fəaliyyət göstərən mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS) mühəndis-texnik işçilərinin göstərilən qaydada diferensiallaşdırılmasına ciddi surətdə riayət edirlər. Bu cəhətdən Xətai adına Mədəniyyət və Texnika Sa-rayının mərkəzi kitabxanalarının fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Sırf sənaye rayonlarında yerləşən bu kitabxanalar elmi-tədqiqat laboratoriyalarına, qaz kəmərlərinin korroziyadan mühafizə kontorlarına, layihə-konstruktor texnologiya institutlarına, Bakı neftayırma zavodlarına və s. sənaye müəssisələrinə xidmət edirlər. Bütün bunlar bir daha göstərir ki, kitabxanaların əsas oxucu qruplarını mühəndis-texniki işçiləri təşkil edir. Ona görə də bu

kitabxanalarda mühəndis-texniki işçilərin yuxarıda göstərilən qaydada diferensiallaşdırılmasına xüsusi fikir verilir.

Mühəndis-texniki işçilərdən ibarət olan bu oxucu qrupları həmkarlar ittifaqlarının yuxarıda adı göstərilən kitabxanaları tərəfindən ən zəruri materiallarla təmin olunmasına və çoxsahəli sorğuların ödənilməsinə xüsusi qayğı ilə yanaşır və müxtəlif kütləvi tədbirlər vasitəsilə onların istehsalat təcrübəsinin təkmilləşdirilməsinə kömək göstərirlər.

Kitabxanalarda oxucuların bu qruplarına diferensial yanaşma metodunun tədbiqi zamanı dəqiq oxucu sorğuları nəzərə alınır. Belə ki, oxuculara fərdi yanaşma zamanı kitabxanaçı bir sıra zəruri şərtlərə əməl edir. Hər şeydən əvvəl fərdi xidmət üçün oxucuları seçirlər, oxucuların seçilməsi kitabxanaya üzv yazarkən deyil, müəyyən müddət keçdikdən sonra fərdi söhbət və mütaliəyə nəzarət formasında aparır. Oxuculara fərdi xidməti konkret xarakterdə qururlar. Kitabxanalarda fərdi inflomasiya xidmətinin əsas formasını – fərdi söhbətlər, yeni ədəbiyyat haqqında tərtib edilmiş bülletenlər, məktub və ya telefon vasitəsilə verilən informasiyalar təşkil edir.

Respublika həmkarlar ittifaqı kitabxanalarında, ümumiyyətlə, oxuculara fərdi xidmətdən fərqli olaraq qrup, kollektiv xidmətinin kompleks formasından da istifadə edilir. Bu xidmət formasında söhbətlərdən, icmallardan, tematik gecələrdən, informasiya günlərindən və s. istifadə edilir.

Bütün bunlarla yanaşı, kitabxanalarda oxuculara kitab təbliği sahəsində ən geniş yayılmış formalardan – oxucu konfranslarından, ədəbi-bədii gecələrdən, görüşlərdən, disputlar-dan, şifahi jurnallardan, ədəbiyyat icmallarından və s. istifadə edilir.

Kitabxanalarda təşkil edilən bu mədəni-kütləvi tədbirlərin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, elmin bütün sahələrinə aid ədəbiyyatla yanaşı, bu tədbirlərdə texniki ədəbiyyatı da mütəxəssis oxucuların bütün kateqoriyalarına təbliğ etmək imkanı verir. Çünki həmin tədbirlər bilavasitə mütəxəssislərdə, istehsalat sahələrində, sexlərdə və s. yerlərdə təşkil olunur.

Bu cür tədbirlərin ən müsbət xüsusiyyətlərindən biri odur ki, konkret müəssisələrin, təşkilatın istehsalat məsələlərini əks etdirir və onun keçirilməsinə həmin müəssisənin mütəxəssis və rəhbər işçiləri cəlb olunurlar.

Kütləvi tədbirlərin əsas məqsədi oxucuların peşə və istehsalat biliklərinin artırılmasına kömək edən ədəbiyyatın təbliğini genişlən-



dirməkdən ibarətdir. Bu məqsədlə adı çəkilən MKS-də "Texnika bu gün", "Kibernetikanı xalqın xidmətinə", "Kimyanın məişətimizdə rolu" və s. mövzularda söhbətlər, "Səmərələşdirici və ixtiraçılara kömək", "Bakı neft sənayesinin keçmişi və bu günü" mövzusunda stend, "Hər kəsin əməyi cəmiyyət üçündür" və s. mövzularda gecələr, "Məhsulun keyfiyyəti və əmək məhsuldarlığı" adlı sərgi və s. təşkil olunurdu (15).

Respublika Həmkarlar İttifaqı MKS-nin oxucularla apardığı kütləvi işlərdə şifahi jurnallar xüsusilə böyük əhəmiyyət kəsb edir. Kütləvi tədbirlərin bir növ kompleks forması hesab olunan şifahi jurnallar mütəxəssis oxucuların daha böyük marağına səbəb olur. Çünki bir neçə səhifədən ibarət olan şifahi jurnalın hər bir "səhifəsi" müəyyən mövzu üzrə ədəbiyyat haqqında məlumat verir və çap olunmuş materialların tövsiyə siyahısı, biblioqraf tərəfindən verilən ədəbiyyat icmalı və aparıcının son sözü ilə yekunlaşır.

Bir sözlə, müasir elmi-texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar olaraq mühəndis-texnik işçilərinin artan tələblərini ödəmək məqsədilə oxuculara xidmət işinin səviyyəsini yüksəltmək üçün Respublika Həmkarlar İttifaqı MKS-si göstərilən bu tədbirlər sisteminin ildən-ilə həm sayını artırır və həm də təkmilləşdirir. Bunu aşağıda verilmiş konkret rəqəmlər bir daha əyani sübut edir. Belə ki, əgər 1981-ci ildə texniki ədəbiyyatın təbliği üzrə Respublika Baza Kitabxanası 20 söhbət, 21 icmal, 1 ucadan oxu, 3 görüş, 2 məlumat informasiya günü, 1 disput, 33 sərgi, 13 tematik rəf, 2 stend təşkil etmişdirsə (16), 1985-ci ildə 29 söhbət, 38 icmal, 3 tematik gecə, 4 informasiya günü, 10 kartoteka, 2 disput, 38 sərgi, 15 tematik rəf, 3 stend, 2 viktorina və s. təşkil olunmuşdur (17). 1985-ci ildə 1820 adda biblioqrafik arayış doldurulmuşdur ki, bunlardan 119-u istehsalat-texniki ədəbiyyat təşkil edir (18). Əlbəttə, bütün bunlar oxucular tərəfindən tələb edilən kitabların miqdarının artmasına müsbət təsir göstərir.

1980-ci ildə meydana gəlmiş, nisbətən yeni forma olan briqada abonenti (BA) kitabxanadankənar xidmət forması kimi diqqəti cəlb edir. bu forma həmkarlar ittifaqları kitabxanalarında öz təsdiqini tapmış və geniş yayılmışdır. Briqada abonementinin təşəbbüsçüsü Xətai adına Mədəniyyət və Texnika Sarayının İttifaqlararası MKS-nin Mərkəzi Kitabxanasıdır. Briqada abonementi ilk dəfə Qarayev adına Neftayırma Zavodunda elmi-texniki kitabxana ilə birlikdə təşkil olunmuşdur. İlk günlər kitabxanaçılar bir növ briqada üzvlərinin

əsasən bədii ədəbiyyata olan sorğularını təmin etməyə çalışırdılar. Elə ona görə də bədii ədəbiyyata dair kitab verilişi ümumi kitab verilişinin 70 faizini təşkil edirdi. Sonralar bu kütləvi forma elmin başqa sahələrinə dair ədəbiyyatın təbliğinə daha geniş tətbiq edilməyə başladı. Bu dövrdə briqadanın hər bir üzvü üçün təfərrüatlı kartoçka tərtib edilirdi. Oxucu haqqında belə dəqiq məlumatın olması aktual ədəbiyatın təbliğinə yaxından kömək edirdi. Təbliğat işinin səmərəli olması kitabxanaçının yaradıcılıq fəaliyyətindən çox asılıdır. Əlbəttə, öz təcrübəsini briqadanın hər bir fəal oxucusuna öyrətməklə, kitabxanaçı həm də yaxın köməkçi tapmış olurdu. Briqada heyəti istehsalat problemlərinə dair ədəbiyyatla, müxtəlif soraq-məlumat və texniki ədəbiyyatla təmin edildikcə, briqada abonementinin nəticələri daha səmərəli olurdu.

MKS-də ayrı-ayrı kitabxanalarda briqada abonementinin tətbiqi üçün böyük hazırlıq işləri görülürdü. Kitabxana işçiləri sex rəislər, briqadirlər, qabaqcıl usta və mütəxəssislər, həmkarlar ittifaqı fəalları ilə görüşür və bu görüşlərdə istehsalat-texniki kitabların təbliğində kitabxananın göstərəcəyi köməyin forma və metodları, konkret briqadada aparılacaq kütləvi və məlumat işlərinin təkmilləşdirilməsi yolları müəyyən edilirdi. Təbii ki, briqadada kitabxanaların, kitab fondlarının tərkibi haqqında da söhbətlər aparılırdı. Kitabxanaların fondlarında elmin müxtəlif sahələrinə dair yeganə nüsxələr belə briqada üzvlərinin istifadəsinə verilirdi.

Bu iş formasının məqsədi oxucuların ixtisasına aid, tapılmayan kitabları briqada abonementinin üzvlərinə çatdırmaq idi.

Briqada abonementi hansı kitabxanada təşkil edilmişdirsə, o kitabxanada həm kitablara sifarişlərin miqdarı, həm də kitabxanalarda oxucu əhatəsi, kitab dövriyyəsi artırdı. Məsələn, indiki S.Bəhlulzadə adına Mədəniyyət və Texnika Sarayının MKS-də 1983-cü ildə cəmi 32 sifariş olmuşdursa (19), 1985-ci ildə kitablara sifarişin sayı 70-ə çatmışdır (20). Yaxud yeni formanın tətbiqinə qədər briqada işçilərinin yalnız 20 faizi kitabxana xidmətindən istifadə edirdisə, briqada abonementinin tətbiqindən sonra 1985-ci il üçün oxucu əhatəsi 85 faizə və kitab dövriyyəsi artıb 6 faizə çatmışdır. 1981-ci ildə neftə dair ədəbiyyatın mütaliəsi 3,2 faiz olmuşdursa, 1985-ci ildə mütaliə faizi artıb 3,7 faizə çatmışdır (21). Kitabın dövriyyəsi isə 3 faizi təşkil edirdi.

1981-1985-ci illərdə 6 MKS-dən istifadə edən oxucuların sayı ildən-ilə artmış və tərkibi zənginləşmişdir. Məsələn, 6 MKS-dən



istifadə edən 506.863 nəfər oxucudan 145 min nəfəri fəhlə, 156248 nəfəri qulluqçu və mühəndis-texniki işçilər olmuşdur (22).

1981-1985-ci illərdə Respublika Həmkarlar İttifaqı kitabxanalarında həyata keçirilən tədbirlərin, fərdi və mədəni-kütləvi işlərin nəticəsində oxucuların sayı və onlara kitab verilişinin miqdarı artmışdır. Fikrimizi sübut etmək üçün aşağıdakı cədvələ nəzər yetirmək kifayət edər.

*Cədvəl Azərbaycan Həmkarlar İttifaqının 1981-1985-ci illərin statistik hesabatları əsasında tərtib edilmişdir.*

| MKS-nin mərkəzi kitabxanalarının adı | İllər | Oxucuların sayı | Kitab verilişinin miqdarı | O cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | İctimai siyasi ə-t | Texniki ə-t | Bədii ə-t | Uşaq ə-t | Digər ə-t |
| 1. İ.M.Qubkin adına Respublika Baza Kitabxanası | 1981 | 25200 | 526700 | 97000 | 57000 | 3239000 | 6000 | 12000 |
| | 1982 | 21404 | 338221 | 55914 | 16445 | 194351 | 18985 | 32764 |
| | 1983 | 23575 | 414126 | 76091 | 18901 | 258236 | 18288 | 42110 |
| | 1984 | 23364 | 406124 | 62930 | 19678 | 243658 | 20133 | 59816 |
| | 1985 | 19563 | 193319 | 20859 | 9213 | 130603 | 16934 | 15710 |
| 2. İliç ad. Mədəniyyət və Tex-ka Sarayının it-si Mərkəzi kitabxanası | 1981 | 33012 | 794203 | 144167 | 111448 | 341400 | 34266 | 162922 |
| | 1982 | 32186 | 878692 | 139690 | 110684 | 343479 | 31872 | 121751 |
| | 1983 | 33086 | 292515 | 145115 | 100519 | 317219 | 35615 | 153445 |
| | 1984 | 29211 | 636621 | 121291 | 68213 | 277255 | 22262 | 147600 |
| | 1985 | 29838 | 738696 | 134675 | 82604 | 344830 | 22566 | 154021 |
| 3. Xətai ad.MS-nin mərkəzi kitabxanası | 1981 | 20651 | 609143 | 113147 | 101201 | 262539 | 27119 | 105127 |
| | 1982 | 20105 | 589430 | 81711 | 40211 | 353365 | 56938 | 57205 |
| | 1983 | 19746 | 536566 | 75419 | 38666 | 307367 | 10069 | 55095 |
| | 1984 | 19744 | 509131 | 74786 | 33330 | 286083 | 59047 | 53385 |
| | 1985 | 17573 | 442599 | 70613 | 33264 | 231421 | 53304 | 53997 |
| 4. Xəzər dəniz MS-nin mərkəzi kitabxanası | 1981 | 9263 | 397657 | 33893 | 10028 | 122842 | 19614 | 14530 |
| | 1982 | 7966 | 185957 | 35274 | 5677 | 127422 | 4915 | 18638 |
| | 1983 | 7224 | 149820 | 30443 | 5029 | 92922 | 5340 | 10586 |
| | 1984 | 6917 | 149741 | 32451 | 4583 | 27364 | 8626 | 17243 |
| | 1985 | 6839 | 162600 | 32522 | 3946 | 100826 | 8018 | 17901 |
| 5. Dəmiryol işç-ri MS mərkəzi kitabxanası | 1981 | 17623 | 340823 | 19741 | 7376 | 228291 | 55702 | 29713 |
| | 1982 | 18234 | 330840 | 44310 | 11920 | 188792 | 70015 | 15750 |
| | 1983 | 19108 | 346601 | 44895 | 11983 | 203259 | 70182 | 15280 |
| | 1984 | 19110 | 346625 | 44900 | 11985 | 203269 | 70189 | 15278 |
| | 1985 | 27739 | 316514 | 41800 | 9765 | 185612 | 65192 | 14145 |
| 6. Səttar Bəhlulzadə adına MS mərkəzi kitabxanası | 1981 | 17201 | 411052 | 77198 | 33720 | 248648 | 13263 | 98223 |
| | 1982 | 16803 | 412972 | 77690 | 33998 | 250118 | 12448 | 38718 |
| | 1983 | 19268 | 233788 | 34125 | 13483 | 154027 | 18779 | 13374 |
| | 1984 | 16418 | 277940 | 66072 | 15423 | 163989 | 8898 | 23108 |
| | 1985 | 19058 | 320458 | 64606 | 24745 | 152750 | 22428 | 55929 |

Cədvəldən göründüyü kimi, 1981-1985-ci illərdə həmkarlar ittifaqı kitabxanaları həm miqdar etibarı ilə (286-dan artıb 290-a çatmışdır), həm də kitabxanaların fondları, oxucuları və onlara kitab verilişi artmışdır. Nəticə olaraq göstərmək lazım dır ki, 1981-1985-ci illərdə Respublika Həmkarlar İttifaqı kitabxanaları Azərbaycanın qarşısına siyasi, iqtisadi və mədəni sahədə qoyulmuş vəzifələrin yerinə yetirilməsi, əhalinin, xüsusilə fəhlələrin, gənclərin və digər oxucuların bəşəri biliklərə olan ehtiyacının təmin edilməsi sahəsində çox işlər görmüşdür.

*Ədəbiyyat*


1. *AHİŞ Katibliyinin 1981-ci il 27 iyul tarixli qərarı, əmr № 74, iş vərəqi 4.*
2. *İ.M.Qubkin adına Respublika Baza Kitabxanasının 1982-ci il hesabatı. – 17.*
3. *İliç adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-nin 1981-1985-ci il hesabatları.*
4. *İliç adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-nin 1981-1985-ci il hesabatları.*
5. *Respublika Baza Kitabxanasının 1981-ci il hesabatı. - s.7.*
6. *Xətai adına Mədəniyyət və Texnika Sarayının 1981-ci il hesabatı. -s.8.*
7. *Yenə orada, 1985-ci il hesabatı. - s.9.*
8. *İliç adına Mədəniyyət və Texnika Sarayının 1981-ci il hesabatı. –s.6.*
9. *Respublika Baza Kitabxanasının 1981-1985-ci il hesabatları.*
10. *Bəhlulzadə adına Mədəniyyət və Texnika Sarayının ittifaqlararası MKS-nin 1983-cü il hesabatı. –s.7.*
11. *Yenə orada, 1985-ci il hesabatı. – s.5.*
12. *Yenə orada.*
13. *Azərbaycan Həmkarlar İttifaqı metod şöbəsinin 1981-1985-ci il hesabatları..*



***Кулиев Т.Ф.***


***Профсоюзные библиотеки Азербайджана в 1981-1985 гг.***
***2-я статья***

**Резюме**


***В статье освещены вопросы формирования фондов различных республиканских профсоюзных библиотек, а также их активной деятельности в целях улучшения обслуживания читателей.***

**Əli RÜSTƏMOV**
*Pedoqoji elmlər namizədi, dosent*

**Zöhrab BAXŞƏLİYEV**
*Tarix elmləri namizədi, dosent*

# ELEKTRON KİTABXANALARIN FORMALAŞDIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Son illərdə informasiyalaşdırma problemlərinin daha fəal işlənməsi və qloballaşdırma strategiyasının inkişafı ilə əlaqədar olaraq, informatika ilə bağlı olan sahələrdə yeni keyfiyyət dəyişiklikləri baş verir. Yalnız informasiya məhsullarının növləri və formaları (daşıyıcıları) deyil, həm də kitab nəşri, mühafizəsi, yayılması və sənəd-informasiya xidməti ilə bağlı olan qurumların rolu və ənənəvi funksiyaları da təkmilləşdirilir. Bu obyektiv proses kitabxanalarda getdikcə daha çox elektron nəşrlərin toplanması, qlobal informasiya məkanında onların informasiya funksiyalarının daha da mürəkkəbləşməsilə müşayət edilir. Elektron nəşrlərin yaradılması, sürətlə artımı, yığcam disklərin tətbiqi və internetin telerabitə imkanlarının istifadəsi ilə əlaqədar olaraq elektron kitabxanalar yaradılır və onlar qlobal informasiya məkanında dinamik şəbəkələr kimi formalaşdırılır. Sənədlərin bir formadan digər formaya keçirilməsi texnologiyaları informasiyanın daha səmərəli mühafizəsinə və kağız daşıyıcılarında olan informasiyaların elektron formada yaxın və uzaq məsafədə axtarılmasına və verilməsinə imkan yaratmışdır. Yığcam disklərin və world wide web-də tam mətnli informasiya resurslarının yaradılmasında hipermətn texnologiyasının istifadəsi, həmçinin internetin zəngin elektron nəşrlər sisteminə və elektron kitabxanalarına uzaqdan müraciət sənədlərin nəşri, mühafizəsi və yayılmasında alternativ fəaliyyət sahəsi yaratmışdır. Bütün bunlar kitabxana işində əsl inqilabi çevrilişə səbəb olmuşdur. İnternet vasitəsilə əlaqələnən sürətli ötürmə imkanlarına malik olan yüz mindən çox

elektron kitabxanalar, beynəlxalq axtarış kataloqları və göstəriciləri, biblioqrafik məlumat bazaları bu inqilabi çevrilişə əyani sübutdur.

Elektron nəşrlər sənəd kommunikasiyasında yeni formalar yaratmışdır. Belə ki, mətndən, təsvirdən, rəsmdən, səsdən (melodiyalardan), onların tam kompleksindən və elementlərindən ibarət olan yeni sənəd formaları yaradılmışdır. Hipermətn texnologiyalarından istifadə hər bir informasiya elementinin digəri ilə birlikdə daha əlverişli kompanovka etməyə (tərtibatına), onun əsas mətnini qeyd, isnad, illüstrasiya və digər elementlərlə zənginləşdirməyə imkan verir. Məsələn, internetdə Şeksprin elektron kitabxanasında onun istənilən əsərinin tam mətnini oxumaq, istənilən pyesinin geniş fayl lüğətini istifadə etmək mümkündür. Geniş fayl lüğətində Şeksprin istənilən pyesinin məşhur teatr tamaşalarındakı videokliplərə baxa, "Qlobus" teatrı vasitəsilə virtual səyahətə çıxa, ən məşhur dünya aktyorlarının Şekspir əsərlərinin səhnələrindəki monoloqları əyani şəkildə görə, Otello, Hamlet, Dezdemona, Kral Lir və onlarla digər rolları yüksək sənətkarlıqla oynayan aktyorların real səhnə obrazlarına baxa bilərik.

Elektron nəşrlərin yaradılması ilə ənənəvi nəşriyyat prosesləri də dəyişir. Elektron kitabın hazırlanması, kompüter ssenarisinin qurulması, süjetin genişləndirilməsi, maketin internet və ya CD-ROM istehsalı zamanı master-diskin yaradılması və s. nəşriyyat işi sahəsində çalışan mütəxəssislər üçün yeni fəaliyyət istiqamətləridir.

Elektron nəşrlərin yaradılması ilə əlaqədar olaraq sənədlərin tirajlaşdırılması və yayılması da əhəmiyyətli dərəcədə dəyişməkdədir. Nəşrin internet vasitəsilə yayılması ənənəvi şəraitdə onun hazırlanması, çapı, tirajlaşdırılması, cildlənməsi və daşınmasına sərf edilən xərcləri aradan qaldırır, yüksək operativliklə əlaqədar istifadəçilərə və kitabxanalara çatdırılır. Bununla əlaqədar olaraq kitabxanalar həm internet istifadəçiləri, həm də əvvəllər olduğu kimi, informasiya xidməti qurumları kimi fəaliyyət göstərir.

Ənənəvi sənəd növləri ilə yanaşı, yeni informasiya texnologiyalarının tətbiqi əsasında bir sıra elektron nəşr formaları və növləri də yaradılmasıdır. Yalnız elektron formada mövcud olan xüsusi nəşr tipi Web-serverlərdə mühafizə edilən informasiyalar( Home Rage formasında isnadlarla təmin olunmuş resurs kataloqları və digər serverlər) deyil, həm də xeyli miqdarda soraq-informasiya və tematik məlumat bazaları elektron nəşrlərdir. Elektron informasiya mərkəzlərinin interaktiv nəşrləri olan resurslar ümumiyyətlə çap əsərləri kimi təsəvvür edilə bilməz. Çünki onlar teleqraf xəbərləri kimi yüksək operativliyə malikdir. Məsələn, internetdə yeniliklərin milli xidmət saytları öz məzmununu hər 15-20 dəqiqədən bir tam və ya qismən dəyişir. Sintetik elektron nəşrlərin yeni növləri də yaradılır. Məsələn, virtual kitab mağazasının interaktiv bələdçisi (qid) reklam bukletlərini, interaktiv sifarişi və avtomatlaşdırılmış bank sənədlərini özündə birləşdirir.



İnternetin eksperimental bədii nəşrləri, yəni hirermətn romanları çox maraqlı elektron nəşrlərdir. Belə romanlar ayrı-ayrı yazıçıların əsərlərindən ibarətdir. Hər hansı romanı internet vasitəsilə oxuyan geniş oxucu kütləsi ona yeni mətnlər əlavə edə, istənilən fraqmentə düzəlişlər apara, ona istənilən qədər şərhlər əlavə edə, roman haqqında öz fikirlərini bildirə, romanda bəhs edilən hadisələrə dair şəkil, rəsm çəkib əsas mətnə daxil edə və s. prosesi sərbəst icra edə bilər. Beləliklə, hər bir roman həmin müəlliflə yanaşı, kollektiv bədii yaradıcılıq məhsuluna çevrilir. Bədii ədəbiyyat kitabxanaları minlərlə adda bədii əsərlərə edilmiş əlavələri, qeydləri milyonlarla dünya oxucularının milli bölgülər əsasında müxtəlif fikirlərinin internetdə toplanmış, təhlil edilmiş və ümumiləşdirilmiş oxucu testlərinə dair məlumatları əldə edə və öz fondlarının profilli komplektləşdirilməsində istifadə edə bilərlər. İnternet nəşrlərinin qiyməti ekvivalent çap nəşrlərindən təqribən 15-20 dəfə ucuzdur. Hər hansı elektron nəşri öz fonduna komplektləşdirən kitabxana onu minlərlə digər əlaqədar kitabxanalara da pulsuz ötürə bilər. Ənənəvi çap əsərlərinin komplektləşdirilməsində isə belə bir imkan olmamışdır.

Əlbəttə, ənənəvi çap əsərləri tarixən mövcud olmuşdur və gələcəkdə də mövcud olacaqdır. Lakin öz məna qiyməti, əhəmiyyəti operativ istifadə edilməklə müəyyənləşdirilən, ölçülən elmi və texniki kitabları elektron formada (şəbəkə publikasiyaları formasında) yaymaq çox vacibdir. Bu problem elektron nəşrlərin yaradılmasına qədərki dövrdə həll edilməmişdi.

Bəzi "sintetik" nəşrlər hazırda hipermətn texnologiyalarının tətbiqi əsasında paralel olaraq iki versiyada (kağız formasında-ənənəvi istifadəçilər üçün, elektron formada - internet istifadəçiləri və əlaqədar hesablama texnikası olanlar üçün) hazırlana bilər. Reklam bukletləri, ensiklopedik nəşrlər, dərsliklər və s. belə nəşrlərə misal ola bilər.

Hazırda təlim və oyun kompüter proqramları yığcam disklərdə buraxılır və elektron informasiya məhsulları bazarının tərkib hissəsini təşkil edir. Onlar ənənəvi dərsliklərlə və çap-oyun vasitələrilə müvəffəqiyyətlə rəqabət aparırlar. Elə respublikamızda yüzlərlə kompüter oyun zalları və yığcam disklər satan xeyli mağazalar fəaliyyət göstərir. Bu məhsulların hansı formalarda daha çox buraxılmasını gələcəkdə oxucu auditoriyasının maragı və nəşriyyatların marketinq tədqiqatları müəyyən edəcəkdir. Yeni informasiya texnologiyalarının perspektiv əhəmiyyətini başa düşən bir sıra qabaqcıl nəşriyyatlar oxucuları da bu istiqamətdə indidən hazırlayırlar. İnternetdə Book in print nəşriyyat məhsullarının retrospektiv kataloqu buna misal ola bilər. Bu kataloqda dünyanın minlərlə nəşriyyatının retrospektiv nəşrlərinin biblioqrafik və referativ formasiyaları və onların tam mətnli elektron sənədlərini mühafizə edən serverlərin ünvanları verilir. Əlaqədar adda və mövzuda lazımi elektron kitabları asanlıqla kompüterimizin yaddaşına keçirə, çap edib adi kağız sənədə çevirə və şəbəkə mühitində istənilən kitabxanaya pulsuz ötürə bilərik. Lakin qeyd etməliyik ki, dünyada nəşr edilən bütün cari kitabların elektron versiyasını qısa vaxtda hazırlamaq çətindir. Buna görə də bir sıra nəşriyyatlar kommersiya marağını əsas götürərək xüsusilə qiymətli kitabların çap nəşrinə CD-ROM-da elektron versiyasını da əlavə edirlər. Kitabxanalar belə kitabları bir nüsxədə alır, elektron versiyasını öz lokal şəbəkəsinə daxil edir, yaxud ərazi kompüter şəbəkəsi və ya internet vasitəsilə istənilən kitabxanalarada yayırlar. Bununla bir tərəfdən kitabxanaların elektron nəşr fondları formalaşdırılır, digər tərəfdən onların maliyyə vəsaitlərinə qənaət edilir. Lakin kitabxana fondlarının internetin informasiya resursları əsasında dolğun, operativ və ucuz komplektləşdirilməsi ilbəil sürətlənir və genişlənir. Deyilən CD-ROM variantı getdikcə arxa plana keçir.

Elektron nəşrlərin yaradılmasından sonra informatikada dərc edilən və edilməyən sənədlər bölgüsü aradan qalxmışdır. Hazırda İnternetdə elektron sənədlər (Web- sənədlər) formasında mühafizə edilən dissertasiyaların, kurs və diplom işlərinin, hətta tələbə konspektlərinin və şparkalkaların minlərlə elektron kitabxanaları mövcuddur. Hər bir istifadəçi, o cümlədən kitabxana deyilən sənədləri pulsuz istifadə edə bilər.

Elektron nəşrlərin müxtəlif formalarının yaradılması ilə əlaqədar olaraq "elektron kitabxana" anlayışı da meydana gəlmişdir.



Lakin belə kitabxanalar sənəd növlərinə, tematik əlamətlərə və ayrı-ayrı dövlət, elm və incəsənət xadimlərinin adlarına görə təsnif edilir. Tematik istiqamətlər bütün insan fəaliyyəti sahələrini əhatə edir. Onlar sənəd tərkibi, kompozisiyası, həm də axtarış metodları və vasitələri baxımından ənənəvi kitabxanalardan əsaslı şəkildə fərqlənirlər. Məsələn, ənənəvi kitabxanalarda sənədlərin mətnləri və onların kataloqları fiziki cəhətdən ayrılmışdır.Bəzi kitabxanalarda isə elektron kataloq yaradılmışdır. Bunlar da elektron kitabxanalar deyil, ənənəvi kitabxanalardır. Çünki sənədlərin ancaq axtarışı elektron üsullarla icra edilir, ilkin sənədlər fonddan tapılır və kağız formasında oxucuya verilir. Şəbəkə mühitində onları birbaşa almaq mümkün deyildir. Elektron kitabxanalar isə İnternetin elektron informasiya resursları və qismən CD-ROM versiyasını almaqla müəyyən profil (mövzu) əsasında formalaşdırılır. Burada həm sənədin əsli, həm də onun axtarış əlamətləri vahid halda fayl formasında təşkil edilir. İstənilən anda onu kompüter ekranında oxumaq, çap edib almaq, digər kitabxanalara ötürmək mümkündür. Elektron kitabxanalar əlaqədar milli, ərazi və qlobal kompüter şəbəkələrinin tərkib hissəsidir, nisbi-müstəqil kitabxanalardır. Bu tip kitabxanalara "virtual kitabxanalar" da deyirlər. Onların ənənəvi oxucu kateqoriyalarına görə bölgüsü də yoxdur.

Fondun elektron mühafizəsi sənədlərə müraciətin operativliyini və rahatlığını təmin etməklə yanaşı, əksər kitabxanalar üçün ağrılı problem olan bina sahəsinin qənaətlə istifadəsinə, sənədlərin səhifələrinin salamat qalmasına, maqnit və lazer disklərində uzun müddət mühafizə edilə bilən ehtiyat nüsxələrinin yaradılmasına və s. imkan verir. Hər hansı müəllifin öz kitabını məzmunca yeniləşdirmək, kitabı barədə əlaqədar oxucuların rəylərinin toplusunu öyrənmək üçün də elektron kitabxanalar geniş imkanlara malikdir.

Ənənəvi kitabxanalar bazasında elektron kitabxanaların formalaşdırılması çoxtərəfli və mürəkkəb problemdir. Məsələn, əgər biblioqrafik təsvirlərin əlaqədar tammətnli sənədlərlə birləşdirilməsindən söhbət gedirsə, ənənəvi kitabxanalar üçün ən vacib vəzifə elektron sənədlər fondunun yaradılmasıdır. Elektron formaya keçirilən sənədlər ilk növbədə surətçıxarma üçün müəllif hüququ olmayan əsərlərdir (məs: klassik yazıçıların, şairlərin əsərləri, nadir kitablar və s.). Kitabxana fondunda ilk növbədə elektron formaya keçirilən sənədlər içərisində təsviri incəsənət əsərlərini (plakatlar, reproduksiyalar, sərgi və yarmarka kataloqlar və s.) göstərmək olar.

Multimedia vasitələrindən müxtəlif təlim proqramları, oyun diskləri, mühazirələrin və konfransların səs, rəsm və təsvirlə müşayiət olunan mətnləri də ənənəvi kitabxanalarda ilk növbədə elektron formaya keçirilməlidir.

Nəzərə almalıyıq ki, bir sıra iri kitabxanalar nəinki nəşriyyatların buraxdıqları kitabları və digər sənədləri mühafizə edir, həm də müstəqil surətdə yeni nəşrlər buraxır. Yeni informasiya texnologiyalarının tətbiqi nəticəsində kitabxanaların nəşriyyat imkanları xeyli artır. Xüsusilə informasiya məcmuələrinin, soraq-biblioqrafik vasitələrin, kitabxanadaxili işçi sənədlərin və digər materialların adi mətbəə çapına çəkilən xərclər xeyli azalır, əlaqədar nəşrlər İnternetə qoşulmuş milyonlarla insanların və on minlərlə kitabxanaların istifadəsinə verilir, yəni Web-serverlərdə yerləşdirilir.

Sonrakı texnoloji mərhələ nəinki dünya kitabxana elektron informasiya resurslarını, həm də elektron sənədləri nəşr və mühafizə edən digər qurumların (məs: nəşriyyatlar, interaktiv informasiya xidməti obyektləri, kommersiya və qeyri-kommersiya məlumat bazaları və bankları) beynəlxalq səviyyədə əlaqələndirilməsi və istifadəçinin istənilən fəaliyyət sahəsində dünyanın bütün elektron informasiya resurslarında axtarış apara bilməsidir. Kitabxanalar üçün belə bir imkanın yaradılması çox perspektiv əhəmiyyətə malikdir. Belə ki, hər hansı fondun tematik əhatəsini dünya kitabxana fondları və digər informasiya ehtiyatları səviyyəsində genişləndirmək, bir başa inteqrasiya etmək hər bir kitabxananın çoxdankı arzusudur. Yaxın zamanlarda öz avtonom, ayrıca fondu hesabına xidmət göstərən hər bir kitabxana fondunun və kataloqlarının elektron kitabxanaya çevrilməsi fonunda dünya informasiya ehtiyatlarının tərkib hissəsini təşkil edəcəkdir. Bu prosesi biz indi də İnternetin timsalında aydın görə bilərik. 1999-cu il məlumatına görə internetdə dünyanın 120 minə qədər iri kitabxananın kataloqları, elektron nəşr fondları vardır və onların miqdarı sürətlə artır. Azərbaycan Respublikasında da belə elektron kitabxanaların yaradılmasına başlanmışdır. Məsələn, Azərbaycan klassik ədəbiyyatı kitabxanası (internet ünvanı: http://azeribooks.aznet.org) Azərbaycan poeziyasının internet nəşrləri (internet ünvanı: http: //www.baku.ru/pubs/azprotru/2001 1212_001_Ru.asp) və s. Maraqlıdır ki, elektron kitabxanalar yalnız ənənəvi kitabxanalar tərəfindən deyil, nəşriyyatlar, kitab mağazaları, dövri nəşrlərin yayılması ilə məşğul olan qurumlar və informasiya mərkəzləri tərəfindən də yaradılır. Bununla da tam



mətnli sənədlərlə istifadəçilərə xidmət baxımından kitabxanaların yeni rəqibləri meydana çıxır. Belə bir şəraitdə kitabxanaların rəqabətə davamlılığını təmin etmək üçün bizcə ilk növbədə dünya və milli informasiya məkanında öz məzmun dəyərini uzun müddət sabit saxlayan retrospektiv xarakterli elmi, texniki və bədii əsərlərin müxtəlif profillər üzrə elektron kitabxanalarını yaratmaq daha məqsədəuyğundur. Əlbəttə, belə kitabxanaları yaratmaq sadə problem deyil. Lakin problemin təcrübi həllinin zaman etibarilə gecikdirilməsi ənənəvi kitabxanalar üçün perspektiv baxımından xoşagəlməz nəticələrə gətirib çıxara bilər. Çünki telerabitə texnologiyaları gün-bəgün adi telefon rabitəsi kimi kütləvi şəkil alır və yuxarıda deyilən informasiya qurumları sürətlə bu texnologiyalarla silahlanırlar. Belə bir şəraitdə rəqabətə davam gətirmək üçün kitabxanalar yeni informasiya texnologiyalarını mənimsəməli və bu sahədə ixtisaslı kadrlar hazırlanmalıdır.

Elektron nəşrlərin və elektron kitabxanaların getdikcə sürətlənən artımı ilə əlaqədar olaraq kitabxanaların informasiya xidmətinin ənənəvi funksiyaları da əhəmiyyətli dərəcədə şəbəkə xidməti ilə əvəz olunmaqdadır. Şəbəkə interaktiv informasiya xidmətinin sürətlə genişlənməsi sabit prosesə çevrilmişdir. Belə ki, 1997-ci ildə internetin informasiya xidmətindən istifadə edən istifadəçilərin miqdarı 95 mln. nəfər, 2000-ci ildə isə 248 mln. nəfər olmuşdur.

Kitabxanalar internetə müraciət kanallarına malik olduqda öz komplektləşdirmə mənbələrini də dünyəvi səviyyədə genişləndirir və dəfələrlə operativ və ucuz olan komplektləşdirmə prosesinə keçirlər. Qlobal şəbəkə həqiqətən istənilən tip informasiya ehtiyatlarına malikdir. İnformasiya ehtiyatlarının belə zənginliyi digər bir problem yaradır. Bu problem informasiya axtarışının ən yeni metodlarından istifadə problemidir ki, onun da iri kitabxanalarda həlli xüsusilə soraq-informasiya və biblioqrfiya bölmələrinin üzərinə düşür. Buna görə də həmin bölmələr kağız daşıyıcılarında olan informasiyaların axtarış metodlarını və üsullarını elektron nəşrlərin axtarış metodlarına uyğunlaşdırmağa cəhd etməlidirlər.

Yeni informasiya mühitində soraq-informasiya axtarışının ən vacib üsullarından biri oxucuları maraqlandıran, müxtəlif informasiya resurslarının yerləşdiyi İnternet serverlərinə müraciəti təmin edən tematik kataloqların yaradılmasıdır. Bu məqsədlə İnternetin xüsusi resurs göstəricisi (URL) yaradılmışdır. Buradan kitabxana-informasiya resurslarına dair faylları asanlıqla seçmək olar. Resurs

göstəricisində müxtəlif ölkələr və tematik istiqamətlər üzrə elektron informasiya resurslarının mühafizə edildiyi serverlərin ünvanları və onlara necə müraciət etmək qaydaları verilmişdir. Qeyd etməliyik ki, bu resurslardan istifadə pulsuzdur.

Soraq-informasiya axtarışının mühüm üsullarından biri də müəyyən kitabxanada müxtəlif bilik sahələrinə dair elektron informasiyaları toplayan və öz Web- serverində mühafizə edən interaktiv informasiya bölməsinin yaradılmasıdır. Hazırda belə informasiyaları toplayan kommersiya xarakterli sənəd-informasiya mərkəzlərinin miqdarı sürətlə artır. Belə mərkəzlər zəngin resurslara malik olan və İnternetlə sürətli kanallarla əlaqələndirilmiş elektron kitabxanaların yeni bir təşkilati formasıdır. Onlar qeyri-kommersiya xarakterli dövlət informasiya mərkəzlərinin toplaya bilmədiyi informasiyaları İnternetdən və yerli mənbələrdən əldə edir, getdikcə özlərinə daha çox istifadəçi cəlb edərək, digər informasiya qurumları ilə lazımi rəqabət aparırlar. Ənənəvi kitabxanalar öz fondlarında olan ən qiymətli və nisbətən fəal istifadə olunan retrospektiv nəşrləri elektron formaya keçirərək və internetin əlaqədar informasiya resurslarını milli və yerli profil əsasında düzgün seçərək deyilən tip elektron kitabxanalar yarada bilər. Bunun üçün çox da böyük xərc tələb edilmir. Yalnız yeni informasiya mühitində işləyə bilən kitabxanaçı kadrlar tələb olunur.

Yeni informasiya mühitində istifadə edilməsi vacib olan üsullardan biri də ənənəvi KAA sisteminin təkmilləşdirilməsidir. Məlumdur ki, hələ tarixən xeyli əvvəllər kitabxanalar KAA yolu ilə informasiya mübadiləsindən istifadə etmişlər. Elektron kitabxanaların yaranması və inkişafı ilə əlaqədar olaraq ənənəvi KAA üsulu yalnız kağız sənədlər üçün saxlanılacaqdır. Digər sənəd formaları üçün audiokaset fondlarından istifadə ediləcək və İnternet vasitəsilə istənilən kitabxanaya və ya fiziki şəxsə daimi istifadə üçün göndəriləcəkdir. Qismən bu məqsədlə bir sıra dünya kitabxanalarında məsafədən təlim mərkəzi yaradılmışdır. Məsələn Şimali Amerika və Avropada məsafədən təlim mərkəzləri əsasən universitet kitabxanalarında yaradılmışdır. Belə mərkəzlər müəllimlərə və tələbələrə digər universitetlərdən kitab, mühazirə və tədris kurslarının elektron (osifirovka) formalarını pulsuz almağa imkan verir. Təlim mərkəzləri kütləvi kitabxanalarda isə mediateka və ya linqvistik mərkəzlər formasında təşkil edilir. Onlar vasitəsilə audiofondlara,



dilöyrədici proqramlara, kitabxana menecmentinə, ixtisasartırma məsələlərinə və s. dair materiallara müraciət etmək mümkündür.

Yeni informasiya texnologiyalarını tətbiq edən hər hansı kitabxana öz ənənəvi fondu əsasında elektron informasiya resursları yarada bilər. Bununla həmin kitabxana aşağıdakı problemləri həll etmiş olur: imtiyazlı şəkildə dünya informasiya məkanına daxil olur; öz informasiya resurslarına bütün Yer kürəsindəki istifadəçilərin sərbəst müraciətini təmin edir; dünyanın bütün informasiya qurumları və iri kitabxanaları ilə operativ informasiya mübadiləsi edir; informasiya resurslarının formalaşdırılmasında məkan baxımından təkrarçılığı və paralelizmi aradan qaldırır; kitabxana binasının qənaətlə istifadə edilməsini təmin edir və s. Zəngin informasiya resurslarına ( məs: tammətnli elektron sənədlər fondu; faktoqrafik və tematik məlumat bazaları, vacib fayl yazıları, biblioqrafik yazıların elektron kataloqları, məxsusi elektron nəşrlər sistemi və s.) malik olmaqla soraq-informasiya və axtarış metodları ilə silahlanmaqla və informasiya mübadiləsi üçün etibarlı rabitə sistemi yaratmaqla kitabxanalar qlobal informasiya məkanında elektron informasiya resurslarının yaradıcısı və mühafizəedicisi kimi formalaşa bilər.

Deyilən yeni vəzifələrin həll edilməsi üçün kitabxanalar ilk növbədə bir-biri ilə həm elmi, həm təcrübi, həm də ixtisaslı kadr mübadiləsi sahəsində əməkdaşlığı təşkil etməlidirlər. Bu baxımdan respublikanın iri kitabxanalarının bazası əsasında paylaşdırılmış milli sənəd fondları təşkil edilməlidir və onlar arasında telerabitə sistemi qurulmalıdır. Bu ideya onu ifadə edir ki, iri kitabxanalar və informasiya mərkəzləri tematik istiqamətlər və bəzi sənəd növləri (məs: patent, standart, brayl sənədləri, videokasetlər, yəni kino, foto və təsviri incəsənət və s. sənədlər, dissertasiyalar, elmi-texniki hesabatlar) üzrə elektron informasiya ehtiyatlarının yaradıcısı, mühafizəedicisi və yayıcısı olmalıdır. Hazırda paylaşdırıcı milli sənəd fondları arasında ərazi baxımından telerabitə sistemini qurmaq texniki cəhətdən xeyli asandır. Çünki bir sıra sahələr (statistika idarələrinin, torpaq komitəsinin qurumları, seçki sistemi, gömrük və s.) üzrə respublikadaxili (milli) telerabitə şəbəkələri mövcuddur və onların İnternetə çıxışı təmin edilmişdir. Əlaqədar rayon və şəhərlərdə müəyyən paylaşdırıcı sənəd fondunu həmin şəbəkələrdən birinə asanlıqla qoşmaq olar. Bununla da paylaşdırıcı milli sənəd fondlarının bir-birləri, nəşriyyatlar, telerabitə xidməti provayderləri və əlbəttə, İnternetlə əlaqələri təmin edilmiş olar. Belə şəraitdə

elektron kitabxanalar bir sıra sənəd növləri üzrə pulsuz xidmət göstərməlidir. Yaradılması (əsifirovkası) üzərində əmək sərf edilən, İnternetin kommersiya xarakterli qovşaqlarından və şəbəkə mağazalarından alınan sənədlər yuxarıda deyilən kommersiya qurumlarına nisbətən ucuz qiymətə oxuculara verilə bilər. Belə pullu xidmət üsulu həm bilavasitə, həm də şəbəkə vasitəsilə xidmət üçün tətbiq edilməlidir.

Bir məsələni də qeyd etməliyik ki, telekommunikasiya texnologiyasının əhatə dairəsinin getdikcə genişlənməsi ilə əlaqədar olaraq informasiya fəaliyyəti qloballaşır və inteqrasiya xəttilə inkişaf edir. Belə bir şəraitdə ənənəvi kitabxanaların açıq, dinamik informasiya sistemlərinə çevirmək üçün elektron nəşrlərin emalı texnologiyalarını mənimsəmək, elektron kitabxanalar yaratmaq, onları milli çərçivədə korporativ şəbəkə kimi formalaşdıraraq qlobal informasiya sisteminin tərkib hissəsinə çevirmək lazımdır. Bu istiqamətdə ilk növbədə elmi konsepsiya işlənməlidir və onun mərhələlərlə reallaşdırılması üçün elmi-texniki, iqtisadi və təşkilati tədbirlər görülməli və ixtisaslı kadr hazırlığı sahəsində köklü dəyişikliklər edilməlidir. Problemin qoyuluşunun təcrübi əhəmiyyəti məhz budur.

*Ədəbiyyat*


*1.Алешин Л.И. Автоматизация в библиотеках: Учебное пособие.- Ч.1.-М.,2001.- 176 с.*

*2.Алешин Л.И. Автоматизация в библиотеках: Учебное пособие.- ч.2.-М,2001.- 144 с.*

*3.Бактурин Т.А. Проблемы стандартизации библиографического описания электронных ресурсов\\ Науч. и техн. б-ки. - 2000.- № 7. – С.16-21.*

*4.Байдыш Дж. Электронные ресурсы научно-технической информации в Библиотеки Конгресса США. Часть 1.// Науч. и техн. б-ки. - 2000.-№11.- С.58-76.*

*5.Байдыш Дж. Электронные ресурсы научно-технической информации в Библиотеки Конгресса США. Часть 2.// Науч. и техн.б-ки. - 2000.- №12.- С.56-78.*

*6.Евстигнеева Г.А.,Земсков А.И. Электронная информация-электронная библиотека (Международный семинар в г. Пушкина) // Науч. и техн. б-ки. - 2000.- № 6.- С.46-52.*





*7.Эшрофт Л. Ленгдон Р. Изучение использование электронных журналов. (Доклад на 65-й Генеральной конф. ИФЛА)// Науч. и техн. б-к. - 2000.-№ 5.- С.88-94.*

*8.Электронные журналы в библиотеках (Обзор статей) // Науч. и техн. б-ки -. 1997.- № 10.- С.61-67.*

*9.Майстрович Т.В. Оптические компактдиски в зарубежных научных библиотеках// Науч. и техн. б-ки. - 2000.-№ 8.- С.60-68.*

*10.Межведомственная программа "Электронные библиотеки России"//\ Науч. и техн.б-ки.- 1999. - С.3-15.*

*11.Меняев М.Ф., Земсков А.И., Денисов Б.В. Оптические диски в библиотечной технологи// Науч. и техн. б-ки. - 1997.-№ 3.- С.3-15.*

*12.Шрайберг Я.Л. Основные положения и принципы разработки автоматизорованных библиотечно-информационных систем и сетей.- М., 2000.- 130 с.*



***Рустамов А.М., Бахшалиев З.И.***


## *Некоторые вопросы формирования электронных библиотек*

**Резюме**


*В современном этапе развития библиотек актуальное значение приобретает формирование фондов электронных изданий. Электронные информационные носители все больше выпускаются различными издательствами, информационными службами, предприятиями и организациями. Кроме них, в интернете имеются многочисленные электронные библиотеки и интерактивные базы данных. Используя вышеуказанные ресурсы, библиотеки могут формировать свои фонды текущих электронных изданий. Одним из важных направлений формирования электронных библиотек является также отбор наиболее важных ретроспективных бумажных изданий, перевода их в электронную форму, а затем их распространение с помощью глобальной сети.*

*В статье обсуждается пути оптимизации электронных библиотек на базе современной коммуникационной и информационной технологии. Особое внимание уделяется вопросам организации сетевых библиотечно-информационных баз данных и их интеграции в глобальной сети.*

***Mayıl HƏSƏNOV***
*Tarix elmləri namizədi, dosent*

# *KİTABXANA FONDUNA RƏHBƏRLİYİN TƏŞKİLİ PROBLEMLƏRİ*

Kitabxana fondunun idarə edilməsində 2 əsas cəhət nəzərə alınır: İdarəetmənin obyekti (kitabxana fondu), idarəetmə subyekti (kitabxanaçı). Burada subyekt, yəni kitabxanaçı şəxsiyyəti fondun formalaşmasında həlledici rol oynayır. Belə ki, o, bütün kitabxana fondunun məzmunca zənginləşməsində və səmərəli idarə edilməsində mühüm yer tutur. Milli Məclis tərəfindən qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda (29 dekabr 1998-ci il) kitabxanaçının fəaliyyəti yüksək qiymətləndirilmişdir. Qanunda deyilir: "Kitabxanaçılar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərindən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə edilməsi üçün hər cür şərait yaratmalıdır (1)". Qanunda irəli sürülən müddəalar kitabxanaçılar qarşısında çox ciddi vəzifələr qoyur, fondun idarəetmə perspektivlərini, prinsiplərini müəyyənləşdirir. Bu prinsiplər fondun dolğunluğunu yaratmaq, istifadəetmə optimallığını təkmilləşdirmək problemlərinin həlli ilə üzvi surətdə bağlıdır. Burada fondun idarə edilməsində kitabxanaçı-komplektləşdiricinin rolu xüsusilə nəzərə çarpır. Fondşünas konkret faktlar əsasında (kitabxana fondunun dövriyyəsi, sənədlərin oxunuşu, kitab təminatı) fonda rəhbərliyin əsas inkişaf perspektivlərini müəyyənləşdirir. Bu göstəricilərin müqayisəli təhlil prosesində kitabxanaçı fonda rəhbərliyi tənzimləşdirir, istifadəsini səmərələşdirir, sənədlərin komplektləşdirmə keyfiyyətini yüksəldir. Məhz buna görə hər bir kitabxanaçı-komplektləşdirici bu göstəricilər haqqında tam təsəvvürə malik olmalıdır. Əks təqdirdə fondun idarə olunmasını lazımi səviyyədə təmin edə bilməz. Kitabxanaçı birinci növbədə fondun istifadəetmə potensialını dəqiqləşdirməlidir. Bu işdə kitabxana fondunun dövriyyəsini müəyyənləşdirmək xüsusi əhəmiyyət kəsb edir. Fondun dövriyyəsini bilmədən



komplektləşdirmənin səmərəliliyini dəqiqləşdirmək mümkün deyildir (2). Burada fondun dövriyyə göstəriciləri (fondun həcmi və illik kitab verilişi) müqayisəli təhlil edilməli, onların qarşılıqlı əlaqələri izah olunmalı və ümumiləşdirilməlidir. Məhz bu göstəricilərin nisbətindən illik kitab verilişinin fondun həcminə bölünməsi prosesində dövriyyənin səmərəliliyi müəyyənləşdirilir. Burada həm bütünlükdə fondun, həm də onun tərkib hissələrinin kitab verilişinə olan müqayisəli təhlili nəzərə alınır və konkret göstəricilər silsiləsi yaradılır. Müqayisəli təhlillər prosesində şöbələrdə fondun daha az istifadə edilən ədəbiyyatın səviyyəsi müəyyənləşdirilir, zəif istifadə edilən fondun ayrı-ayrı hissələri konkretləşdirilir.

Nəşr olunan sənədlərin kitabxana fonduna çevrilməsinə (təkcə sənədlər toplusuna fond demək olmaz) bilavasitə kitabxanaçı-fondşünasların istehsalat fəaliyyəti ilə bağlıdır. Bu da kitabxana fondu ilə kitabxananın işçi heyəti arasında qarşılıqlı əlaqəsinə əsaslanır. Kitabxana fondunun idarə edilməsi fondun tərkibcə, həcmcə, quruluşca müntəzəm və məqsədyönlü nizamlaşdırılmasına, dəyişməsinə (öz spesifik keyfiyyətini saxlamaqla), onun kitabxana vəzifələrinə, oxucuların informasiya tələbatına uyğun şəkildə yerinə yetirilməsinə əsaslanır. Bu xüsusiyyətləri nəzərə alan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının komplektləşdirmə şöbəsi ildə 10 min (3) nüsxədən artıq sənəd əldə edir, fondun məzmun zənginliyini təmin edir, oxucuların ən mühüm sorğularının ödənilməsini səmərələşdirir.

Fondşünasdan sənədlərin nəşr xüsusiyyətlərini, onun komplektləşdirilməsi mahiyyətini, təşkili prinsiplərini, istifadəetmə sahələrini dərk etməklə yanaşı rəhbərlik etdiyi kitabxana fondunun quruluşunu, tərkib hissələrini, məqsəd və vəzifələrini bilməlidir. Burada sənədləri qiymətləndirmə bacarığı obyektivlik, diqqət, lazımi informasiyanı düzgün seçmə qabiliyyəti tələb olunur. Burada Bakı şəhər Nəsimi rayon kütləvi kitabxanaların iş təcrübəsi xüsusilə diqqəti cəlb edir. Həmin kitabxanalar ildə 12 min (4) nüsxə kitab əldə etmiş, fondun istifadəetmə səmərəliliyini xeyli artırmış, oxucu sorğularının təmin olunmasına mühüm təsir göstərmişdir. Bu fondun 29 faizini (3977 nüsxə) (5) profilə dair ədəbiyyat təşkil etmişdir. Bu da fondun istifadəsini xeyli səmərələşdirmişdir.

Fondun idarə edilməsində fondşünasın - komplektləşdiricinin zəngin təcrübəsi, geniş peşə hazırlığı, sənədləri seçmə məharəti, fondu hərtərəfli öyrənmə bacarığı xüsusi rol oynayır. Digər tərəfdən

fondşünas-komplektləşdirici nəinki bütünlükdə sənədləri, habelə ayrı-ayrı əsərlərin müəlliflərini, sərlövhələrini, kitabın xarici görünüşünü, şifrəsini, rəflərdə tutduğu yeri yadda saxlamaq imkanına malik olmalıdır. Fondşünas həmçinin səliqəli, diqqətli, səbrli olmalıdır ki, fondun təkmilləşməsində ən xırda cəhətləri, əməliyyatları nəzərdən qaçırmasın və bütün iş proseslərini səhvsiz, nöqsansız yerinə yetirə bilsin. Bununla əlaqədar olaraq Bakı şəhər Yasamal rayonu kütləvi kitabxanalarının iş təcrübəsi xeyli maraq doğurur. Kitabxanaların xüsusən maliyyə imakanlarının az olması ilə bağlı olaraq hər bir sənədin düzgün, dəqiq seçmə prosesinə böyük əhəmiyyət verilmişdir. Əgər Yasamal rayon kütləvi kitabxanaları əvvəllər nüsxə miqdarının çoxluğuna diqqət yetirirdisə, son illərdə əsərlərin ad etibarilə artımına nəzər yetirir. Belə ki, kitabxanalar 1990-1996-cı illərdə ad etibarilə hər bir sənəddən 19 nüsxə əsər əldə edirdisə, 1996-2000-ci illərdə ad etibarı ilə 7 nüsxə kitab almışdır (6). Bu da fondun ad etibarilə mövzu zənginliyinə müsbət təsir göstərmişdir. Bu proses fondun istifadə səmərəliliyini 2 dəfəyə qədər artırmışdır. Əgər həmin kitabxanalarda 1990-1995-ci illərdə sənədlərin miqdar çoxluğu 9896 nüsxədə, ad etibarilə 602 adda olmuşdursa (9896:602=16 nüsxə), 1996-2000-ci illərdə sənəd çoxluğu 4725 nüsxəyə ad etibarilə 526 rəqəminə bərabər olmuşdur. (4725:527=9 nüsxə) (7) Bu da fondun tematika zənginliyinə təsir göstərmişdir.

Komplektləşdirmə prosesində kitabxanaçının ixtisaslaşması da mühüm əhəmiyyət kəsb edir. Fondşünasın müntəzəm olaraq bəşəriyyətin irsini özündə əks etdirən sənədlərlə qarşılıqlı əlaqədə olması, biliklərinin təkmilləşdirilməsi mühüm ixtisaslaşma amillərindən biri hesab olunur. Bu amillər əsasında komplektləşdirmə şöbəsində fəaliyyət göstərən işçi əməyinin elmi təşkilinin əhəmiyyətini xarakterizə etmək olar. Belə ki, burada komplektləşdirici-fondşünasın peşəkarlıq məharəti nəzərdə tutulur. Bu proses elmi kitabxanalara daha çox aiddir. Belə ki, milyon nüsxələrlə fonda malik olan elmi kitabxana fondlarının komplektləşdirilməsində və idarə edilməsində böyük zəhmət və işgüzarlıq tələb olunur. Bu da elmi kitabxanalarda fəaliyyət göstərən komplektləşdirmə şöbəsində işçi qüvvəsinin çoxluğuna, çoxsahəli iş proseslərinin yerinə yetirilməsinə əsaslanır. Bura sənədlərin uçota alınması, sistemləşdirilməsi, texniki işlənməsi, sənədlərin kitabxana şöbələri arasında paylanması və tənzimləndirilməsi daxildir. M.F.Axundov adına



Azərbaycan Dövlət Kitabxanasında ildə 30 minə (8) yaxın ədəbiyyat işlənilir və fondun struktur bölmələrinə verilir.

Komplektləşdirmə sahəsində kitabxanaçının ixtisaslaşması da mühüm əhəmiyyət kəsb edir. Bəşəriyyətin irsini özündə əks etdirən sənədlərlə müntəzəm qarşılıqlı əlaqədə olması, təhlil edilməsi və qiymətləndirilməsi fondşünasdan böyük məharət, yüksək ustalıq və bacarıq tələb edir. Bu cəhəti fondşünas tərəfindən komplektləşdirmə şöbəsində aparılan işçi əməyinin elmi təşkilində və onun tənzimləşdirilməsində də müşahidə etmək olar. Bütün hallarda fondşünas yüksək peşəkarlıq məharətinə, təşkilatçılıq qabiliyyətinə malik olmalıdır.

Kitabxanalarda komplektləşdiricinin fəaliyyət səmərəliliyi sənədlərin işlənməsi tezliyi və şifrələnməsi keyfiyyəti, onların fondun struktur bölmələrinə məqsədyönlü çatdırılması ilə müəyyənləşir.

Komplektləşdirmə şöbəsinin işçiləri kollektiv işləmək prinsipinə alışmalı, bütün qarışıq iş proseslərinin ahəngdar yerinə yetirilməsinə nail olmalıdır.

Komplektləşdiricinin yüksək işçi keyfiyyətləri gələcəkdə istifadə olunacaq sənədlərin optimallığını müəyyənləşdirmək, biblioqrafik axtarış metodlarına yiyələnmək, nəzərdə tutulan sifarişləri dərindən öyrənmək məsələləri ilə müəyyənləşir. Komplektləşdirici fondları struktur quruluşuna, oxucuların tələbinə görə öyrənməli, onların həqiqi informasiya tələbatını təhlil etməli və bunun əsasında kitabxana üçün vacib olan ədəbiyyatın alınmasını təmin etməlidir. Bakı Şəhər Mərkəzi Kitabxanası ildə min (9) nəfərə yaxın oxucu sorğusunu öyrənir və onlara 6 min (8) nüsxədən çox ədəbiyyat tövsiyə edir.

Komplektləşdiricinin ən mühüm vəzifələrindən birini oxucuların etibarını qazanmaq təşkil edir. Bu etibarlığı o vaxt əldə etmək olar ki, komplektləşdirici təchizetmə mənbələri və onun əməkdaşları ilə müntəzəm sıx əlaqə saxlasın və ən lazımlı sənədlərin alınmasını təmin etsin.

Fondşünasın vəzifə dairəsi kitabxananın tipindən, növündən, işin xarakterindən, ixtisas səviyyəsindən asılıdır. İxtisaslaşma dedikdə komplektləşdiricinin ümumi və ixtisas təhsili və ya digər sahələrdə əldə etdiyi təcrübi nailiyyətlərin kompleks şəkildə əlaqələndirilməsi nəzərdə tutulur. Belə ki, elmi kitabxanalarla kütləvi kitabxana fondlarının idarə edilməsini eyniləşdirmək olmaz. Kütləvi

kitabxana fondlarının komplektləşdirilməsində 1-2 nəfər komplektləşdirici-fondşünasın iştirakı nəzərdə tutulursa, elmi kitabxana fondlarının komplektləşdirilməsində 8-10 nəfər fondşünas-komplektləşdirici fəaliyyət göstərir. Bu da bilavasitə fondun zənginliyi, struktur genişliyi, çoxınozmunlu elm sahələrinin əhatəliyi, əldə edilən sənədlərin yüksək elmi xarakter daşıması, zəngin oxucu marağının mövcud olması ilə bağlıdır. Buna görə də elmi kitabxanalarda fondun idarə edilməsi daha mürəkkəb xarakter daşıyır.

Bu prosesi sənədlərin növ etibarilə əhatəliyində daha konkret müşahidə etmək olar. Əgər kütləvi kitabxana fondlarının əsas tərkib hissəsini kitablar, jurnallar təşkil edirsə, elmi kitabxana fondlarının tərkib hissələrinə kitablar, jurnallar, dissertasiyalar, avtoreferatlar, normativ-texniki sənədlər, kinofotofono sənədlər, əlyazmalar və s. daxildir. Bu xarakterik xüsusiyyətlər fondun komplektləşdirilməsi və idarə olunmasını xeyli çətinləşdirir, fondşünasların fəaliyyət dairəsini mürəkkəbləşdirir. Belə ki, M.Əzizbəyov adına Bakı şəhər kütləvi kitabxanası il ərzində 5000-ə yaxın (10) sənədlərin işlənməsini həyata keçirirsə, Azərbaycan Respublikası Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası ildə 10 minə yaxın (11) çoxsahəli sənədlərin komplektləşdirilməsini və idarə edilməsini həyata keçirir. Məhz buna görə də elmi kitabxanalarda fəaliyyət göstərən fondşünaslardan yüksək peşəkarlıq tələb olunur (12). O, həmçinin komplektləşdirmə şöbəsində işçi kadrların ixtisasına görə düzgün yerləşdirilməsini təmin etməli, vəzifə bölgülərini müəyyənləşdirməli və bütünlükdə şöbəyə rəhbərliyi tənzimləşdirməli, sənədlərin növ etibarilə işlənməsini yerinə yetirməlidir.

Komplektləşdirmə şöbəsinə rəhbərlik edən fondşünasın və baş metodistin vəzifəsi təkcə işçilərin yerinə yetirdikləri yaradıcı, məqsədyönlü əməliyyatlara nəzarət etmək deyildir, eyni zamanda işdə baş verən nöqsanların aradan qaldırılmasıdır (13). Təcrübə göstərir ki, komplektləşdirmə şöbəsində buraxılan hər hansı bir nöqsan, xüsusən sənədlərin indeksləşdirilməsində, sistemləşdirilməsində baş verən nöqsanlar kitabxanada digər əməliyyatların (sənədlərin rəflərdə düzülüşünə, lazımı əsərlərin tezliklə əldə edilməsinə və s.) yerinə yetirilməsinə mənfi təsir göstərir. Məhz buna görə də komplektləşdirmə şöbəsində texnoloji iş prosesləri elə təşkil olunmalıdır ki, sənədlərin kitabxana qaydası ilə işlənməsində ciddi nöqsanlara yol verilməsin, hər bir kitabın fondda tutacağı yer



konkret müəyyənləşdirilsin. Burada əməyin təşkili, səmərəliliyi xüsusi əhəmiyyət kəsb edir.

Əməyin səmərəli təşkilində komplektləşdirmə və kitabişləmə şöbəsinin müdiri xüsusi rol oynayır. Onun fəaliyyəti bilavasitə idarəetmə obyekti ilə (kitabxana fondu, maddi və maliyyə ehtiyatları, komplektləşdirmə və kitabişləmə texnologiyasının və proseslərinin həyata keçirilməsi) qarşılıqlı əlaqədə təkmilləşir və fondun idarəetmə prosesini səmərəliləşdirir. Fondşünas bütünlükdə fondun formalaşması vəzifəsini yerinə yetirir.

Komplektləşdirmə prosesi uzun illərlə davam edərək, milyonlarla sənədin fondda toplanmasına mühüm təsir göstərmişdir (14). Bu baxımdan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında əks olunan zəngin sənədlər fondunu xatırlamaq böyük maraq doğurur. Hazırda kitabxana fondunda 4462109 nüsxə kitab (15) vardır. Fondun yaranması özbaşına axın şəklində formalaşmamışdır. Bu, fondşünasların komplektləşdiricilərin uzun zəhməti prosesində yaranmış kitab sərvətidir.

Uzun illərin təcrübəsi bilavasitə komplektləşdiricilərə imkan verir ki, fondun formalaşmasını təhlil etsin və gələcəkdə əldə ediləcəyi hər bir sənəd haqqında geniş məlumata malik olsun, lazımi ədəbiyyatın əldə edilməsini təmin etsin. Belə ki, sənədlər axını haqqında hərtərəfli təsəvvürə malik olmadan, kitabxananın profilini dərk etmədən fondun formalaşmasına və rəhbərliyin təşkil olunmasına nail olmaq mümkün deyildir. Bununla belə kitabxanaçı fondun yaradılmasının, formalaşmasının, inkişafının aparıcı qüvvəsi kimi komplektləşdirmə istiqamətini elə təşkil etməlidir ki, oxucu sorğularının hərtərəfli ödənilməsi səmərəliliyi təmin edilmiş olsun. Fondun idarə edilməsində kitabxanaçı ən mühüm cəhətləri nəzərə almalı, respublikamızda baş verən ictimai-siyasi, elmi-texniki, mədəni yenilikləri dərk etməli, oxucuların ən etibarlı informasiya daşıyıcıları ilə təmin etməlidir.

### *Ədəbiyyat*


*1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// Azərbaycan. – 1998. – 29 dekabr.*

*2. Ковач В. Формирование библиотечных фондов: Процесс принятия решений// Библиотековедение. – 1999. – с. 158.*

*3. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1996-2000-ci il hesabatları.*

*4. Bakı şəhər Nəsimi rayon kütləvi kitabxanalarının 1986-1990-cı il hesabatları.*

*5. Bakı şəhər Nəsimi rayon kütləvi kitabxanalarının 1986-1990-cı il hesabatları.*

*6. Bakı şəhər Yasamal rayon kütləvi kitabxanalarının 1990-2000-ci il hesabatları.*

*7. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1990-1995-ci il hesabatları.*

*8. Bakı Mərkəzi Şəhər Kitabxanasının 1995-1999-cu il hesabatları.*

*9. M.Əzizbəyov adına Bakı şəhər kütləvi kitabxanasının 1995-1999-cu il hesabatları.*

*10. Azərbaycan Respublika EA Mərkəzi Elmi Kitabxanasının 1990-1995-ci il hesabatları.*

*11. Xələfov A.A. və başq. Kitabxana işçisinin məlumat kitabı. - B.: Azərnəşr, 1986. s. 87.*

*12. Столяров Ю.Н. Библиотечный фонд: Учебник. – М.: Книжная палата, 1991. – С. 242.*

*13. Шилова В.В. и др. Проблемы формирования фондов на современном этапе //Библиотековедение. – 1996. – №3. – с. 66.*

*14. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2001-ci il hesabatı. – S. 17.*

***Гасанов М.***

## *Проблемы организации руководства библиотечного фонда*

### Резюме

*В статье проанализированы особенности формы и методы организации по руководству библиотечного фонда.*

*В работе освещена основная роль и задачи фондовика, комплектатора в регулировании и усовершенствовании библиотечного фонда, в изучении носителей информационных потоков и в организации выбора и приобретения необходимой литературы в формировании библиотечных фондов.*

***Knyaz ASLAN***
*Baş müəllim*

# *OXUCULARIN BƏDİİ-ESTETİK TƏRBİYƏSİ PROSESİNDƏ KİTABXANALARIN ROLU*

Tarixin bütün dövrlərində gənc nəslin mənəvi tərbiyəsinə, bədii-estetik zövqlərinin formalaşmasına, mədəni-əxlaqi vərdişlərə yiyələnməsinə ciddi fikir verilmişdir. Hazırda Azərbaycan Respublikasının müstəqillik yolu ilə inamla irəliləməsi, milli dövlətçiliyimizin dirçəlib çiçəklənməsi, mənəvi-estetik dəyərlərin yeni məna və məzmun daşıması bu problemin aktuallığını bir daha təsdiqləyir. Çünki uşaq və gənclərin yetkin mənəvi simasını formalaşdırmadan, onları fəal həyat mövqeyinə çıxarmadan, cəmiyyətin ləyaqətli qurucusu kimi yetişdirmədən, kamil şəxsiyyətlərə çevirmədən suveren dövlətin inkişafına və beynəlxalq aləmdə nüfuz qazanmasına nail olmaq mümkün deyildir. Bununla yanaşı, düzgün həyat yolu seçmək, qüvvə və bacarığını, istedad və qabiliyyətini ən nəcib əməllər uğrunda mübarizəyə həsr edə bilmək xeyli dərəcədə insanın öz əxlaqi borcunu necə başa düşməsindən, mənəvi-estetik tərbiyəsinin səviyyəsindən asılıdır. Bu borcu başa düşməkdə isə kitabxanaçılarımıza bədii və incəsənət ədəbiyyatının təbliği sahəsində gördüyü işlər, gəncləri təsirli sənət əsərləri vasitəsilə tərbiyələndirmək üçün keçirdiyi tədbirlər kömək edə bilər. Belə ki, ictimai şüur formalarından biri olan incəsənət cəmiyyətdə baş verən hadisələri, insanların həyata münasibətin bədii surətlər vasitəsilə əks etdirməklə oxuculara yalnız gözəlliyi başa düşüb qiymətləndirmək, gözəllik qanunları ilə yaratmaq qabiliyyəti deyil, həm də mahiyyəti təzahürdən, mütərəqqini mürtəcedən fərqləndirmək bacarığı aşılayır.

"Yüksək bədii mədəniyyətə, estetik duyuma yiyələnmiş adam ictimai və şəxsi həyatın bütün sahələrində gözəlliyə can atır. Gözəlliyə həssaslıq, estetik tələbat insan həyatını zənginləşdirir, onda yaşamaq həvəsini, həyat eşqini qüvvətləndirir. Əlbəttə, söhbət yalnız incəsənətin bilavasitə tərbiyəvi təsirindən deyil, estetik qavrama

qabiliyyəti yaradılmasından, bu sözün geniş mənasında dünyaya estetik münasibətin formalaşdırılmasından gedir" (5, s. 114).

Bədii-estetik tərbiyə hərtərəfli və ahəngdar inkişaf etmiş şəxsiyyət yetişdirilməsində mühüm rol oynayır. Hazırkı şəraitdə bədii-estetik tərbiyə insanda əmək, təbiət, ictimai həyat, məişət və incəsənət gözəlliklərini dərindən başa düşüb düzgün qiymətləndirmək qabiliyyəti tərbiyə etməyi, onun gerçəkliyə estetik münasibətini formalaşdırmağı, "gözəllik qanunu" ilə yaşamaq və yaratmaq tələbatını inkişaf etdirməyi nəzərdə tutur.

Şəxsiyyətin mənəvi inkişafında bədii-estetik tərbiyənin xüsusi yeri vardır. Bədii-estetik tərbiyə ikili xüsusiyyət daşıyır: o, insanların həm şüuruna, həm də hissinə və qəlbinə eyni zamanda təsir etmək qüdrətinə malikdir. Bu, o deməkdir ki, bədii-estetik tərbiyə insanın təfəkkürünü, dərketmə qabiliyyətini inkişaf etdirməklə yanaşı, onu emosional cəhətdən də zənginləşdirir, gözəlliyin ən müxtəlif təzahürlərinə qarşı həssas edir, onun zövqünü cilalayır.

Şəxsiyyətin estetik mədəniyyəti bəzən birtərəfli şəkildə başa düşülür. Bu zaman adətən yüksək estetik zövqə malik olan, təbiət gözəlliyini qiymətləndirməyi, insan tərəfindən yaradılmış hər şeyin gözəlliyini hiss etməyi, duymağı, özünü cəmiyyətdə yaxşı aparmağı bacaran, zövqlə geyinən adamları əsl estetik mədəniyyətli şəxslər adlandırırlar. Şübhəsiz, bunların hamısı şəxsiyyətin estetik inkişafı üçün zəruri cəhətlərdir. Lakin insanın əsl estetik mədəniyyəti bununla qurtarmır.

İnsanın estetik mədəniyyəti qabacıl dünyagörüşü ilə, məişətdə təmizlik və inkişaf etmiş kollektivçilik hissi ilə, cəmiyyətin digər üzvlərinə münasibətdə humanizm və yoldaşlıq nümunəsi nümayiş etdirməklə bağlıdır. Əsl estetik mədəniyyət nəinki həyatda və incəsənətdə gözəlliyi qavramaq və qiymətləndirmək qabiliyyətidir, habelə (ən başlıca cəhət budur!) bu gözəlliyi fəal surətdə, yaradıcı şəkildə həyata keçirmək, insan fəaliyyətinin bütün sahələrində həyata yaradıcı münasibət bəsləmək deməkdir (5, s. 104).

Şəxsiyyətin estetik mədəniyyəti, hər şeydən öncə, sosial baxımdan gözəl məqsədlərə uyğun olaraq dünyanın hissi şəkildə mənimsənilməsi mədəniyyətidir. Hisslərlə dərk olunan aləm insanın estetik mədəniyyətinin əsasıdır.

Deməli, estetiklik son dərəcə rəngarəng hadisə olub, həm insanı əhatə edən aləmə, həm də insanın özünə xasdır. İstər cəmiyyətin, istərsə də təbiətin ən təsirli hadisələrindən həyəcanlanan insan öz hiss üzvləri vasitəsilə əldə etdiyi informasiyanı müəyyən tərzdə yaşayır. Bu yaşantı əsasında onda bədii-estetik hisslər yaranır.



Həmin hisslərin dərk olunması nəticəsində insanda bədii-estetik ideallar əmələ gəlir. Buna görə də ən ümumi şəkildə estetik mədəniyyət dünyanın gözəllik qanunları ilə dəyişdirilməsi prosesində maddiləşən hisslərin, zövqlərin və ideallarn vəhdətidir.

Məlumdur ki, cəmiyyətimizdə yeni insan tərbiyəsi ilə əlaqədar olaraq həyata keçirilən mühüm vəzifələrdən biri də gənc neslin bədii-estetik tərbiyəsidir.

Bədii-estetik tərbiyə mahiyyət etibarilə ümumi tərbiyə işinin başqa növlərindən təcrid edilmiş bir sahə deyildir, əksinə, ümumi tərbiyə işi ilə sıx surətdə əlaqədar olub, insan tərbiyəsini tamamlayan bir sahədir. Ailədə, bağçada, məktəbdə və kitabxanada aparılan estetik tərbiyə ümumi tərbiyə işinin bünövrəsidir (10, s. 28).

Şəxsiyyətin bədii-estetik tərbiyəsi cəmiyyətin həll etdiyi digər vəzifələrlə sıx qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Bu vəzifənin uğurlu həllində ədəbiyyat və incəsənətin böyük ideya-tərbiyəvi imkanlarından bacarıqla istifadə edilməsi indi həmişə olduğundan daha vacibdir. Estetik tərbiyə sisteminin bütün vasitələri bu sahədə öz sanballı sözünü deməyə borcludur, xüsusilə uşaq və gənclər kitabxanaları öz fəaliyyətlərində bu cəhətlərə mütləq diqqət yetirməlidirlər.

Əlbəttə, şəxsiyyətin bədii-estetik tərbiyəsində bədii və incəsənət ədəbiyyatının rolu misilsizdir. İctimai şüurun digər formaları ilə ümumi cəhətlərə malik olsalar da, həm bədii ədəbiyyat, həm də incəsənət özlərinin bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənirlər. Gerçəkliyi konkret-hissi formalarda əks etdirən bu zərif sənətlərin diqqət mərkəzində iqtisadi-siyasi, sosial-əxlaqi və digər münasibətlər sistemində təsvir edilib göstərilən insan dayanır. Həqiqi sənət əsəri insanın daxili aləminə işıq salır, onun ən gözəl mənəvi keyfiyyətlərini, mütərəqqi arzu və əməllərini, saf fikir və duyğularını aşkara çıxarır.

Bədii-estetik tərbiyədə bədii ədəbiyyat nümunələri və incəsənət əsərləri həmişə mühüm yer tutmuşdur. Onlar doğulduğumuz ilk günlərdən bizim həyatımıza daxil olur, ana laylası ilə varlığımıza hopur, sevincli və kədərli anlarımızın müşayiətçisinə çevrilir. Belə sənət inciləri çox vaxt azadlıq uğrunda çırpışan adamlar üçün himnə çevrilir, onları mübarizəyə səsləyir, ayağa qaldırır. Keçmişdə də belə olub, indi də belədir, gələcəkdə də belə olacaqdır.

İncəsənətin müxtəlif növləri və janrları – bədii ədəbiyyat, musiqi, rəssamlıq, heykəltəraşlıq, memarlıq, teatr, kino və s. həmişə insanın daxili aləmini zənginləşdirmiş, dünyagörüşünü genişlən-

dirmiş, əqli və əxlaqi cəhətdən onu saflaşdırmış, kamil şəxsiyyət kimi formalaşmasına təsir göstərmişdir.

Məlumdur ki, insan ilk uşaqlıq çağlarından ta ömrünün sonuna qədər çox müxtəlif amillərin estetik təsirinə məruz qalır. Oyuncaqlar və oyunlar, ailə, uşaq bağçası, məktəb və digər uşaq təlim-tərbiyə ocaqları, məişət, təbiət, kənd və ya şəhər mühiti, ali və orta ixtisas məktəbləri, müxtəlif mədəni-maarif müəssisələri şəbəkəsi, o cümlədən kitabxanalar, kütləvi informasiya vasitələri, daha sonra əmək fəaliyyəti, idman və nəhayət, incəsənətin ayrı-ayrı növlərinin vəhdətindən ibarət olan bədii yaradıcılıq aləmi – bütün bunlar insanın gerçəkliyə estetik münasibətinin, zövq və mədəniyyətinin formalaşmasında iştirak edir, bir-birini tamamlayır və zənginləşdirir. Bu cəhət təbiət və ictimai həyatın həmin hadisələrini, onların bilavasitə məzmun, funksiya və həyati qayələrində olan hər cür fərqlərinə baxmayaraq, estetik tərbiyə vasitələri sistemi deyilən anlayışa daxil etməyə əsas verir. Bu sistemə daxil olan ünsürlərdən hər biri estetik tərbiyənin ümumi qayəsinin reallaşmasına xidmət edən spesifik funksiya yerinə yetirir. Həmin ünsürlər bir-birlərindən daşıdıqları estetik xassələrin məzmun və xarakterinə görə, şəxsiyyətin estetik şüur və mədəniyyətinin müxtəlif səviyyə və komponentlərinə daha üstün və səmərəli təsir göstərmələri, öz estetik imkan, məqsəd, təsir hədəfi və gücü cəhətdən fərqlənirlər (7, s. 23).

Bəs incəsənətin insan həyatındakı bu qədər mühüm rolunu müəyyənləşdirən nədir? Uşaq, məktəb, gənclər və kütləvi kitabxanalarda bədii ədəbiyyat və incəsənət əsərlərinin təbliği konkret olaraq hansı məqsəd daşıyır, hansı vəzifələri yerinə yetirir?

Əvvəlcə onu qeyd edək ki, incəsənətin spesifikliyi, yəni özünəməxsusluğu öz ifadəsini hər şeydən öncə bizi əhatə edən həyatın hissi şəkildə mənimsənilməsində tapır. Sosial mənada incəsənət bizim üçün böyük zaman qatlarını aşkarlamaq qabiliyyətinə malikdir. O öz emosional-obrazlı strukturunun köməyi ilə bizi sanki hadisələrin canlı iştirakçısına çevirir. İncəsənət dünyanı bütün rəngarəngliyi ilə birlikdə bizim qarşımızda – gözümüzün önündə canlandırır. Mənəvi idrak vasitəsi olmaqla yanaşı, incəsənət həm də böyük tərbiyə imkanlarına malikdir, öz sosial-estetik xüsusiyyətlərinə görə şəxsiyyətə dünyagörüşü təsiri göstərən qüdrətli amildir.

İncəsənətlə ünsiyyət insanı estetik cəhətdən zənginləşdirir, yaradıcı fəaliyyət üçün son dərəcə zəruri olan estetik zövq və hissləri inkişaf etdirir. Bu isə öz növbəsində, insanın intellektual fəaliyyətinin təkmilləşməsinə təsir göstərir. Təxəyyülün inkişafında



da incəsənətin rolu böyükdür, çünki o, həyatı bədii obrazlarla ifadə edərək, fantaziyaların, zəkanın işini fəallaşdırır.

Əsl incəsənət xalqın zövqünü ifadə etməklə yanaşı, həm də onu inkişaf etdirib daha da təkmilləşdirmək vəzifəsini qarşıya qoyur. Sənət əsərləri insan qəlbində yatıb qalan gizli hissləri oyatmaqla onu öz-özünə daha dərindən diqqət yetirməyə vadar edir. Biz incəsənətin ecazkar təsiri altında ötən günlərin sevincli və kədərli anlarında, ilk təəssüratın doğurduğu xoş həyəcanları sanki yenidən yaşayır, özümüzü daha yaxşı tanımağa, yenidən kəşf etməyə başlayırıq. İncəsənətin ən başlıca tərbiyəvi vəzifəsi müəyyən mənada məhz bundan ibarətdir.

İncəsənət ikili funksiya yerinə yetirir. O, bir tərəfdən, ətraf aləmi öz qanunlarının köməyi ilə əks etdirməklə mənəvi mədəniyyət hadisəsi kimi çıxış edir. Digər tərəfdən, maddi və mənəvi fəaliyyətdə gərək olan təxəyyülü, fantaziyanı, yaradıcılığı onun köməyi olmadan inkişaf etdirmək mümkün deyildir (5, s. 180).

Məlumdur ki, kütləvi kitabxanaların bu sahədəki vəzifələri ədəbiyyat və incəsənətin milli xarakterinin açılması, klassik irsin təbliği, humanist və mütərəqqi sənət ənənələrinin aşkara çıxarılması ilə müəyyən olunur. Kitabxanalar öz oxucularını ədəbi-bədii tənqidin, ədəbiyyatşünaslığın, incəsənət biliklərinin, estetikanın ən yaxşı nümunələri ilə tanış etməklə, incəsənətin ayrı-ayrı növlərini kompleks şəkildə təbliğ etməklə, onların qarşılıqlı təsirini, əlaqəsini və ümumiləşməsini açmaqla insanların estetik səviyyəsinin yüksəldilməsinə imkan yaradırlar.

Elmi-nəzəri ədəbiyyatda qeyd edilir ki, kitabxanaların fəaliyyətində oxucuların estetik tərbiyəsi üzrə əsasən iki cəhət ayrılmaz şəkildə bir-biri ilə əlaqələndirilir: 1) estetik təhsil; 2) estetik zövqün tərbiyəsi.

Estetik təhsil estetika sahəsində konkret biliklərin qazanılması vasitəsilə oxuculara kömək göstərilməsidir. Burada söhbət, hər şeydən əvvəl, bədii mədəniyyət tarixi haqqında, o cümlədən bədii ədəbiyyat, təsviri incəsənət, teatr, musiqi, kino haqqında, habelə, incəsənətin inkişafının əsas qanunauyğunluqları, istiqamətləri, məktəbləri, üslubları və s. haqqında gedir. Lakin diqqəti yalnız oxucuların estetik biliklə zənginləşdirilməsinə yönəltmək olmaz. Burada ikinci bir cəhətə – estetik zövqün tərbiyəsinə, oxucuların estetik hisslərinin formalaşmasına da fikir vermək lazımdır (9, s. 61-62). Çünki estetik tərbiyə ikinci istiqamətlə – oxucularda estetik zövq tərbiyəsi ilə tamamlanır. Estetik zövq nədir? Estetik zövq ətraf aləmdə, incəsənətdə və bədii əsərlərdə gözəlliyi görmək, duymaq,

qiymətləndirmək bacarığı, yaxşını pisdən, gözəlliyi çirkinlikdən fərqləndirmək qabiliyyətidir (10, s. 28).

Məhz buna görə də hazırda respublikamızdakı uşaq, gənclər və kütləvi kitabxanaların qarşısında duran çox mühüm və vacib məsələlərdən biri də gənclərin estetik tərbiyəsi, yəni estetik təhsillə estetik zövq tərbiyəsinin kompleks şəkildə həyata keçirilməsidir. Çünki cəmiyyət üzvlərinin, ilk növbədə gənc nəslin dünya incəsənəti və mədəniyyəti xəzinəsinin zəngin bədii-mənəvi sərvətlərini öyrənib dərk etməsinə nail olmaq vəzifəsini müvəffəqiyyətlə yerinə yetirmədən ahəngdar və hərtərəfli inkişaf etmiş yetkin insanın tərbiyəsi mümkün deyildir.

Kitabxanaçılar həmişə nəzərdə tutmalıdırlar ki, ədəbiyyat və incəsənət əsərləri ilə müntəzəm təmasda olmamaq, onları öyrənib qavramamaq, bir tərəfdən, insanın həmin əsərlərdən mənəvi zövq, həzz və sevinc ala bilməməsinə, digər tərəfdən isə ahəngdar inkişaf etmiş şəxsiyyətin tam yetkinliyə malik olmamasına gətirib çıxarır. Buna görə də yeni insan tərbiyəsində son dərəcə zəruri və hökmən vacib olan ədəbiyyat və incəsənəti heç bir texniki tərəqqi və yaxud elmi nailiyyət əvəz edə bilməz (6, s. 46).

Odur ki, şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına incəsənətin təsiri imkanlarından bütünlüklə istifadə edilməsi üçün incəsənət ilə cəmiyyət arasındakı müxtəlif əlaqələri həmişə diqqət mərkəzində saxlamaq lazımdır.

Müasir dövrdə ədəbiyyat və incəsənət insanların həyatına çox dərin nüfuz etmiş, görkəmli sənətkarlarımızın gözəl əsərləri cəmiyyət üzvlərinin zövqünü oxşamaqla onların idrak imkanlarının daha da genişlənməsində müstəsna əhəmiyyət qazanmışdır. Uzun illər ərzində respublikamızda geniş kütlələrin bədii mədəniyyətə yiyələnməsi, ədəbiyyat və incəsənətin cəmiyyətimizin bütün üzvlərinə anlaşıqlı olması üçün çox böyük tədbirlər həyata keçirilmişdir. Bunun nəticəsidir ki, hazırda başqa sosial-iqtisadi çətinliklərə baxmayaraq, xalqımız ədəbiyyat və incəsənətə xüsusilə böyük maraq göstərir. Bununla əlaqədar olaraq, gözəl ədəbiyyat və incəsənət əsərləri, yeni mədəniyyət sarayları, teatrlar, kitabxanalar, mədəni-maarif müəssisələri, orkestrlər, bədii sərgilər yaradılması xalqımızın bədii sərvətlərə tələbatının xeyli dərəcədə ödənilməsi üçün son dərəcə zəruridir. Şübhəsiz ki, belə bir zərurəti nəzərə almaqla gənc müstəqil dövlətimiz ölkəmizin ərazisində mədəni-maarif müəssisələri və bədii sərvətlərin müvafiq qaydada yerləşdirilməsinə, xalqımızın mədəniyyətinin müasir tələblər səviyyəsində inkişafı və



durmadan yüksəlməsi üçün maddi bazanın təmin edilməsinə daim qayğı göstərməlidir.

Məlumdur ki, incəsənətin qavranılması müəyyən estetik hazırlıq və ümumi mədəni inkişaf səviyyəsinin olması ilə bağlıdır. Ona görə də gənclərin estetik tərbiyəsi işinin daha yüksək səviyyəyə qaldırılması ən vacib problemlərdən biridir və kitabxanaların qarşısında mühüm vəzifələr qoyur.

Hazırda cəmiyyət üzvlərinin estetik tərbiyəsi nəinki bədii ədəbiyyat və kinonun, həm də incəsənətin digər növlərinin də kütləvi yaradıcılıqda mühüm rol oynamasını tələb edir. Bunsuz adamların hərtərəfli inkişafına nail olmaq mümkün deyildir (7, s. 47).

Geniş xalq kütlələrinin, o cümlədən gənc nəslin incəsənəti başa düşüb ondan zövq və həzz almasında, sevinc duymasında mətbuat, televiziya, radio, təbliğat, kütləvi özfəaliyyət dərnəkləri ilə yanaşı olaraq, uşaq və gənclər kitabxanaları vasitəsilə aparılan estetik tərbiyə işinin rolu son dərəcə artır.

Görkəmli pedaqoq V.A.Suxomlinski yazır: "Əxlaqi, intellektual, estetik hisslərin tərbiyəsi, həmin hisslərin sıx qarşılıqlı əlaqəsində praktik məqsədəyönəlməyə malikdir: öz arzularını idarə etməyi, onları şüurlu surətdə məhdudlaşdırmağı, arzularının hakimi olmağı, özündə nəcib insani tələbatı tərbiyə etməyi gəncə öyrətmək lazımdır" (11, s. 260).

Yaddan çıxarmaq olmaz ki, uşaqların və gənclərin estetik tərbiyəsinə şəxsiyyətin sonrakı mənəvi tərbiyəsinin və özünütərbiyəsinin xüsusi bünövrəsi kimi baxılmalıdır. Məsələyə belə yanaşma onu nəzərdə tutur ki, estetik obyektlərin düzgün qavranılması və qiymətləndirilməsinin əsasları gənc yaşlarında qoyulur. Bu əsaslar sonrakı illərdə möhkəmləndirilməli və daha da təkmilləşdirilməlidir. Əmək, ünsiyyət və məişət mədəniyyətinin yüksəldilməsi insanın şəxsiyyətinə verilən zəruri tələblər olduğu kimi, onun estetik səviyyəsinin daim yüksəldilməsi də ən mühüm zərurətə çevrilir. Bədii-estetik tərbiyə yaş məhdudiyyəti bilməyən uzun bir proses kimi başa düşülməlidir. Bununla əlaqədar olaraq bədii-estetik tərbiyənin əməli problemlərindən biri – gənclərin bədii-estetik tələbatının formalaşdırılması problemi meydana çıxır.

Belə ki, incəsənət əsərləri və bədii ədəbiyyat gənclərin ideya-estetik tələbatını tamamilə təmin etmək, onların həqiqətə və gözəlliyə olan meyllərinə, arzu və istəklərinə cavab vermək üçün estetik tərbiyənin bütün vasitələrindən daha qüdrətlidir.

Qeyd etmək lazımdır ki, gənclərimizin estetik tələbatının tərbiyəsində gözəllik və eybəcərliyin düzgün hissi ölçülərinin

aşılanması böyük əhəmiyyətə malikdir. Buna görə də onların sağlam bədii mühitlə əhatə olunmasına fikir verilməlidir.

Bu işin iki istiqaməti vardır. Birinci istiqamət teatrlarla, muzeylərlə, konsertlərlə, sərgi salonları ilə gənclərin ünsiyyətini fəallaşdırmaqdan ibarətdir. Xüsusən opera və balet teatrının tamaşalarında, simfonik orkestrin konsertlərində daha çox gənc görmək arzumuz hələ də yerinə yetməmişdir. Bir vaxtlar orta məktəblərin və texnikumların şagirdlərinə, ali məktəblərin tələbələrinə teatrlara, konsertlərə getmək üçün abonement satmaqla vəziyyətdən çıxmağa çalışırdılar. Lakin təbii olaraq bu tədbir özünü doğrultmadı. Tamaşa *və konsert salonlarında abonement yerləri çox zaman boş qalırdı.* Bunun bir səbəbi ondan ibarətdir ki, məktəblərimiz şagird və tələbələrə incəsənətin estetik tərbiyədəki rolunu lazımınca açıb göstərə bilmir. Digər tərəfdən isə gənclər həqiqi incəsənətlə hər bir görüşü toy-bayram kimi qarşılamaqla, müntəzəm surətdə teatrların tamaşalarına, konsertlərə getməklə onlara nümunə göstərən müəllimlərə heç də tez-tez rast gəlmirlər (5, s. 116).

Tamamilə doğru fikirlərdir və bizcə, bu haqlı irad təkcə məktəblərə və müəllimlərə yox, həm də kitabxanalara və kitabxanaçılara aid edilməlidir.

Gənclərin sağlam bədii mühitlə əhatə olunmasının ikinci istiqaməti onları zəif əsərlərlə ünsiyyətdən qorumaqdır. Məzmun-mündəricə zənginliyindən və forma mükəmməlliyindən məhrum olan incəsənət əsərlərinin kitabxanalara, nəşriyyatlara, qəzet və jurnal redaksiyalarına, teatr səhnələrinə, konsert və sərgi salonlarına, ekran və efirə yolunu bağlamaq, mürtəce baxışlar, korlanmış və bayağı zövqlər təbliğ edən incəsənət nümunələrinin gəncliyin bədii *auditoriyasına nüfuz etməsinin qarşısını qətiyyətlə almaq bu* vəzifənin həllində böyük əhəmiyyətə malikdir.

Qeyd etdiyimiz kimi, insanlarda qabaqcıl estetik ideralların formalaşmasında müəyyənedici rol incəsənətə məxsusdur. Əgər estetika - insanın və incəsənətin gerçəkliyə estetik münasibətlərindən, gözəllikdən, habelə gözəllik qanunlarına əsaslanan bədii yaradıcılığın estetik mahiyyətindən və inkişaf qanunlarından bəhs edən fəlsəfi elmdirsə, incəsənət – ictimai şüur formalarından biri olub, gerçəkliyi bədii obrazlar vasitəsi ilə əks etdirən yaradıcılıqdır. İncəsənətdə mütləq estetik predmet olan insan başlıca yer tutur. Bu mənada incəsənəti "insanşünaslıq" adlandıranlar da yanılmırlar.

İncəsənət – insan ruhunun gözəlliyinin yaşadığı zaman və məkandır. Gimnastika bədəni düzəltdiyi kimi, incəsənət də qəlbi düzəldir. İnsan incəsənət sərvətlərini dərk etməklə insanda insanlığı



dərk edir, özünü gözəlliyin səviyyəsinədək qaldırır, zövq alır. İnsan qəlbinin həyatı - pedaqoji tərbiyənin ali məqsədidir. Bilik, vərdiş, əmək, yaradıcılıq - bütün bunlar ali məqsədə nail olmağın yalnız vasitəsidir (11, s. 310).

Görkəmli teatrşünas Konstantin Stanislavski demişdir: "İndi məndən soruşun: - Yer üzərində xoşbəxtlik nədir? - Dərk etməkdir. İncəsənətdə və əməkdədir, onun başa düşülməsindədir. İncəsənəti özündə dərk edərək, təbiəti, dünyanın həyatını, həyatın mənasını dərk edirsən, qəlbi - istedadı (talantı) dərk edirsən. Bundan ali xoşbəxtlik yoxdur".

Əgər məktəbə, kitabxanaya və tərbiyəyə yeni dövr quruculuğunun – müstəqil milli Azərbaycan dövləti quruculuğunun bir hissəsi kimi baxılsa, yeni dünyanın mənəvi sərvətlərinin yaradılması sahəsində ən mühüm vəzifə - insan xoşbəxtliyinin bərqərar edilməsidir. Bu prosesdə ən böyük rol, heç şübhəsiz, incəsənətə məxsusdur və məhz buna görə də kitabxanalar incəsənət ədəbiyyatının oxucular arasında təbliğinə xüsusi diqqət yetirməlidir.

Kitabxanaçılar yaddan çıxarmamalıdırlar ki, incəsənət estetik tərbiyədə yalnız o zaman səmərəli rol oynayır ki, o, insanların, həmçinin gənc oxucuların estetik zövqünü inkişaf etdirməklə kifayətlənməsin, həm də onların ümumi müvəffəqiyyətinin yüksəldilməsinə, elmi dünyagörüşünün genişləndirilməsinə, ətraf aləmdə baş verən hadisələrə qarşı həssaslıqlarının artırılmasına təsir göstərsin.

Uşaq və gənclər kitabxanalarında çalışan əməkdaşlar həmçinin bilməlidirlər ki, incəsənət əsərlərinin doğurduğu estetik həyəcan oxucuların fikir və hisslərini, duyğu və düşüncələrini oyatmaqla qalmır, həm də iradələrini möhkəmləndirir, əzmkarlıqlarını artırır. *Həqiqi sənət əsərləri ilə ünsiyyətdən sonra insana* sanki yeni bir qüvvə gəlir, onun həyat eşqi, yaşamaq və yaratmaq əzmi güclənir. Klassik və müasir musiqinin ən yaxşı nümunələrini dinlədikdən, dünya şöhrətli rəssamların tablolarına tamaşa etdikdən, insan qəlbinin ən incə tellərini ehtizaza gətirən lirik poeziya ilə tanışlıqdan sonra gənc oxucular istər-istəməz incəsənətin qüdrətli varlıq olduğuna inanır, onun yaradıcılıq imkanlarının genişliyi, idrak qabiliyyətinin dərinliyi haqqında düşünürlər.

Kitabxana işçiləri vacib bir məqama da diqqət yetirməlidirlər ki, güclü, təsirli incəsənət əsərlərinin doğurduğu gözəllik hissinə gənc oxucuların çaşqınlıq və həyəcan hissi də qarışmış olur. İncəsənətin vücuda gətirdiyi gözəlliyin mahiyyətini dərk etməyə çalışarkən onlar hələ kifayət qədər kamil olmadıqlarını başa düşür,

qələbə və məğlubiyyətlə, sevinc və kədərlə dolu olan həyatda daha düzgün fəaliyyət istiqaməti seçməyə çalışırlar.

Bədii ədəbiyyatın və incəsənət əsərlərinin estetik tərbiyədəki rolundan danışarkən uşaq və gənclər kitabxanasının işçiləri oxuculara başa salmalıdırlar ki, estetik tərbiyənin incəsənətin növlərindən yalnız birinin, məsələn, musiqinin və ya teatr tamaşasının təsiri altında başa gəldiyini düşünmək səhv olardı. İncəsənətin növlərinin hər biri insan qabiliyyətinin biri ilə əlaqədardır. Onlar sanki bir-birini tamamlayır və şəxsiyyətin estetik inkişafının dolğunluğunu təmin edir. Yalnız incəsənətin bütün növlərini başa düşən və onlardan həzz alan gənc oxucunu əsl yüksək estetik mədəniyyətli şəxs hesab etmək olar. Bədii ədəbiyyat və incəsənət əsərləri vasitəsi ilə estetik tərbiyənin başlıca məqsədi hər bir insanda məhz belə bir universal qabiliyyət tərbiyə etməkdən ibarətdir və kütləvi kitabxanalar da məhz bu vəzifənin həyata keçirilməsinə çalışır.

İnsanın mənəvi-estetik ideallarının formalaşmasında, bədii zövqünün tərbiyə edilməsində, yetkin şəxsiyyət kimi püxtələşməsində söz sənətinin – bədii ədəbiyyatın rolu və əhəmiyyəti əvəzsizdir. Yaşı minilliklərlə hesablanan Azərbaycan ədəbiyyatı həm yeni dünyanın yaranmasını parlaq şəkildə əks etdirmək, həm də bu prosesdə fəal iştirak edən mübariz vətənpərvərlər yetişdirmək iqtidarındadır. İmperiya caynağından xilas olaraq tam siyasi və iqtisadi müstəqillik yolu ilə inamla irəliləyən, erməni - rus hərbi birləşmələrinin işğalçılıq fəaliyyətinə qarşı qanlı mübarizə aparan, düşmən tapdağına çevrilmiş ərazilərini azad etməyə çalışan suveren Azərbaycan Respublikasında baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi hadisələr zəminində bu vəzifə xüsusi aktuallıq kəsb edir.

Milli azadlıq ideyalarının çiçəkləndiyi və real həyat həqiqətinə çevrildiyi bir zamanda gənc nəsildə torpağa və xalqa məhəbbət, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə sədaqət, milli və hərbi vətənpərvərlik, qorxmazlıq, cəsarət, hünər, qəhrəmanlıq kimi hiss, duyğu və yüksək ideyalar aşılanmasında bütün tərbiyə, təhsil, mədəniyyət və informasiya müəssisələrinin üzərinə çox ciddi vəzifələr düşür. Bu təxirəsalınmaz və taleyüklü vəzifələrin həyata keçirilməsi üçün kitabxanalarımız da fəal mövqe tutmalı, ön sıraya çıxmalı, oxucuların gündən-günə artan tələbatını vaxtında və dəqiq ödəməyə çalışmalıdır.

Kitabxanaçılarımız müxtəlif elm sahələrinə dair kitabları təbliğ etməklə yanaşı, bədii ədəbiyyatın geniş yayılmasına da ayrıca diqqət yetirməli, onun incəliklərini və xüsusiyyətlərini bilməlidirlər.



Onlar yadda saxlamalıdırlar ki, bədii əsərlər oxucuya təkcə estetik zövq vermək üçün deyildir. Yaxşı bədii kitab həm də oxucunun yol göstərəni, tərbiyəçisi, müəllimi, nəsihətçisidir. Daha obrazlı desək, mənalı kitab müdrik və dünyagörmüş bir ağsaqqaldır.

Görkəmli pedaqoq-alim V.A.Suxomlinski yazır: "Yeniyetmənin mənəvi aləminə incəsənətin daxil olması söz gözəlliyinin dərk edilməsi ilə başlanır. Ən asan və eyni zamanda ən qüdrətli sənət bədii ədəbiyyatdır. Söz gözəlliyinin dərk edilməsi gözəllik aləminə birinci və ən mühüm addımdır. Söz – incə hisslərin cilalanmasının, tərbiyə edilməsinin qüdrətli üsuludur. Ən mühüm pedaqoji vəzifə bundan ibarətdir ki, artıq uşaqlıq illərində söz özünün çoxcəhətli, fərəhli, nəcibləşdirici gözəlliyi ilə gözəlliyin dərk edilməsinin tükənməz mənbəyi və vasitəsi, daxili mənəvi sərvəti və eyni zamanda bu sərvətin ifadə vasitəsi olsun. Əgər mən tərbiyənin qüdrətli qüvvəsinə inanıramsa, bu inamın ən başlıca mənbələrindən biri poeziyanın gözəlliyi, insanın müdrik sözünün yüz illər ərzində cilalanan dərinliyidir".

Müəllif daha sonra belə qeyd edir: "Yeniyetmələr həyəcanla poetik hekayə dinləyirlər – elə emosional dolğun obraz təsəvvür edirlər ki, biz onu görür, dinləyir, duyur, hiss edirik... Biz gözəllikdən fərəhlənirik, zövq alırıq. Mənim sözüm oğlanlara və qızlara istədiklərini başa düşməyə, hiss etməyə kömək edir. Tərbiyənin ən incə hadisələrindən biri sözün emosional çalarının dərk edilməsi baş verir. Mən bilirəm ki, artıq o, ürəklərdə yaşayacaqdır" (11, s.311-313.).

Pedaqoq olduqca düzgün qənaətə gəlir: doğrudan da bədii kitab insana həyatı öyrədir, insan xarakterində baş verən yeni müsbət və ya mənfi cəhətlərdən, ziddiyyətlərdən söz açır, insanın mənəvi təkamülünə təsir göstərir, onda yüksək emosiyalar yaradır. Cəsurluq, qəhrəmanlıq, doğruçuluq, igidlik, namusluluq, əməksevərlik və s. haqqında müxtəlif kitablardan oxuduqlarımız, üzünü görməyib obrazını xəyalımızda canlandırdığımız ədəbi qəhrəmanlar əbədi dostumuza və sirdaşımıza çevrilir. Biz çox vaxt onlardan nümunə götürür, onlara oxşamaq istəyirik. Bu cəhətdən bədii ədəbiyyatı ardıcıl mütaliə etmək, onu şüurlu şəkildə oxumaq hər kəsin mənəvi borcudur.

Ona görə də oxucuların gündəlik sorğularını ödəməklə məşğul olan hər bir kitabxanaçı öz fəaliyyətində bədii ədəbiyyatın təbliğinə xüsusi fikir verməli, yaşından asılı bədii ədəbiyyatın olmayaraq bütün oxucuların, xüsusilə gənc nəslin təlim-tərbiyəsində mühüm yer tutduğunu, oxucuların şüuruna, davranışına, hərtərəfli

inkişafına, ümumiyyətlə, şəxsiyyət kimi forma aşmasına və yetkinləşməsinə bu kitabların təsirini nəzərdə saxlamalıdır.

Qeyd etmək lazımdır ki, bədii ədəbiyyat həyatı bədii obrazlar vasitəsi ilə əks etdirən söz sənətidir. Yəni bədii ədəbiyyat incəsənətin başqa növlərindən, hər şeydən əvvəl, söz sənəti olması ilə fərqlənir. Varlığı əks etdirmək, yenidən canlandırmaq üçün rəsmdə rənglərdən, musiqidə səslərdən, heykəltəraşlıqda mərmərdən, tuncdan, qranitdən və başqa materiallardan istifadə olunursa, bütün bunlardan fərqli olaraq ədəbiyyat sözdən yaranır.

Elmin də, bədii ədəbiyyatın da məqsədi həyatı öyrənmək, insan biliyini zənginləşdirməkdir. Bu cəhətdən bədii ədəbiyyatla müxtəlif elmlər arasında yaxınlıq və müştərəklik var. Lakin onlar həyatı başqa-başqa yollarla öyrənirlər. Elm faktik materiala, tarixi sənədlərə, rəqəmlərə, kainatın qanunauyğunluqlarına əsaslanır, ümumiləşmiş qənaətlər yaradır. Bədii ədəbiyyat da həyat materialına, tarixi sənədlərə əsaslanır, lakin o, məntiqi qavrama yolu ilə yox, həyatı surətlərin qarşılıqlı münasibətləri vasitəsilə ümumiləşdirir. Yazıçı alimdən fərqli olaraq daha çox təxəyyülə əsaslanır. Qələmə aldığı dövrün, mühitin ruhunu təhrif etməmək şərti ilə bütün faktları öz niyyətinə uyğun şəkildə dəyişə bilir.

İnsanda dərin həyəcanlar oyadıb onu mütəəssir etmək bütün incəsənət növləri (rəssamlıq, heykəltəraşlıq, musiqi, memarlıq və s.) üçün ümumi cəhətdir. Rəsm əsərinə baxanda da, musiqi dinləyəndə də, bədii əsər oxuyanda da adam müxtəlif hisslər keçirir: onda xoş əhval-ruhiyyə yaranır, yaxud o, riqqətə gəlir və ya məyus olur, kədərlənir. İnsan ya qəzəblənir, yaxud onda mərhəmət oyanır, müəyyən bir fəaliyyət göstərməyə ruhlanır və s.

Bütün bu duyğu və hissləri bədii ədəbiyyat öz sözü vasitəsi ilə yaradır ki, oxucu onu daha konkret, daha dərindən qavrayır, həm də müəllifin münasibətini görüb dərk edir. Buna görə də bədii ədəbiyyat incəsənət növlərinə nisbətən daha geniş inikas imkanları olan bir sənət kimi qiymətləndirilir.

Fikrimizi aydınlaşdırmaq üçün Bakıda qoyulmuş "Azad qadın" heykəli ilə Cəfər Cabbarlının "Sevil" pyesini özünün inikas imkanlarına görə müqayisə edək: heykəldən aydın olur ki, qadının üzündə qəzəb var, çarşabını başından götürüb irəliyə doğru can atır. Lakin onun çadradan azad olmaq istəməsinin səbəblərini tamaşaçı kifayət qədər başa düşə bilmir. "Sevil" əsəri isə oxucuya daha geniş məlumat verir: Balaş həyat yoldaşı Sevili addımbaşı təhqir edir, hətta öz evinə Dilbər adlı yüngülxasiyyətli bir qadın da gətirir. Sevil acınacaqlı vəziyyətə düşür. Gülüş ona təsir göstərərək haqqını başa



salmağa çalışır. Nəhayət, Sevil cəhalətdən qurtarmağın lazım olduğunu anlayır, "qoç döyüşünə qoç dayanar, kəlləmi bərkitməyə gedirəm" deyərək, çarşabını Balaşın ayaqları altına tullayıb ona deyir: "Daha bu mənə gərək deyil, sənə gərəkdir, mən isə gedirəm" (2, s.47.).

Beləliklə, Azərbaycan qadınının ümumiləşmiş bədii obrazı olan Sevil əsrlər boyu onu əsarətdə saxlamış bu örtükdən azad olur, təhsil alır, kitab yazır, qadınların azadlığı uğrunda mübarizəyə qoşulur.

Yaxud respublikamızın ən gözəl guşələrindən biri olan Göy gölə aid rəsm əsəri ilə ona həsr edilmiş bir bədii əsəri – xalq şairi Səməd Vurğunun "Göy göl" şerini müqayisə etsək, bədii əsərin Göy göllə bağlı daha geniş məlumat verdiyini aydın görərik (12, s.2.).

Məşhur rus tənqidçisi V.Belinski bədii ədəbiyyatın üstünlüyünü belə izah edir: "Ədəbiyyat azad insan sözləri ilə ifadə olunur ki, bu da həm səs, həm lövhə, həm də müəyyən, aydın ifadə olunmuş təsəvvürdür. Buna görə də ədəbiyyat başqa incəsənət növlərindən bütün ünsürlərinə malik olub ayrılıqda onların hər birinə aid olan bütün vasitələrdən birdən-birə və tamamilə istifadə etmiş olur".

Aydındır ki, "ədəbiyyat" sözü "ədəb", "mərifət" sözündən götürülmüşdür və deməli, ədəbiyyatın birinci vəzifəsi insanı tərbiyə etməkdir. İnsanların başqalarına münasibətində, dünyagörüşünün inkişaf edib formalaşmasında, özünü dərk etməsində, müasir ruhda tərbiyə olunmasında bədii ədəbiyyat çox mühüm bir vasitədir.

Ədəbiyyat insanda güclü hisslər doğurur, onu heyran edir, həyata, fəaliyyətə səsləyir, xoş günlərə çağırır. Oxucu bədii əsərlərdən tanış olduğu obrazları, məsələn, N.Gəncəvinin Fərhadını, İsgəndərini, Şirinini, Fitnəsini; M.Füzulinin Leylisini, Məcnununu; M.F.Axundovun Şahbaz bəyini, Kəmalüddövləsini, Yusif Sərracını; C.Cabbarlının Sevilini, Almazını, Yaşarını, Aydınını; S.Vurğunun Vaqifini, Sarvanını, Humayını, Cəlalını; S.Rəhimovun Mehmanını və başqalarını özü üçün ideal seçir, həyatda onun kimi olmağa çalışır. Belə qəhrəmanların daxili zənginliyini, sağlam düşüncəsini, müəyyən amal uğrunda mübarizliyini, başqalarına münasibətini əsas meyar hesab edən oxucu onları dərk etdikcə sevdiyi qəhrəmanda müsbət qiymətləndirdiyi xüsusiyyətləri özündə də görmək istəyir, öz nöqsanını hiss edir, onu aradan qaldırmağa çalışır, bir sözlə, xarakterini bu və ya başqa qəhrəmanın nümunəsində tərbiyə edir. Bədii ədəbiyyat oxucunu düşündürür, onun həssaslığını artırır, qəlbini incələşdirir, ona nəcib sifətlər aşılayır, daxili qüvvə verir,

həyata səsləyir, ümumiyyətlə, onda yeni mənəvi keyfiyyətlərin yaranmasına səbəb olur (3, s.12).

Bədii ədəbiyyat cəmiyyət hadisələrini dərk etməkdə, obyektiv aləmin sirlərini öyrənməkdə, adamların mənəvi sifətlərini, inkişaf və yüksəlişimizi qiymətləndirməkdə gənc nəslə yaxından kömək edir, onların həyat haqqındakı bilik və təsəvvürlərini genişləndirir və tamamlayır. Yeniyetmələr və gənclər yüksək və bəşəri ideyalar təbliğ edən, oxucuda xoş arzular, nəcib əxlaqi sifətlər aşılayan yazıçıların əsərlərini böyük maraqla mütaliə edirlər. Belə əsərlərin bədii təsiri güclü olduğundan onlarda təbliğ olunan fikirlər şagirdləri istənilən məqsədə asanlıqla istiqamətləndirə bilir, qəhrəmanları nümunə olacaq adamlar səviyyəsində gənc oxucunun qəlbində silinməz izlər buraxır.

Uşaq, məktəb və gənclər kitabxanalarında aparılan müşahidələr, uşaq, yeniyetmə və gənclərlə aparılan söhbətlər əsasında məlum olur ki, bir sıra bədii əsərlər onların dünyagörüşünün formalaşmasına çox böyük təsir göstərir.

Ona görə də oxucuların gündəlik sorğularını ödəməklə məşğul olan hər bir kitabxanaçı öz fəaliyyətində bədii ədəbiyyatın təbliğinə xüsusi fikir verməli, yaşından asılı olmayaraq bütün oxucuların, xüsusilə gənc nəslin təlim-tərbiyəsində bədii əsərlərin mühüm yer tutduğunu, bu kitabların oxucuların şüuruna, davranışına, hərtərəfli inkişafına, ümumiyyətlə, şəxsiyyət kimi formalaşmasına və yetkinləşməsinə təsirini nəzərdə saxlamalıdır.

Məlum olduğu kimi, müstəqil Azərbaycan Respublikasında yeni dövlət quruculuğunun indiki inkişaf mərhələsində gənc nəslin düzgün tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məsələ təlim-tərbiyə ilə məşğul olan digər qurumlarla yanaşı, elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi kitabxanaların da həmişə diqqət mərkəzində olmalıdır. Əlbəttə, tərbiyənin əsası ailədə qoyulsa da, məktəb bu bünövrə üzərində ucalan gənc nəslin inkişafında və formalaşmasında mühüm rol oynayan təlim-tərbiyə ocağı olsa da, bu sahədə kitabxanaların da özünəməxsus imkanları var. Bu vacib problemlərin həllində ədəbiyyat və incəsənət əsərləri kitabxanaçıya zəngin material verir, geniş imkanlar açır, onun yaxın köməkçisinə çevrilir, milyonlarla adamın, xüsusilə gənc nəslin sağlam ruhda böyüməsində tərbiyə məktəbi kimi xidmət göstərir.

Kitabxanaçılar ədəbiyyat təbliği zamanı belə bir cəhəti əsas götürürlər ki, ən yaxşı sənət əsərləri insana, onun həyat və mübarizəsinə, mənəvi aləminin dərinliklərində gizlənən hisslərinin üzə çıxarılmasına və bunlardan istifadə olunmasına yardım göstərir. Gənc



oxucular ən dəyərli və bəşəri ideyaları təbliğ edən əsərlərin köməyi ilə təbiət və cəmiyyət hadisələrini, insani keyfiyyətləri öyrənir, bu əsərlərdə təbliğ olunan nəcib fikirlərdən nümunə götürür, ədəbi bilik alır, bədii zövqə yiyələnirlər.

Kitabxanaçılar bədii ədəbiyyatın təbliği zamanı yaddan çıxarmamalıdırlar ki, gənc nəslin oxuduğu hər bir əsər bu vəzifələrin həyata keçirilməsinə yardımçı olmalıdır:

1) gənclərin elmi dünyagörüşünün yaranmasına və genişlənməsinə kömək göstərməlidir;

2) gənclərdə əməyə məhəbbət hissləri tərbiyə etməli və onların əməksevər kimi yetkinləşməsinə təsir etməlidir;

3) gənc nəslin əxlaqi cəhətdən düzgün tərbiyələnməsinə kömək etməli, onları mənəvi aşınmalardan qorumalıdır;

4) gənclərdə milli vətənpərvərlik hiss və duyğularını gücləndirməli, eyni zamanda onlara beynəlmiləlçilik ruhu aşılamalıdır;

5) şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına təsir göstərməli, ən nəcib insani keyfiyyətlərə yiyələnməyin yollarını göstərməlidir;

6) insanların şüurunda və hərəkətlərində kök salmış, köhnəlmiş, vaxtı keçmiş, zərərli meyllərin aradan qaldırılmasına kömək göstərməlidir;

7) gənclərdə yad və zərərli ideologiyaları ifşa etmək bacarığı formalaşdırmalıdır;

8) gənc nəslə sağlam bədii zövq aşılamalıdır.

Təbiidir ki, qarşıya qoyulan bu məsul və şərəfli vəzifələrin layiqincə yerinə yetirilməsində məktəblər və digər tərbiyə ocaqları ilə yanaşı kitabxanalar da mühüm işlər görməlidirlər.

Müasir dövrdə kitabxanaların qarşısında duran ən vacib vəzifələrdən biri də, qeyd etdiyimiz kimi, oxucuların vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Hazırkı dövrdə uşaq və gənclərin tərbiyəsinin tərkib hissəsi olan vətənpərvərlik tərbiyəsi məsələsi ideoloji işimizin, milli dövlətçiliyimizin mühüm sahəsi kimi yüksək qiymətləndirilir və həmişə diqqət mərkəzində saxlanılır.

Kitabxanaçı bədii ədəbiyyatın təbliği zamanı müasir dövrdə vətənpərvərliyin yeni məzmun və məna kəsb etdiyini dünyada baş verən hadisələrlə vəhdətdə götürməli, bu mövzuda oxuculara kitab verərkən çağdaş prosesləri nəzərdən qaçırmamalıdır. O, unutmamalıdır ki, gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında humanitar fənlər, ilk növbədə isə bədii ədəbiyyat daha geniş imkanlara malikdir.

Gənclərin vətənpərvərlik tərbiyəsində şifahi xalq ədəbiyyatı materiallarının təbliğinin əhəmiyyəti böyükdür. "Dədə Qorqud" və "Koroğlu" dastanlarının, bir sıra nağıllarımızın uşaqlar və gənclər arasında geniş təbliği onlarda qəhrəmanlıq, mübarizlik, yadelli işğalçılara qarşı nifrət, doğma vətənə məhəbbət hiss və duyğularını tərbiyə edir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində klassiklərimizin bədii irsinin təbliği də çox faydalıdır. Bu baxımdan, N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, A.Səhhət, M.Ə.Sabir, S.Vurğun və başqa klassiklərimizin əsərlərindəki vətəni tərənnüm edən motivlər kitabxanaçılarımızın diqqət mərkəzində olmalıdır. Belə ki, klassik şairlərimizdən olan Abbas Səhhətin çox təbii və səmimi yazdığı "Vətən" şeri kitabxanada təşkil edilən bir sıra tədbirlərin leytmotivinə çevrilə bilər. Bu şer indiki dövrdə iftixar və qürur ifadə edən intonasiya ilə daha gur səslənir:

***Könlümün sevgili məhbubu mənim***
***Vətənimdir, vətənimdir, vətənim...***
***Vətənim verdi mənə nanü nəmək,***
***Vətəni, məncə, unutmaq nə demək?!***

***Anadır hər kişiyə öz vətəni,***
***Bəsləyib sinəsi üstündə onu...***
***Vətəni sevməyən insan olmaz,***
***Olsa, ol şəxsdə vicdan olmaz!*** (229, s.64.).

Məlumdur ki, xalqın vətənpərvərlik, yadelli işğalçılara qarşı qəzəb və nifrət hissləri müharibə illərində daha aydın şəkildə meydana çıxır. Bu mənada həm 1941-1945-ci illərin Böyük Vətən müharibəsi, həm də Dağlıq Qarabağ uğrunda 1988-ci ildən başlayan Vətən müharibəsi vətəndaşlarımızda yeni mənəvi-əxlaqi sifətlərin yaranmasına səbəb olmuş, ədəbiyyatımıza yeni mövzular, yeni xarakterlər gətirmişdir.

Kitabxanalarda aparılan müşahidələr göstərir ki, gənclər müharibə mövzusunda yaranan bədii əsərlərə böyük maraq göstərir, onları həvəslə oxuyurlar. Bu mövzuda yazılan əsərlərin qəhrəmanları gənc nəslin hərbi-vətənpərvərlik tərbiyə üçün zəngin material verir, əlverişli imkan yaradır. Böyük Vətən müharibəsi mövzusuna dair əsərlər faşizmə qarşı ağır döyüş illərində xalqımızın arxa və ön cəbhələrdə kütləvi qəhrəmanlıq nümunələri göstərdiyini öyrədir, azğın düşmənin vəhşilikləri haqqında konkret məlumat verir. Bu mövzuda yazılmış əsərlərin təbliği müqayisə aparmağa, nəticə çıxarmağa çox kömək edir. Gənclər öyrənirlər ki, bəşər tarixində



hər bir xalqın öz istiqlaliyyəti, vətənin azadlığı uğrunda yadellilərə qarşı vuruşmaq halları az olmamışdır. Amma müxtəlif xalqların alman faşizminə qarşı apardığı müharibə bunların hamısından fərqlənir. Bu müharibə müxtəlif nəsillərdən olan adamları düşmənə qarşı mənəvi cəhətdən birləşdirməyin ən parlaq nümunəsi kimi diqqəti çəkir.

Böyük Vətən müharibəsi cəbhələrində xalqımızın igid övladlarının göstərdikləri vətənpərvərlik nümunələri bədii əsərlərdə geniş əks etdirilmişdir. Gənc nəslin həmin ruhda tərbiyə olunması məqsədi ilə ədəbi qəhrəmanların sociyyəsinə nəzər salmaq çox faydalıdır. Müşahidələr göstərir ki, cəbhə qəhrəmanları - Mehdi Hüseynzadə ("Uzaq sahillərdə" - Həsən Seyidbəyli, İmran Qasımov), Hüseynbala Əliyev ("Leninqrad göylərində" – Məmməd Rahim), Həzi Aslanov ("General" - Hüseyn Abbaszadə), Qafur Məmmədov ("Qafurun qəlbi" – Süleyman Rüstəm) və başqaları kimi cəsur obrazlar gənclərə dərindən təsir edir, həyatda onların idealına çevrilirlər. Bu ədəbi surətlər gənc nəsildə möhkəm iradə, dözüm, cəsurluq, vətənə məhəbbət, yüksək şüur və s. kimi sifətlər formalaşdırır.

Oxuculara bədii əsərlərin tərbiyəvi əhəmiyyətini və təsir gücünü daha yaxşı başa salmaq üçün Böyük Vətən müharibəsi illərində şair və yazıçıların ən gözəl əsərlərinin oynadığı rol haqqında məlumat vermək çox səmərəli olur. Bu məqsədlə Səməd Vurğunun "Mənə belə söylədilər" şerini misal göstərmək, cəbhədə həlak olmuş bir döyüşçünün ölüm ayağında şairin məşhur "Azərbaycan" şerindən:

***El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam, məskənimsən,***
***Anam, doğma vətənimsən!***
***Ayrılarmı könül candan?***
***Azərbaycan, Azərbaycan!*** (12, s. 220), -

deyib gözlərini əbədi yumması kimi faktları yeri gəldikcə söyləmək çox təsirli olur, bədii ədəbiyyata həvəsi artırmaqla yanaşı, gənc oxucularda vətənpərvərlik hisslərinin formalaşmasına müsbət təsir göstərir.

Səməd Vurğunun:

***Bilsin ana torpaq, eşitsin vətən,***
***Müsəlləh əsgərəm mən də bu gündən!***
***Bu gün bir süngüdür əlimdə qələm,***
***Mənim bayrağıma göz dikir aləm*** (13, s. 66), -

deyərək müharibənin ilk günündən qələmini silahla əvəz etməsi, dəfələrlə əsgər paltarı geyinib bir neçə qələm yoldaşı ilə birlikdə ön atəş xətlərinə getməsi, ordu hissələrində böyük siyasi-kütləvi təbliğat işi aparması həm şairin yaradıcılığına məhəbbət oyadır, oxucularda ruh yüksəkliyi yaradır, həm də onların vətəndaşlıq duyğularını coşdurur.

Əlbəttə, müharibə mövzusunda yazılmış əsərlər təbliğ olunarkən 1990-cı ilin 20 Yanvar faciəsi, 1992-ci ildə erməni-rus hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsi, Şuşanın, Laçının, başqa rayonlarımızın işğalı ilə bağlı yazılmış bədii nümunələrə də geniş yer verilməlidir. Lakin təəssüflə qeyd etməliyik ki, Qarabağ müharibəsinin başlanğıcından on ildən çox vaxt keçməsinə baxmayaraq, xalqımızın erməni-rus işğalçı ordusuna qarşı mübarizəsi ilə bağlı xeyli poetik əsərlər, xüsusilə şerlər yazılsa da, irihəcmli əsərlər, o cümlədən romanlar, povestlər və s. çap olunmamışdır. Bu isə şübhəsiz kitabxanalarımızın fəaliyyətinə müəyyən qədər mənfi təsir göstərməyə bilməz.

Azərbaycanın görkəmli xalq şairi Səməd Vurğun yazır: "Xalqımızın rəngarəng zəhmət həyatı - ...onun yeni əxlaqi keyfiyyətləri, işıqlı fikirləri və hissləri, sevinci və kədəri, Vətən naminə yadelli işğalçılarla gərgin mübarizədə göstərdiyi qəhrəmanlığı və igidliyi Azərbaycan ədəbiyyatının keçən dövr ərzində yaratmış olduğu ən yaxşı əsərlərdə öz bədii əksini tapmışdır. Bizim nəslin... səadət ruhunda, ... Vətənimizdəki xalqların qardaşlığı və xoşbəxtliyi ruhunda tərbiyə olunmasında ədəbiyyatımız həqiqətən böyük rol oynamışdır. Ədəbiyyatımız xalqımızın ictimai və şəxsi şüurunun yüksəldilməsi, xalqın estetik zövqünün zənginləşməsi işində böyük rol oynamışdır" (14, s. 303.).

Böyük şairin dediyi kimi, həqiqi sənət əsərləri oxucuları yetkin şəxsiyyət kimi inkişaf etdirir, onların bədii zövqünün düzgün formalaşmasına müsbət təsir göstərir.

Ədəbiyyatşünas alim M.Cəfərovun qeyd etdiyi kimi, "Həqiqi sənət əsərləri hər bir oxucunun ağıl və düşüncəsini inkişaf etdirib zənginləşdirir. Belə əsərlərin vasitəsilə ən gözəl insani hisslər, duyğular və fikirlər başqalarına keçir, əhval-ruhiyyələri, psixologiyaları dəyişir. Bu əsərlər əgər tarixi əsərdirsə, həyatın mühüm suallarına cavab tapmağa kömək edir" (3, s. 90).

Bu amillərdən çıxış edərək, kitabxanalarda bədii ədəbiyyatın düzgün və məqsədyönlü təbliği xüsusilə vacibdir.



### Ədəbiyyat


1. *Библиотечное обслуживание: Теория и методика.* – М., 1996. – 200 с.
2. *Cabbarlı C. Əsərləri: I c. – B.: Azərnəşr, 1956. – 426 s.*
3. *Cəfərov M.C. Estetik tərbiyə, ailə və məktəb. – B., 1967. – 110 s.*
4. *Эстетическое воспитание читателей в массовых библиотеках: Методические материалы. – М., 1972. – 80 с.*
5. *Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə. – B.: Maarif, 1993. – 280 s.*
6. *Məmmədov Z. Estetika və yeni insan tərbiyəsi. – B.: Azərnəşr, 1978. – 110 s.*
7. *Novruzov R. Teatr sənətinin estetik tərbiyə vasitələri sistemində yeri//İncəsənətin sosial mənəvi-estetik mahiyyəti: Tematik məcmuə. – B., 1986. – S. 23-32 s.*
8. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən başlamış XVIII əsrin axırlarına qədər). – B., 1986. – 52 s.*
9. *Работа с читателями: Учебник. – М.: Книга, 1981. – 296 с.*
10. *Rzayev S. Uşaqların estetik tərbiyəsi sahəsində uşaq və məktəb kitabxanalarının vəzifələri //Zəhmətkeşlərin kommunist tərbiyəsi işinə kitabxanaların köməyi: Tematik məcmuə. – B., 1989. – S. 26-33*
11. *Suxomlinski V. Vətəndaşın doğulması. – B.: Maarif, 1975. – 362 s.*
12. *Vurğun S. Əsərləri: I c. – B.: Elm, 1960. – 330 s.*
13. *Vurğun S. Əsərləri. II c. – B.: Elm, 1960. – 374 s.*
14. *Vurğun S. Əsərləri. VI c. – B.: Elm, 1960. – 462 s*


***Князь Аслан***

## Роль библиотек в процессе художественно-эстетического воспитания читателей

### Резюме


*В современных условиях основные работы в области эстетического воспитания читателей заключаются в приобщении читателей к широкому кругу художественных ценностей прошлого и настоящего, выявление гуманистических и интернациональных традиций отечественного и зарубежного искусства; повышении эстетического уровня читателей, культуры художественного восприятия путем пропаганды лучших образцов литературно-художественной критики, литературоведения, искусствознание, эстетики, комплексной пропаганды различных видов искусств в их взаимодействии, взаимообогащении, взаимовлиянии.*

*В статье анализированы работы библиотек по художественно-эстетическому воспитанию читателей в условиях независимости Азербайджанской Республики.*

*Zakirə ƏLİYEVA*
*Azərbaycan MEA Mərkəzi*
*Elmi Kitabxanasının əməkdaşı*

# *AVTOMATLAŞDIRILMIŞ İNFORMASİYA SİSTEMİNƏ KEÇİD MƏRHƏLƏSİNDƏ STRATEJİ PLANLAŞDIRMA*

Bütün dünyada qlobal informasiyalaşdırma, ictimai formasiyaların dəyişməsi müxtəlif dövlətlərdə olduğu kimi, Azərbaycanda da kitabxana işinin inkişafının yeni paradiqminin formalaşmasını, ölkənin informasiya və mədəniyyət sahəsindəki tarıxlığının təmin edilməsində kitabxanaların rolunun gücləndirilməsini tələb edir. Müasir dövrümüzdə nəhəng informasiya mühitində kitabxanaların rolu həm Avropa Şurasının və YUNESKO-nun, həm də İFLA-nın sənədlərində müxtəlif aspektlərdə şərh edilmişdir.

XXI əsrin başlanğıcında yeni informasiya texnologiyalarının təsiri getdikcə daha sürətlə insan fəaliyyətinin bütün sahələrində əsas müəyyənedici amilə çevrilməkdədir. Əsrin sürəti ilə ayaqlaşmaq üçün elm, bilik, informasiya, təhsil və tərbiyə bazaları olan kitabxanalar yeni texnologiyaların tətbiqi prosesində ön cərgədə getməlidir. Gələcəyin qlobal informasiya aləmində onların yeri indi atılacaq addımlardan xeyli dərəcədə asılı olacaqdır. Kitabxanalar hazırda yeni elektron nəşrlər, elektron daşıyıcılarında nəhəng informasiya axını qarşısında mürəkkəb böhran prosesini yaşamaqdadır. «Demokratik dövlətdə mədəniyyətin inkişafının idarə olunması problemləri»nə toxunan professor F.Məmmədovun qeyd etdiyi kimi «cəmiyyətdə mədəniyyətin inkişafının yeni ehtiyacları ilə onların həyata keçirilməsinin köhnə sosial texnologiyaları arasında olan dialektik ziddiyyətlər» kitabxanaların da həyatından yan keçməmiş və «idarəetmənin belə modellərinin axtarışı və həyata keçirilməsi sivil dövlətlərin mədəniyyət siyasətinin strateji vəzifəsi» kimi onların qarşısında öz həllini tələb edən problemlər qoymaqdadır.



XXI əsrin astanasında informasiya əsas strateji məhsula çevrilmişdir. Bu strateji məhsulun dünya bazarında iqtisadi və sosial müvəffəqiyyəti, hər bir ölkənin telekommunikasiya, şəbəkə əlaqələrindən bacarıqla istifadə etməsi səviyyəsindən xeyli dərəcədə asılıdır. Bununla əlaqədar dünya alimləri tez-tez belə bir anlayışdan – infosfera anlayışından istifadə edirlər.

İnfosfera – cəmiyyətin qlobal kommunikasiya şəbəkələrinin və intellektual kompüter sistemlərinin birləşməsi nəticəsində yaranan yeni universal intellektual məlumat mühitidir. Elm informasiyasız yaşaya bilməz, ona görə də alimlərimizin bu yeni informasiya mühitindən bəhrələnməsinə yardım etmək məhz biz kitabxanaçıların öhdəsinə düşür.

Belə bir vəziyyətdə kitabxanalar informasiya mühitində onların rolunu müəyyən edəcək regional və beynəlxalq təşkilatların göstərişlərini gözləmədən öz gələcək fəaliyyət proqramını hazırlamalıdır. Artıq «kitabxanalar kompüterləşdirilməlidirmi?» sualı ətrafında fikirləşmək vaxtı çoxdan keçmişdir.

Elmi tədqiqatların informasiya təminatı ənənəvi olaraq, akademiya kitabxanalarının ən ümdə vəzifəsidir. Uzun illər ərzində akademiya kitabxanalarının koordinasiyası elmi informasiya, alim və mütəxəssislərə xidmət, informasiya ehtiyatlarının formalaşması və istifadəsi, biblioqrafik informasiya, toplu kataloqlar və s. istiqamətlərdə həyata keçirilmişdir. İndi isə adı çəkilən istiqamətlərdə əldə edilmiş nailiyyətləri artıq yeni informasiya texnologiyalarının, kompüter imkanlarının tətbiqi müstəvisində formalaşdırmaq dövrü başlanmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası akademiya infrastrukturunun ayrılmaz və mühüm bir tərkib hissəsi kimi yaranaraq inkişaf etmişdir. Elmi idarə kimi yarandığı gündən bu qurumun qarşısında duran yeni problemlər, məsələlər, funksiyalar onun strukturunda əks olunduğu kimi, kitabxana-informasiya sistemində də öz əksini tapmışdır. Lakin 2003-cü ildə 80 illik yubileyini qeyd edəcəyimiz kitabxanada son 10 ilə qədər bu dəyişikliklər o qədər də əsaslı və çevik olmayıb, kitabxana xidmətinin əvvəlki ənənəvi formalarını dəyişməz olaraq davam etdirmişdi. Keçən illərin kitab nəşri, kitab ticarəti, dövlət uçot-qeyd sisteminin dağılması, eyni zamanda yeni informasiya texnologiyalarının meydana gəlməsi və onların kitabxanalara yol açması, maliyyələşdirmə mənbələrinin kəskin azalması və s. proseslərin məcmusu kitabxana-

ları texniki imkanlardan istifadə etməklə real dəyəri olan elmi informasiyaya çıxış kimi dövrün aktual vəzifəsi ilə üz-üzə qoymuşdur. Bu gün kitabxanaların idarə olunması sisteminə «marketinq», «menecment», «fandreyzinq», «pablik rileyşn», «imic» və s. kimi elmi terminlər daxil olmuşdur. Dövrün tələbinə müvafiq dinamik islahatlar, çevik informasiya təminatı, elektron daşıyıcılar sistemlərinin yaradılması və başqa yeni vəzifələr kitabxanaların qarşısına yeni-yeni tələblər irəli sürür və elmin inkişafında onun fəaliyyətini ön plana çəkir.

İnkişaf etmiş bir çox ölkələrdə kitabxana işi artıq müasir texnologiyaların tətbiqi ilə yeni istiqamətlərə doğru əsaslı islahatlara nail olmuşdur. Onlarla layihələr, proqramlar elektron kitabxanaların əhəmiyyətli dərəcədə meydana gəlməsini təmin etmişdir. Virtual elektron iddiaçıların sayı artdıqca ənənəvi kitabxana xidmətinin və maraq dairəsinin daraldığı da hiss olunmaqdadır.

Əgər kitabxanalar yüksək tərəqqi əsrində yaşamaq və faliyyət göstərmək istəyirsə onda mütləq oxuçulara özünün xeyirxah xidmətini davam etdirməklə, öz gələcək strateji planlarını dəqiqləşdirməli və fəaliyyət istiqamətlərini müəyyənləşdirməlidir. Ona görə də indiki dövrdə kitabxanalarda strateji planlaşdırmanın aparılmasının mühüm əhəmiyyəti vardır. Cəmiyyətin qeyri-sabit inkişafı fonunda hər hansı bir təşkilatın böhranlı vəziyyətdən çıxışı üçün strateji planlaşdırma daha da aktuallıq kəsb edən faliyyət növünə çevrilir.

«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununun «Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması», «Milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması» (I fəsil, maddə 3.) haqqında bəndlərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin Elmi-sahəvi Kitabxanaların nümunəvi Əsasnaməsinin bu Qanundan irəli gələn göstərişlərinə müvafiq olaraq Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası Kitabxana işinin kompüterləşdirilməsi istiqamətində özünün yeni fəaliyyət sahələrini müəyyən etmiş, gələcək inkişaf strategiyasını planlaşdırmışdır.

Hazırda respublikamızın ən əhəmiyyətli, aparıcı elimi kitabxanalarından biri olan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında yeni elektron informasiya mühitində əsaslı islahatlara nail olaraq gələcək inkişaf perspektivlərinin



müəyyən edilməsi sahəsində elmi-tədqiqat işləri aparılır. Belə tədqiqat işlərinin əsasında isə strateji planlaşdırma prinsipləri dayanır. Bunun üçün ilk növbədə MEK-nın respublikamızdakı digər kitabxanalardan fərqli cəhətləri və ümumi dəyərləri, əhatə etdiyi mühit, yerləşdiyi ərazi, fəaliyyət və xidmət sahələri və s. dəqiq nəzərdən keçirilərək əsas məqsədlər müəyyən edilməkdədir. Aparılan araşdırmalar əsasında kitabxananın gələcək fəaliyyətini təmin edəcək strateji plan hazırlanmış, artıq ilkin nəticələr əldə edilməkdədir. Bu mənada hazırlanan strateji planlaşdırma ədəbiyyatın komplektləşdirilməsi, oxuculara xidmət, ədəbiyyat fondlarının mühafizəsi və bərpası, məlumat-biblioqrafiya aparatının təkmilləşdirilməsi, informasiya texnologiyalarından geniş istifadə olunması, beynəlxalq əlaqələr və s. sahələrdə mövcud olan çatışmazlıqlardan çıxış yollarını araşdıran və onların aradan qaldırılmasının üsul və yollarını göstərən uzunmüddətli bir sənəddir. Bu sənəd kitabxananın məqsədi və vəzifəsini, ona həvalə edilmiş xidmət sahələrini, istifadə qaydaları və normativ sənədlərin, kollektiv qərarların qəbulunu və onların əsasını təşkil edən amilləri əhatə edir

İndi dünyanın bir çox ən əhəmiyyətli, iri elmi kitabxanalarının, o cümlədən ABŞ Konqres Kitabxanasının, Fransa Milli Kitabxanasının, Rusiya Dövlət Kitabxanasının, Rusiya Dövlət Elmi – Texniki Kitabxanasının və s. bir sıra sahəvi kitabxanaların öz strateji planları mövcuddur. Belə planlaşdırmanın keçmiş sovet dövrünün planlaşlaşdırmasından əsas fərqi kağız üzərində qalan şişirdilmiş rəqəmlər deyil, çevik qərarlar, islahatlar və inkişafa doğru müsbət nəticələrin göstricilərini əhatə etməsidir. Strateji planlaşdırmanın əsas giriş xətti kitabxananın missiyası və strateji məqsədləridir. Strateji planlaşdırmanın maraqlı sadə tərifini, məğzini görkəmli kitabxanaçı P.Donlon (ondan başqa M.Layn, E.Vud və b. Avropa kitabxanaçılarının da bu haqda fikirləri vardır) belə vermişdir: «Siz hansı mövqedəsiniz, hansı mövqeyə qalxmaq istəyirsiniz və buna necə nail olcaqsınız».

Strateji planlaşdırma sahəsində ilk təşəbbüs Britaniya Muzeyi Kitabxanasına məxsusdur. 1985-ci ildə kitabxananın hazırlayıb mətbuat səhifələrində dərc etdiyi strateji plan bir sıra xarici dövlətlərin də diqqətini cəlb etmiş və öz tərəfdarlarını tapmışdır. İFLA-nın 57-ci Baş konfransında və 1991-ci ildə Moskva sessiyasında bu məsələyə həsr olunmuş xüsusi toplantı keçirilmişdir. Hazırda bu

mötəbər beynəlxalq təşkilatın proqramında strateji planlaşdırma kitabxana işinin ən mühüm problemi kimi diqqət mərkəzindədir.

Rusiyada ilk dəfə 1996-cı ildə «Modernləşdirmə strategiyası» adlı rəhbər, idarəedici sənəd Rusiya Dövlət Kitabxanası tərəfindən işlənilmişdir. Sənədin əsas məqsədi böhran vəziyyətindən çıxmaq, kitabxananın fəaliyyətini ictimai tələblərə müvafiq olaraq bilik və informasiya tələbatının ödənilməsi səviyyəsinə gətirmək idi. Bu sənədi hazırlayan işçi qrupu strateji planlaşdırmanın geniş tətbiq edildiyi dünya ölkələrinin təcrübəsi ilə yaxından tanış olmuş, nəticələrin müqayisəli təhlilini apararaq vahid nəzəri metodologiya hazırlamışdır. Strateji planlaşdırmaya aid qəbul edilmiş həmin sənəddə bugünkü kitabxanalar üçün daha əhəmiyyətli olan üç əsas cəhət ön plana çəkilmişdir. Bunlar aşağıdakılardır: funksional idarəedici bölmələr, informasiya məhsulu və xidmət sahəsi.

Strateji planlaşdırmanın funksional quruluşu zamanı strateji departamentlərin fəaliyyət istiqamətləri - kadr siyasəti, marketinq, mühasibat və s. – əsas götürülür. Funksional strukturun hüquqi, analitik, marketinq, maliyyə, kadr və nəzarət xidməti kimi bazaları formalaşdırılmalıdır. İnformasiya məhsulu və xidmət sahəsi öz xarakterik xüsusiyyətlərinə görə istiqamətləndirilir. Bu zaman qəbul edilmiş normalara əsaslanan ciddi və dəqiq fəaliyyət təmin edilməlidir.






<u>Strateji plan</u>:

➢ çoxmərhələ i və çoxaspektli planlaşdırma prosesidir;

➢ kitabxananın inkişafa doğru start nöqtəsidir, onun inkişafının ana xəttini təşkil edən ideyalar, nəzəri mülahizələr, əsaslı faktlar məcmuyudur.

➢ kitabxananın gələcək vəziyyətinin detallaşdırılmış təsvirini deyil, onun əsas, təşkilati xüsusiyyətinin qlobal problemlərini müəyyən etməlidir;

➢ daha mükəmməl, arzu edilən bir quruma doğru uçurum üzərindən tikilmiş körpü kimidir;

➢ çevik olmalı, kitabxananın bütün fəaliyyətini tənzimləməli, həm daxildə, həm də xaricdə baş verən dəyişikliklərlə əlaqədar ən mühüm islahatları operativ şəkildə müəyyən etməlidir.

Strateji idarəetmə termini isə sənayeləşmə erasından informasiya əsrinə keçid mərhələsinin doğurduğu termin olub, ilk dəfə 1960-cı ildə Qərbdə meydana gəlmişdir. Operativ idarəetmə kitabxananın gündəlik fəaliyyətini, cari funksiyalarını əhatə edirsə, strateji planlaşdırma kitabxananın ünsiyyətdə olduğu mühitlə təmasda, dinamik balans a uzunmüddətli, perspektiv inkişafını nəzərdə tutur. Operativ idarəetmənin obyekti kitabxananın yalnız daxili fəaliyyətilə, cari işlərlə əlaqədardırsa, strateji idarəetmənin obyekti ətraf mühitdə baş verə biləcək əsas yenilikləri qabaqcadan «görə bilmək», planlaşdırılmamış dəyişikliklərə hazır olmaq, gözlənilməz hallara adaptasiya ola bilmək qabiliyyəti ilə xarakterizə olunur.

<u>Strateji idarəetmə</u> - kitabxana menecerliyinin çox mühüm sahəsi, əsas ideologiyasıdır. Bu zaman planlaşdırma-proqramlaşdırma-maliyyələşdirmə sistemi əlaqələndirilir və perspektiv planlar büdcə imkanları ilə uzlaşdırılır. Anlaşılmaz və dinamik olan ətraf mühitlə uzlaşmaq üçün kitabxanalarda strateji menecementliyin öyrənilməsi və tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Strateji menecment- idarəetmə yolu olub, daxili və xarici faktorları təhlil etməklə kitabxanaların müasir inkişaf xüsusiyyətlərinə cavab verir. Strateji idarəetmə insan potensialına əsaslanır, bütün kitabxana fəaliyyətini oxucuya yönəltməklə, çevik islahatlar aparır və bu halda öz məqsədyönlü fəaliyyətini davam etdirir.

Qeyd etmək lazımdır ki, strateji idarəetmə uzunmüddətli perspektiv planlaşdırma deyildir. Strateji idarəetmə metodunda kitabxanaların elmi nöqteyi nəzərdən idarəedilməsinin əsas prinsipi olan alternativ variantların qeydə alınmasından geniş istifadə olunur. Sis-

temli yanaşma metodu ilə şərtlənən strategiyanın bütün bölmələrə və proseslərə təsirinin dəqiq qeydiyyatı strateji idarəetmənin xarakterik xüsusiyyətidir. Bu prosesdə kitabxananın vəziyyəti ətraf mühitlə müqayisəli şəkildə öyrənilir, kollektivdə yaranacaq konfliktlər əvvəlcədən nəzərə alınır, rəhbər işçilərin və mütəxəssislərin şəxsi keyfiyyətlərinə – intellektlərinə və potensial imkanlarına qiymət verilir.

Strateji idarəetmə qaydalarının 4 üsulu məlumdur:

1. Kitabxananın hazırkı vəziyyəti və gələcək fəaliyyətinin nəticələrinə qiymət verilməsi;
2. Kitabxananın ətraf mühitlə münasibətlərinin formalaşması qaydaları, hərəkət strategiyası;
3. Kitabxanadaxili münasibətlər – təşkilati konsepsiya;
4. Gündəlik fəaliyyət qaydaları.

Kitabxanaların strateji idarə edilməsi müasir dövrdə getdikcə daha mühüm əhəmiyyət kəsb etməkdədir.

Strateji planlaşdırma zamanı istinad edilən əsas istiqamətlər kimi :

➢ Milli dəyərlər – Dövlət dili, milli kitabxana-informasiya ənənələri, kitab abidələri və onun mühafizəsi, milli informasiya mühiti və onun təhlükəsizliyi və s.

➢ Dövlət siyasəti- Kitabxana-informasiya təhsilinin dövlət proqramı, istifadəçilərin informasiyalaşdırılmasının dövlət proqramı, Milli biblioqrafiya, intellektual mülkiyyətin mühafizəsi və demokratik prinsiplər, kitabxana işinin avtomatlaşdırılması ilə bağlı nəşrlər və s.

➢ Elm; Biznes; Sənaye; İnformasiya biznesi və kitabxanalar – və s. götürülür.

Kitabxanalar üçün nəzərdə tutulan strateji plan isə aşağıdakı ünsürləri əhatə etməlidir: preambula – ümumi giriş; kitabxananın əsas fəaliyyət istiqamətinin rəsmi əsaslandırılması; kitabxananın tabe olduğu təşkilata həsr olunmuş bölmə; kitabxana fəaliyyətinə təsir edəcək xarici faktorlar; kitabxana xidmətindən istifadə edənlər; iş proseslərinin avtomatlaşdırması və avadanlıq.

Strateji plan hazırlanarkən ilk növbədə kitabxananın keçdiyi tarixi yol, onun gələcək inkişafı istiqamətlərinin aydınlaşdırılmasına imkan verəcək müasir vəziyyətinin əsas konstruktiv xüsusiyyətləri nəzərə alınmalıdır. Burada həmçinin kitabxananın bugünkü tərəf müqabilləri və onun inkişafında əməkdaşlığın əhəmiyyətli rolu



diqqət mərkəzində olmalıdır. Daha sonra bu sahədə qabaqcıl təcrübəyə malik olan mütəxəssislərlə məsləhətləşmələr aparılması, ilk növbədə hansı islahatların və hansı müddətə başa çatdırılması haqqında qərarlar qəbul edilməlidir: bütün təşkilati strukturun və ya ayrı-ayrı şöbələrin, xidmət sahələrinin, komplektləşdirmə sisteminin yenidən təşkili, əməkdaşların ixtisas səviyyəsinin artırılması və s. islahatların aparılması, və ya şöbələrin kompüterləşdirilməsi prosesinə başlanılması və bu halda avtomatlaşdırma sisteminin nəzərə alınması və müvafiq iş yerlərinin formalaşması və s. Strateji planlaşdırma zamanı ən mühüm problem inkişaf üçün maddi imkanların müəyyən edilməsi və ya tapılmasıdır. Yalnız bu istiqamətlərdə prioritetlər müəyyən edildikdən sonra cəsarətlə ideyadan kitabxananın inkişafı layihəsinə doğru addımlar atmaq olar.

Strateji planın uğurları nəticəsində əməkdaşların ümumi konsensiumunun yaranması, kitabxananın elmi-ideoloji fəaliyyətində və iş təcrübəsində sağlam, fəal qüvvələrdən geniş istifadə etməyə imkan verən əmək şəraitinin təmin olunması və s. bu kimi əsas zəminlər əldə edilir. Nəticə etibarilə strategiya:

➢ rəylərdən, proqnozlardan, mütəxəssislərin təcrübəsi və intuisiyasından istifadə edərək kitabxana fəaliyyətinin alternativ yollarını öyrənir;

➢ gələcəyi əvvəlcədən görməni, ətraf mühitdə baş verən dəyişikliklərə qarşı çevik tədbirləri təmin edir;

➢ uzunmüddətli perspektivlərə əsaslanan operativ və cari qərarlar qəbul edir;

➢ zəruri olduqda kitabxananın strukturunda dəyişiliklik aparmaqla onun fəaliyyətini nəzərdə tutulmuş məqsədlər istiqamətinə yönəldir;

➢ ən mühüm nəticələrə nail olmağın alternativ yollarının hazırlanmasına nəzarət edir.

Göründüyü kimi müasir kitabxanaların fəaliyyətində əsas məsələ strateji planın uğurla həyata keçirilməsidir. Bunun üçün isə kitabxanalara novatorlar, yeni ideyalı və bu ideyaları reallaşdırmağı bacaran istedadlı insanlar, yüksək ixtisaslı mütəxəssislər-liderlər gərəkdir. Artıq uzun illərdir ki, bir sıra kitabxanalar konservatorların, hər hansı yeniliyin qəti əleyhdarlarının sakit limanına çevrilmişdir. Lakin bu sakit limanlarda əsaslı dəyişikliklər aparmaq lazımdır. Burada texniki imkanları tətbiq etməklə kifayətlənmək olmaz. Yeniliklər bütün sahələrdə - ilk növbədə kadr siyasətində

həyata keçirilməlidir. Azərbaycan kitabxanaları yeni əsaslı dəyişikliklərə keçid dövrünü yaşayır. Artıq keçid dövrünün problemlərinin çevik həll edərək, gələcək strateji proqramların hazırlanmasına dərhal başlamaq zamanıdır və Azərbaycan kitabxanaçılığında bu istiqamətdə müvəffəqiyyətli addımlar artıq hiss olunmaqdadır.

XX əsrin kəşfi hesab olunan kompüter texnologiyası, internet imkanları gec də olsa, artıq kitabxanalarımızda tətbiq edilməyə başlanmışdır. Kompüter artıq məişətimizə, elm və mədəniyyətimizin bütün sahələrinə daxil olmuş, elektron informasiya daşıyıcıları ənənəvi kağız nəşrlərini sıxışdırıb aradan çıxarmağa səy göstərməkdədir. Kitabxana işində əsil «inqilabi» proseslər baş verməkdədir. Bu gün, təkcə oxuculara xidmət sahəsi kitabxananın istifadəçiyə yönəlmiş müxtəlif informasiya xidmətləri təqdim edən çoxpilləli bir bölməsinə çevrilir. Eyni proseslər digər ənənəvi şöbə və bölmələrdən yan keçməyərək «universallaşma», «inteqrasiya» mexanizmləri əsasında kompleks halında qarşılıqlı əlaqəli sistemin həyata keçrilməsini labüd etmişdir və bu proseslər şübhəsiz ki, çətinlik və maneələrsiz olmayacaq.

İnformasiya texnologiyalarının tətbiqi ilə bağlı problemlərin həlli istiqmətində isə strategiyanın formalaşması prosesinin iki konsepsiyası diqqəti cəlb edir. Bunlardan birincidə kitabxananın mövcud strukturu və onun fəaliyyətində informasiyanın kompüterdə işlənilməsinin rolu əsas götürülür. Bu strateji istiqamətin əsas dəyəri risk dərəcəsinin və itkilərin minimuma endirilməsidir. İkinci konsepsiya əsasən kitabxananın gələcək quruluşuna strukturuna yö-nəlmiş olur, mövcud struktur modernləşdirilir. Bu strategiya kommunikasiya sisteminin maksimum inkişafı və kitabxanadaxili yeni qarşılıqlı əlaqələri əhatə edir. Bu zaman yeni struktur daha məhsuldar işləyir, problemlərin həlli soviyysində tarazlıq yaranır. Əsas itkilər ümumi konsepsiyanın hazırlanması və bütün struktur bölmələrin təftişi mərəhələsində baş verir. Kollektivdə psixoloji gərginlik yaranır, ştat cədvəlləri dəyişir, yeni vəzifə öhdəlikləri yaranır. Son nəticələr isə müsbətdir: çevik struktur, bütün əməkdaşların maksimum məşğulluğu, yüksək ixtisas səviyyəsi təmin edilir, kompüter şəbəkəsindən istifadə olunmaqla professional biliklərin inteqrasiyası baş verir, kadrlar yeniləşir.

Təbii ki, bu yeniliklərin əleyhinə çıxan skeptiklər, konservatorlar da tapılır. Onlar İnternetin və avtomatlaşmanın əleyhinə çıxır, bunların ekoloji bəlalar, milli və mənəvi anormal vəziyyətlər



yaradacağını irəli sürür: - «İnternet bizim üçün deyil, biz kitaba öyrənmişik, kağız üzərində oxumaq daha asandır». Onlar iddia edirlər ki, kompüterin kitabxana proseslərinə tətbiqi, müxtəlif fəaliyyət proseslərinin avtomatlaşdırılması iş yerlərinin ixtisarına səbəb olacaq, işsizlik artacaq və s. Lakin həmin «sakit limanlarda» yaşayan «mütəxəssislər» başa düşmək istəmirlər ki, yazının meydana gəlməsi şifahi xalq ədəbiyyatının qarşısını ala bilmədiyi kimi, televiziyanın inkişafı kino sənətinə mane olmadığı kimi, kompüter texnologiyası və internetin imkanlarının sürətlə artması da elm və mədəniyyətin tərəqqisinə heç cür mane ola bilməz! Əksinə, indi elm və mədəniyyətin inkişafını kompütersiz təsəvvür etmək qeyri mümkündür. Kitabxana proseslərinin avtomatlaşdırılması və yeni texnologiyanın tətbiqində kompüter əvəz olunmaz imkanlara malik bir vasitədir. Bunu Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasında artıq bir ilə yaxındır ki, fəaliyyət göstərən Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin əldə etdiyi nəticələrin timsalında aydın görmək olar.

Ümumiyyətlə, Azərbaycan MEA kitabxanalarının fondları beynəlxalq informasiya mübadiləsi və milli informasiya ehtiyatlarının əsas bazasıdır. Ona görə də bu baza əsasında vahid Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin (AKİS) yaradılması, onun informasiyalaşdırlmasının, liqvistik təminatının standartlaşdırılması əsas vəzifələrdən biridir. Bu, akademiyanın kitabxanalar sisitemində kitabxana-informasiya proeslərinin tam və ya qismən avtomatlaşdırılmasını təmin edən informasyia, riyazi-proqram, texniki və təşkilat vasitələri kompleksinin formalaşmasını tələb edən zəruri bir prosesdir. Son illər Azərbaycanın, o cümlədən MEA MEK-nın professional kitabxana cəmiyyəti o qədər özünəməxsus, çoxsahəli informasiyalaşdırma prosesini genişləndirərək inkişafa başlamışdır ki, onların professional problemlərinin müxtəlifliyi bəzən anlaşılmaz qarşılanır. Avtomatlaşdırma sahəsində Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası özünün ilk kövrək addımlarını hələ 1974-cü ildə Məlumatın Seçilib Paylanması sisteminin tətbiqi ilə atmışdır. Bu sistem 1975-ci ildə elektron hesablama maşınlarında «BESM-6» bazasında həyata keçirilməyə başlamışdı. Həmin ildə kitabxana Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Tətbiqi Riyaziyyat İnstitutunda təşkil olunmuş «Elmi tədqiqatlara avtomatlaşdırılmış informasiya xidməti» proqramına daxil edilmişdi. Kitabxananın əməkdaşları Kibernetika institutunda təcrübə keçərək,

«BESM-6» tətbiqindən oxuçulara göstərilən elmi-informasiya xidmətində istifadə etməyə başlamışdılar. Lakin əfsuslar olsun ki, həmin xidmət üsulu sonralar özünün ənənəvi fəaliyyət sürətini itirərək tənəzzülə uğramağa başlamışdır.

Hər hansı inkişaf strategiyası real imkanlara və qarşıya qoyulan məqsədlərin reallaşması isqamətində istifadə olunan optimal variantlara əsaslanır.

Ona görə də bütün bunları nəzərə alan Azərbaycan MEA MEK rəhbərliyinin keçirdiyi işgüzar görüşlər, təşkil etdiyi seminar-müşavirələr, tədris kursları və məsələhətələşmələrin intellektual nəticəsi kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı konsepsiyasının hazırlanmasına dair qərarın qəbul edilməsi oldu. Bu istiqamətdə isə əsas:

- idarəetmə sisteminin yenidən təşkili,
- yeni informasiya texnologiyalarının tətbiqi və kitabxananın fondların yerləşdirilməsi və mühafizəsinin tam təmin edilməsinin də daxil olduğu prioritetet inkişaf yollarının müəyyən edilməsi,
- Maddi imkanlar və kadr potensialının yenidən təhlil edilərək paylaşdırılması,
- Müsbət tərəf müqabili imici yaratmaqla müxtəlif növ əməkdaşlıq formaları bazasında investorların, donor təşkilatların diqqətinin cəlb edilməsi kimi vəzifələr ön plana çəkildi.

2000-ci ildə kitabxanada Soros Fondu ACİ qrantı ilə alınmış kompüter texnologiyalarının tətbiqi və İnternet əlaqəsinin yaradılması ilə yeni mərhələ - fəaliyyət strategiyasının yeni istiqamətdə formalaşdırılması prosesi başlanmış oldu. İlk kompüterlərin yenicə başladığı günlərdə «Niyə kompüterdə elektron kataloq yaratmırsınız?; Nə üçün kompüter kurslarına eyni mütəxəssislər göndərilir?; Niyə kompüterlər əməkdaşlara paylanmır» və Kompüterlər nəyə gərəkdir? kimi suallarla qarşılanıldı. Bu ilkin «cəhalət» pərdəsini parçalayıb dağıtmaq üçün kollektivdə sağlam qüvvələr, işgüzar adamlar tapıldı. Məsələ onda idi ki, kitabxananın əvvəlki rəhbərliyi respublikada kitabxana işi sahəsində baş verən bir sıra yeniliklərə laqeyd yanaşmış, vaxtında kollektivi səfərbər edə bilməmiş, nəticədə isə hər şeyi «0»-dan heç nəsiz başlamaq lazım gəlmişdi.

1998-2000-ci illər, demək olar ki, MEK-da yeniliyə, tərəqqiyə doğru əsaslı dönüş illəri oldu. Tezliklə, ardıcıl olaraq konfranslar, seminarlar, tədris kursları, mütəşəkkil yığıncaqlar, dəyirmi stollar keçirilərək dünya informasiya-kitabxana mühitində baş verən



yeniliklər əməkdaşlara çatdırıldı. Soros Fondu ACİ-nun qrantı ilə 2000-ci ildə kitabxanamıza gətirilmiş ilk kompüterlər dəsti ilə lokal şəbəkə qurularaq İnternet əlaqəsi yaradıldı. Əvvəlcə, yalnız oxuculara İnternet xidməti zalı kimi fəaliyyətə başlayan bu qurum, tədricən geniş fəaliyyətə başladı və az sonra Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinə çevrildi. Eyni zamanda, informasiyalaşdırma prosesinin ilkin mərhələsində yeni əmək fəaliyyəti istiqamətlərinin etikası təşəkkül tapmağa başladı.

2001-ci ildə MEK-nın kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsi 1323 oxucuya İnternetlə informasiya axtarışı xidməti göstərmiş, elmi mövzularda təqdim edilən 27 adda sorğuya – «Şərq nağılları» (121) «Orta əsr ərəb mənbələri» (55), «Qafqaz tarixi» (89), «Maya göbələkləri» (73), «Etnotoponimika» (36), «Yaxın qərb və Avropa folkloru» (44), «Qədim türk tayfaları» (64), «Ekologiyaya dair beynəlxalq sənədlər» (4), «Nobel mükafatı laureatları» (şərq ölkələri üzrə) (16), «Separatizm» /11/, «Estoniya-Azərbaycan ədəbi əlaqələri» (13), «Erməni terrorizmi» (7), «Seysmiologiya» (31), «Qafqaz müharibələri» (53) və s. - müvafiq axtarışlar aparılaraq 17 800 mənbə haqqında biblioqrafik məlumat verilmişdir.

Rusiyanın, Özbəkistanın, Ukraynanın, Türkiyənin və başqa ölkələrin kitabxanalarından alınmış sorğulara əsasən axtarışlar aparılmış və onlara müsbət cavab verilmişdir. Göründüyü kimi, ilkin nəticələr heç də pis deyil.

Lakin Soros fondunun qrantı ilə alınmış kompüterlərin şəbəkəsinin qurulması, İnternet əlaqəsinin təşkili, kadrların müəyyən hazırlıq mərhəsindən keçməsi prosesləri heç də asanlıqla başa gəlməmişdir. Təkcə kompüter avadanlığının istifadəsinin təşkili ilə əlaqədar bilikləri həm oxuculara, həm də kitabxanaçılara çatdırmaq xüsusi bacarıq, düşünülmüş siyasət tələb edirdi. İlkin olaraq kompüter biliklərinin təbliği, kollektivin yeni texnologiyalarla təmasını təşkil etməyin özü də kitabxanamızın strateji planlarının ilkin mərhələsinin atributları oldu. İlk sistemli fəaliyyət istiqamətinin nəticələri isə ingilis dili, kompüter biliklərin öyrədilməsi kurslarının təşkili, İnternetdə axtarış metodikasını mənimsəmiş kadların hazırlanması, yeni texnologiyaların tətbiqini qısqanclıqla qəbul edən işçi kontingentində marağın oyanması, yaşlı nəslin nümayəndələrinin də fəal olaraq bu proseslərə qoşulması, informasiya texnologiyaları əldə etmək üçün qrant verən təşkilatlara layihələrin yazılmasına həvəs və marağın artması, ən əhəmiyyətlisi gözəl təşəbbüsün və

gərgin səyin nəticəsi olan «Azərbaycan ədəbiyyatı antologiyası» elektron kitabxanasının (müəllifləri: S.Kolarova, Ə.Əfəndiyev). MEK-nın Veb-saytının İnternetə çıxması oldu. İndi biz fəxr edirik ki, Azərbaycanda latın qrafikalı ilk elektron kitabxananın və konservasiya saytı olan «Azərbaycan ədəbiyyatı antologiyası» elektron kitabxanasının 9-cu Beynəlxalq «Krım-2002» konfransında «Elektron kitabxanalar» bölməsinin və «Türk dünyası kitabxanaları: qarşılıqlı münasibət və əməkdaşlıq» iclaslarında təqdimatı böyük maraqla qarşılandı. Eyni zamanda, fərəhli haldır ki, Soros Fondu ACİ-nun qrantına layiq görülmüş «Nadir nəşrlərin mühafizə və konservasiyası» (müəllif nadir nəşrlər şöbəsinin müdiri G.Xələfova), «Mühafizə və konservasiya üzrə treninq-mərkəz» (müəllif kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri Z.Əliyeva). «Qafqazın yaddaşı» (müəllif AMEA MEK-nın direktoru, f.e.n. Ə.Əfəndiyev) kimi layihələrin müəllifləri məhz bizim kitabxananın əməkdaşlarıdır.

Kadr hazırlığı məsələlərinə son illər xüsusi diqqətin yetirilməsi nəticəsində kitabxanamızın bir sıra əməkdaşları Soros fondu ACİ-nun amerikalı professor Robert Hayesin keçirdiyi «Kitabxana-informasiya xidmətlərinin avtomatlaşdırılması: təhlil və layihələşdirmə», Gürcüstanın İnformasiya Mütəxəsisləri Assosiasiyasının «Qafqaz» regional ixtisasartırma kursu, ABŞ Tədris Mərkəzinin M.F.Axundov adına Dövlət Kitabxanası ilə birgə təşkil etdiyi «Müasir kitabxanalar və onların vəzifələri», Soros Fondu ACİ-nun «Veb dizaynın əsasları», «Veb səhifə üçün qrafika», «HTML əsasları», «Adobe Photoshop», «Macromedia Freahand» və s. kurslarının sertifikatlarını almış oldu. Kitabxananın iki əməkdaşı «Krım-2001», «Krım–2002» Beynəlxalq konfransında, bir nəfər əməkdaş Moskvada «Kitabxana fondlarının mühafizəsi» mövzusunda, digər bir əməkdaş isə «Bərpa təcrübəsi» adlı Beynəlxalq Rusiya-Avstriya seminarında (Soros Fondu xətti ilə) iştirak etdi.

Respublikada beynəlxalq təşkilatlar İFLA, Soros Fondu, ABŞ səfirliyinin Kitabxanaçılar üçün Tədris və İnformasiya Mərkəzi, M.F.Axundov adına Dövlət Kitabxanası və Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası (AKİİA) xətti ilə təşkil olunmuş «MARS formatının qəbul olunması», «Avtomatlaşdırılmış kitabxanalarda avtoritet fayllar», «RUSMARS-ın inkişaf yolları», «UNIMARS» və s. seminarlarda kitabxanaçılarımız dünya kitabxana-informasiya təcrübəsi, kompüterləşmiş kitabxanaların fəaliyyəti



haqqında zəruri məlumatlar əldə etmiş oldular. Eyni zamanda, MEK-nın özündə bir sıra əhəmiyyətli sertifikatlara layiq görülmüşü əməkdaşların rəhbərliyi ilə 150-dən artıq kitabxanaçının iştirak etdiyi 60 saatlıq «Elm və mədəniyyətin informasiyalaşdırılması», 40 saatlıq «İnternet və elektron rabitə», 55 saatlıq «Kitabxana və arxiv sənədlərinin mühafizə və konservasiyası» və s. kompleks kurslar keçirildi. Məhz bu kurslarda akademiya sistemi ndəki kitabxanalar-şəbəkəsinin Avtomatlaşdırılmış İnteqrasiyalı İnformasiya Sisteminin (AİİS) yaradılmasını nəzərdə tutan strateji proqramı və bununla bağlı layihə və normativ sənədlərin hazırlanmasına dair müzakirələr də aparıldı. Bütün bunlar kitabxana rəhbərliyinin təşkil etdiyi ardıcıl və sistemli şəkildə planlaşdırılmış fəaliyyətinin nəticəsi idi. Rəhbərlik kollektivin təşəbbüskar, potensial imkanlara malik olan liderlərini müəyyən edə bilmiş, onların qarşısına çıxan problemlərin həllində, psixoloji baryerlərin aradan qaldırılmasında yardımçı olmuş, «yuxarılardan» əmr gözləməyərək həlledici qərarlar qəbul etməkdən çəkinməmişdir. Onu da qeyd edək ki, bu addımların atılması rəhbərliyin özü üçün də bir sınaq mərhələsi olmaq nöqteyi-nəzərindən heç də asan başa gəlməmişdir.

Kitabxanalarda struktur islahatın keçirilməsi və yeni şöbələrin, vəzifə vahidlərinin yaradılması, təzə iş yerlərində çalışacaq mütəxəssis kontingentinin formalaşması təxirəsalınmaz vəzifələrdəndir, çünki ümumi inkişafın müsbət nəticələri bilavasitə çevik qərarlar və islahatlarla şərtlənir. Kollektivi əsaslı islahatlara yönəltmək üçün yeni şöbələrin təşəkkülü MEK-nın da qarşısında həllini tələb edən bir vəzifə kimi durur. Bunun üçün ilkin olaraq zəruri hesab edilən «Nadir nəşrlər», «Elmi-kütləvi informasiya», «Mühafizə və konservasiya», «Nəşriyyat», «Kitabxana proseslərinin avtomatlaşdırılması» və s. bu kimi şöbələrin təşkili bu vəzifələrlə bilavasitə əlaqədar idi. Sınaq müddətini başa vurmuş bu şöbələr hazırda müvəffəqiyyətlə işini davam etdirməkdədir. Onların sırasında hələlik respublikamızda analoqu olmayan və ilkin təcrübə bazası kimi fəaliyyət göstərən «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi getdikcə təkmilləşməklə yanaşı, eyni zamanda proqramçı mütəxəssislərin işə cəlb edilməsini zəruri edir. Kitabxananın gələcək inkişaf planında bu istiqamətdə müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Əslində kitabxana proseslərinin avtomatlaşdırılması informasiyalaşdırmanın bir sahəsi olub, hələlik yalnız texniki imkan və vasi-

tələrdən istifadəni əhatə edir. İnformasiyalaşdırma prosesində kitabxanalar getdikcə daha çox informasiya texnologiyaları layihələrinin hazırlanması üzrə kooperasiyalara üstünlük verir. Ona görə ki, elektron şəbəkələrin mövcudluğu bir-neçə kitabxananın birgə layihələr hazırlaması üçün gözəl imkanlar açır. Kitabxanalar belə sistemli layihələr hazırlamaqla hər zaman gözlənilməz, çətin problemləri qabaqcadan həll etmiş olur. Bu zaman hər bir kitabxana:

- daim dəyişikliklərə hazır olur;
- tələbatı qabaqcadan görür;
- yenilik etmək üçün hər hansı imkandan operativ şəkildə istifadə edir;
- açıq informasiya sistemlərinin hazırlanmasında iştirak edir;
- avtomatlaşdırılmış, yüksək sürətli informasiya şəbəkəsini strukturunu yaradır;
- informasiya texnologiyaları ilə işləməyə hazır olur, bunun üçün işçi heyət formalaşdırır;
- həm qlobal, həm də lokal mənada informasiya mübadiləsinin milli miqyasını təmin edir;
- bütün unikal informasiya mənbələrini maşınla oxunan formata köçürür;
- dünya miqyasında informasiya kommunikasiyasına çıxmaq üçün öz unikal nəşr kolleksiyalarından start nöqtəsi kimi istifadə edir.

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının gələcək inkişaf istiqamətini müəyyən edəcək strateji proqramın hazırlanmasına təşəbbüs göstərildikdə, ilk növbədə, MEK-nın uzun illər Akademiya sistemindəki Elmi-Tədqiqat İnstitutlarının kitabxanaları üçün mərkəzləşdirilmiş metodiki mərkəz funksiyasını icra etməsi nəzərə alınmışdır. Ona görə də MEK-nın nəzdində fəaliyyət göstərən Treninq Mərkəzdə bütün akademiya kitabxanaçılarını əhatə edərək, mərhələli şəkildə kompleks kurslar keçirilir. Sevindirici haldır ki, həmin kurslarda iştirak edib, yeni informasiya texnologiyaları ilə tanış olan ETİ kitabxanaçıları böyük həvəslə yenilikləri mənimsəyir, onları yerələrdə tətbiq edir, sənədlərin elektron mübadiləsi, İnternetdə axtarış, bərpa və cildləmə işinin təşkili və s. sahələrdə yeni təşəbbüslər göstərirlər.

Dünyanın inkişaf etmiş müxtəlif ölkələrinin kitabxana işi sahəsində tətbiq edilən yeni üsul və texnologiyalar ilə yaxından tanışlıq isə yalnız keçmiş sovet rejiminin süqutundan sonra mümkün ol-



muşdur. Bu sahədə beynəlxalq təşkilatların humanitar missiyasını xüsusilə qeyd etmək lazımdır. ABŞ səfirliyinin nəzdindəki «Kitabxanaçılar üçün Tədris və İnformasiya Mərkəzi»inin fəaliyyəti, Soros fondunun xeyirxah xidmətləri kitabxana işi sahəsində durğunluğun aradan qaldırılmasını təmin etmiş, canlanmalara səbəb olmuşdur.

Məlum olduğu kimi Soros fondu Açıq Cəmiyyət institutunun bilavasitə təşəbbüsü və yaxından köməyi ilə təşkil etdiyi tədbirlər nəticəsində, ümumiyyətlə, Azərbaycan kitabxanaçılığında yeni fəaliyyət sahələrinin yaranması artıq realdır. Mərkəzləşdirilmiş inteqrasiyalı kitabxana şəbəkəsinin təşkili də hər şeydən əvvəl müasir texnologiyaların tətbiq olunmasını tələb edir. Əlbəttə, ilk növbədə respublikada vahid milli biblioqrafik təsvir qaydalarının yaranması, Beynəlxalq standartların qəbulu kimi qlobal məsələlərin həlli nəzərə alınmalıdır. Aydındır ki, hər hansı inteqrasiya prosesi ciddi standart qaydalarına riayət olunmasını tələb edir. Bu hər bir kitabxananın malik olduğu informasiya potensialının yenidən nəzərdən keçirilməsini tələb edir və bu halda şəbəkə sistemlərinin təşkili daha da aktual məsələyə çevrilir. EA MEK mərkəzi orqan olmaq etibarilə bu funksiyanın icrasını öz üzərinə götürərərək, sənədlərin təsviri məsələlərində həm milli, həm beynəlxalq standartlara ciddi əməl olunmasını tənzimləməli, paylanma sistemi arxitektonikasını layihələşdirməli, açıq informasiya sistemlərinə çıxışın mərkəzi funksiyasını icra etməlidir. Bütün bunlar isə kitabxananın strateji planında nəzərdə tutulmuş vacib və mühüm məsələlərdir.

Kitabxana şəbəkələrinin avtomatlaşdırması prosesində kitabxanaların birliklər formasında fəaliyyət göstərməsi qarşıda duran mürəkkəb vəzifələri daha asanlıqla, qarşılıqlı əməkdaşlıq şəraitində həll edilməsinə imkan yaradır. Bu birliklərin əsasında iqtisadi səmərəlilik, əmək bölgüsü, kollektiv istifadə nəticələri durur. Qərb dünyası belə birlik nümunələri ilə zəngindir. Qarşılıqlı əməkdaşlığın, kitabxanalarda birgə fəaliyyətin ilk nəticəsi olan ümumi birləşmiş, toplu elektron kataloqlar gələcək inkişaf və tərəqqinin əsasını qoymuş olur. Elektron informasiya şəbəkələrinin reallığı isə belə mərkəzləşmiş sistemlərin səmərəli və əlverişli fəaliyyətini təmin edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Elmi-Sahəvi Kitabxanasının nümunəvi Əsasnaməsinin təsdiq edilməsi haqqında, 6 mart 2000-ci il tarixli, 30 saylı qərarında deyilir: Elmi-Sahəvi

Kitabxana elm sahəsinə və oxucu qruplarına görə ixtisaslaşdırılan, milli, xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisəsidir, öz profili üzrə kitabxanalararası abonement və metodik mərkəz funksiyasının yerinə yetirir. (Maddə 1.1); elmi-metodik mərkəz kimi rəhbərlik etdiyi kitabxana şəbəkəsinin nəşriyyat fəaliyyətini əlaqələndirir və ümumi planını tərtib edir (Maddə4.1.).

Əsasnamənin maddələrinə əsasən MEA Mərkəzi Elmi Kitabxanası rəhbərlik etdiyi daxili sistemin kitabxanalarının fəaliyyətini istiqamətləndirmək məqsədi ilə məlumat informasiya bankları hazırlamaq, kitabxana şəbəkəsi əməkdaşlarının ixtisas səviyyəsinin artırılması üçün kurslar təşkil etmək, şəbəkənin strukturunu dəyişmək və təkmilləşdirmək üçün təkliflər vermək, sistem daxilində qabaqcıl kitabxana təcrübəsini öyrənmək və yaymaq, şəbəkə üzrə informasiya fəaliyyətinin hüquqi-normativ bazasını formalaşdırmaq kimi vəzifələrin məsuliyyətini də öz üzərinə götürərək bu sahədə tədqiqat işləri aparır.

Lakin nəzərə almaq lazımdır ki, EA sistemindəki kitabxanaların vahid avtomatlaşdırılmış informasiya şəbəkəsinin yaradılması, onların sovet rejiminin doğurduğu inzibati-amirlik prinsipləri ilə birləşdirilməsi kimi başa düşülməməlidir. Bu, kitabxanaların malik olduğu elmi-informasiya bazasının inteqrasiyalı avtomatlaşdırılmış sistemidir və həmin sistem iştirakçıları ilə MEK arasındakı münasibətlər qarşılıqlı anlaşma, iş prinsiplərinin məsləhətli bölgüsü, bərabər səviyyədə müqavilələr bağlamaqla tənzimlənir. Hər bir kitabxana öz elmi-tədqiqatçı mühitinin informasiya bazasının sərbəst yaradır və onun əsas idarəedici orqanı olaraq qalır və hər bir kitabxana ilə bağlanan müqavilələr biri digərindən fərqlənə bilər. Müqavilə münasibətləri kitabxananın malik olduğu texniki imkanlardan, kadr potensialından, kitab fondlarının həcmi və elmi nəzmunundan və s. asılı olaraq müxtəlif ola bilər. Onu da qeyd etmək lazımdır ki, hər bir şəbəkə kitabxanası özlüyündə spesifik elmi xüsusiyyətlərə malik mürəkkəb quruluşlu, unikal bir obyektdir. Onların avtomatlaşdırılmış inteqrasiyalı şəbəkəsinin (AİS) yaradılması pərakəndəliyə deyil, vahid elmi, texniki konsepsiyaya əsaslanmalıdır. Hər bir elmi tədqiqat institutunda proqramçı mütəxəssis tapıla bilər, lakin bu lisenziya almamış hər hansı proqramın instalyasiyası və adaptasiyası, ancaq lokal məsələlərin həlli ilə nəticələnə bilər. Mərkəzlə razılaşdırılma-



mış, əlaqələndirilməmiş belə hallar vahid səmərəli informasiya mühitinin formalaşması prinsiplərinə cavab vermir.

Mərkəzləşdirilmiş sistemin təşəkkül edəcəyi halda isə MEK yalnız Universal inteqrasiyalı informasiya məlumat bankının mərkəzi, kitabxana işi sahəsində avtomatlaşdırmanın tətbiqi üzrə inzibati orqan, metodiki mərkəz kimi funksiyaların icrasına məsuliyyət daşıyacaq və bu halda hər bir kitabxana digər əlaqədar informasiya müəssisələri ilə müstəqil və ya inzibati mərkəz vasitəsilə mübadilə apara biləcəkdir.

Aşağıda qeyd edilən xüsusiyyətlər isə EA sistemi kitabxanalarının elektron şəbəkədə mərkəzləşmiş qaydada fəaliyyət strategiyasının, gələcək avtomatlaşdırma layihələrinin hazırlanmasına əsas verir:

1. Azərbaycan elminin tarixi məsələsində bağlılıq;
2. Eyni idarə tabeçiliyində olması;
3. Mərkəzləşmə prinsiplərinin tarixən ənənəvi mövcudluğu;
4. Xarakterik xüsusiyyətlər - xidmət sahələrinin elmin ümumi məqsədlərə istiqamətləndirilməsi;
5. Sahəvilik prinsipləri və buna uyğun olaraq kompleklləşdirmə təmayülü;
6. Digər kitabxana sistemlərindən fərqi olaraq elmi-tədqiqat işinə xidmət oxucu kontingentinin əsasən elmi işçilər olması;
7. Kitabxana fondlarında xarici elmi nəşrlərin üstünlük təşkil etməsi;
8. Status eyniliyi, depozitar mühafizə və s. məsələlərin ümumiliyi;
9. Yeni texnologiyaların tətbiqi problemlərinin birgə həlli və onun səmərəliliyi;
10. Əməkdaşların ixtisas səviyyəsinin təmin edilməsi;
11. Maliyyə məsələlərinin həllində ümumi mövqe;
12. Avtomatlaşdırma məsələlərinə universal yanaşma.

Akademiya sistemində fəaliyyət göstərən kitabxanaların avtomatlaşdırılmış inteqrasiyalı informasiya şəbəkəsinin yaradılması sahəsində qarşıda duran əsas vəzifələr:

➢ Elmin kompüterləşdirilmiş milli məlumat informasiya şəbəkəsinin təşkili üçün proqramın hazırlanması;

➢ Kitabxana şəbəkəsinin avtomatlaşdırılması üzrə metodik mərkəzin və Akademiyanın nəşrlərinin tam elektron kataloqunun yaradılması;

➢Elmi-texniki şuranın yaranması;

➢EA kitabxanalar şəbəkəsinin avtomatlaşdırılması layihəsinin hazırlanması;

➢EA-sı üzrə Universal Məlumat bankının yaradılması; bunun üçün hazır layihələrdən, texniki proqramlardan və ümumü imkanlardan istifadə edilməsi;

➢Layihənin iştirakçısı olacaq kitabxanaların elektron kataloqunun aparılması, ondan istifadənin texnoloji cəhətdən modernləşdirilməsi;

➢Layihə iştirakçılarının kommunikasiya imkanlarının İnternetdə təmin edilməsi;

➢Oxuçu kontingenti üçün vahid qeydiyyat proqramının hazırlanması.

Həmin vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etmək məqsədilə ilk növbədə şəbəkə fondlarının məzmunu dərindən öyrənilməli, müxtəlif sahələrinin statistik təhlili verilməli, tədqiqat müəssisəsinin elmi problemləri müəyyən edilməli, layihə və sifarişlər haqqında informasiya ekspertizası həyata keçirilməli, proqram lahihəsinin hazırlanması üçün statistik təhlil aparılmalı, bunun üçün mütəxəssislər qrupu müəyyən edilməlidir.

Kitabxanaların bu gün üzləşdiyi ən çətin məsələlərdən biri də maliyyə problemidir. Maliyyələşdirmə mənbələri olmadan yeni layihələrin, strateji proqramların reallaşdırılması qeyri mümkündür. Bu gün kitabxanalara öz yardım əlini uzadan Soros fondu, Avroasiya fondu və digər fondlar mövcuddur. Kitabxanalar bu fondların imkanlarından bacarıqla istifadə etməlidir. MEK öz növbəsində Soros fondunun layihə üzrə yardım olaraq ayırdığı texniki avadanlıqdan, kompüterlərdən səmərəli istifadə etmək üçün aşağıdakı tədbirləri həyata keçirməyi nəzərdə tutur:

➢ İnformasiya-məlumat bazasının proqramlaşdırılması

➢ Avtomatlaşdırılmış inteqrasiyalı kitabxana sisteminin əldə edilməsi;

➢ Kitabxananın strukturunda dəyişikliklər aparmaqla yeni iş yerlərinin və bölmələrinin təşkili;

➢ Oxuçuların İnternetdən sərbəst istifadəsini təşkil etmək;

➢ Akademiya kitabxanalarının informasiya banklarına qoşulması üçün tədbirlərin həyata keçirilməsi;

➢ Oxuçulara məlumat-informasiya xidmətində kompüterlərdən istifadə edilməsinin təşkili; və s.



Lakin akademiya kitabxanalarına yardım məsələsi işin yalnız bir tərəfidir və əslində avtomatlaşdırılmış şəbəkənin yaranması üçün geniş terminal əhatəsi gərəkdir. Həm də bu fondların təsdiq etdiyi layihələrin tətbiq müddəti keçdikdən sonra yeni maliyyələşmə mənbələri axtarmaq lazım gələcəkdir. Bu məsələlərin müsbət həllinə nail olmaq üçün tələb və təkliflər paketi hazırlanaraq dövlət səviyyəsində təqdim edilməlidir.

Digər bir mühüm məsələ avtomatlaşdırma üçün hansı sistemin seçilməsidir. Əgər kitabxanalarda avtomatlaşdırma üzrə mütəxəssisləri yox dərəcəsindədirsə, onda hər hansı avtomatlaşdırma sistemini necə əldə etməli? Təqribi hesablamalara görə, dünya bazarında hazır sistemin ən ucuzu 50 min dollara başa gəlir. Kitabxana öz sistemini yaratmaq istəyirsə texnoloqlardan, proqramçılardan, linqvistlərdən, standartlar üzrə mütəxəssislərndən ibarət geniş ştata malik olmalıdır. Respublikamızda belə mütəxəssislər var, onları yalnız tapmaq və işi təşkil etmək gərəkdir.

Qeyd etmək lazımdır ki, alınacaq və tətbiq ediləcək hər bir sistem 4 cəhətlə səciyyələnməlidir:

1. Dövlət dili. Sistemin tərcüməsinin respublikamızın kitabxana-informasiya mütəxəssisləri tərəfindən həyata keçirilməsi;

2. Milli kataloqlaşdırma qaydalarının hazırlanması;

3. Avropa standartlarına uyadı milli və beynalxalq kommunikasiya formatlarının hazırlanması;

4. Respublikada sistemin istifadə ediləcək dayaq nöqtələrin olması;

Əgər sistem bütün bu tələblərə cavab verirsə, onu əldə etmək, tətbiqi haqqında fikirləşməyə dəyər. Rusiya Federasiyasında belə sistemlərin müxtəlif variantları hazırlanır və Rusiya prezidentinin göstərişi ilə yerli istehsalçılara üstünlük verildiyi üçün onların istifadə meydanı da getdikcə genişdir.

Həll olunması zəruri olan digər məsələ isə bütün sadaladığımız proseslərin - kitabxana və şəbəkə strukturunun yenidən formalaşdırılması, ştat cədvəllərinin dəyişməsi, mütəxəssislər qrupunun yaradılması və kadrların ixtisas təhsillərini təkmiləşdirilməsi, kitabxanadan istifadə qaydalarının yenidən işlənilməsi və s. olmadan həyata keçirilməsinin qeyri-mümkünlüyüdür. Bütün qeyd edilən bu problemlərin həlli yolları strateji planlaşdırmada nəzərə alınmalıdır.

Strateji planlaşdırma müasir dövrdə Azərbaycan kitabxanaçılığı üçün reallaşması labüd olan vacib bir prosesdir və onun uğurla

həyata keçirilməsi üçün isə ilk növbədə kitabxanaların ənənəvi strukturunda, fəaliyyət sahələrində əsaslı dəyişikliklər aparılmasını tələb edir. Beləliklə də strateji planlaşdırma mərhələlərinin Azərbaycan kitabxanaçılığının təbii proseslərinə çevrilməsi elm və mədəniyyətin, ümumiyyətlə, cəmiyyətin informasiyalaşdırılmasına xidmətin ən mühüm nəticəsi ola bilər. Dünyanın bir sıra universal elmi fondlara malik olan kitabxanaları üçün nəzərdə tutulan nümunəvi struktur göstəricilərini təhlil edərək, yeni struktur quruluşu və fəaliyyət proqramı müəyyən etmək mümkündür. Cəmiyyətimizin demokratik əsaslarla inkişafı proseslərində kitabxanalar öz imkanlarından və onlara verilən səlahiyyətlərdən səmərəli istifadə etməlidir.

*Ədəbiyyat*


*1. Azərbaycan Respublikası Elmi Sahəvi Kitabxanasının nümunəvi Əsasnaməsi /Azərbaycan Nazirlər Kabinetinin 6 mart 2000-ci il tarixli 30 saylı qərarı/.*

*2. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu //Azərbaycan. -1999. - 14 mart.*

*3. Алексеев И.Г, Глушановский А.В., Захаров А.Г., Каленов Н.Е. Роль библиотек Российской Академии Наук в информационном обеспечении ученых в современных условиях //Информационно-библиотечное обеспечение науки. Материалы конференции. - Москва, 2000. – с. 43-50.*

*4. Дворкина М.Я. Библиотечное обслуживание: новая реальность. – Москва: Изд-во МГУ, 2000.*

*5. Жадько Н.В. Управление некоммерческими проектами для эффективных перемен в библиотеке. Материалы к семинару. (По программе «Культура» ИОО Москва). - Перм, 1999.*

*6. Əliyeva Z.İ. Kitabxana XXI yüzilliyin astanasında //Ədəbiyyat qəzeti. – 2000. - 9 iyun.*

*7. Информатика. /Под ред проф. Н.В.Макаровой. - Москва: Финансы и статистика, 2001. - С.17-28*

*8. Куштанина Л.И. Стратегический план-ведущий инструмент управления библиотекой //Научно-технические библиотеки. – 1998. - №3. - С.34-35*

*9. Məmmədov F. Demokratik dövlətdə mədəniyyətin inkişafının idarə olunması // « Elm qəzeti». – 2002. -18 noyabr*

*10. Перспективное планирование: актуализация проблемы //Библиотековедение. – 1996. - №2. - С.20-28*

*11. Петров З.В., Монос В.П. Информация и научная коммуникация //Информационный бюллетень. 1998.- №2 http: //www.nbuv.gov.иа/libraru/bu13.html*

*12. Rüstəmov Ə.M., Hüseynov E.M. İnformatika. İzahlı terminlər lüğəti. - Bakı, 1996.*

*13. Сатун В. Стратегическое планирование - цель и средство // http://finmanagement.ru/persona/persona006.htm*

*14. Суслова И.М. Теоретико-методологические основы формирования различных типов менеджмента в современном библиотековедении //Библиотеки и ассоциации в меняющемся мире: новые технологии и новые формы сотрудничества. (Материалы 9-й Международной конференции «Крым-2001»). – Т.2. - с. 758-762*

*15. Федоров Е.В. Российская Государственная библиотека: от тактики выживания к стратегии развития //Информационно-библиотечное обеспечение науки. Проблема интеграции информационных ресурсов. – М, 2000. - С. 17-22*

*16. Штукарева С.В. Маркетинг и фандрайзинг в системе управления библиотекой //Библиотеки и ассоциации в меняющемся мире: новые технологии и новые формы сотрудничества. (Материалы 9-й Международной конференции «Крым-2002»). - Т.2. - С. 683-689.*

**Sevda XƏLƏFOVA,**
*Kitabxana fondu və kataloqların təşkili kafedrasının müəllimi*

# SİSTEMLİ KATALOQDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

Azərbaycanın müstəqilliyi şəraitində, xalqımızın elmi-texniki, mədəni, ideya-siyasi səviyyəsinin yüksəldiyi və oxucu miqdarının sürətlə artdığı bir dövrdə kitabxana fondlarından daha səmərəli istifadə edilməsi məsələsi mühüm problmelərdən biri kimi qarşıda durur. Kitab fondlarından daha səmərəli istifadə edilməsi sistemli kataloqlardan, onların keyfiyyətindən çox asılıdır.

Kitabxanaların oxucuların tələblərini yüksək səviyyədə ödəməyə başlaması sistemli kataloqun daha məqsədəuyğun və keyfiyyətli formalaşmasında özünü göstərir.

Son zamanlar cəmiyyətdə baş verən dəyişikliklər göstərir ki, informasiya vasitələri hadisələri dərindən təhlil etməli, ciddi problemlər qaldırmalı, onların həll edilməsi yollarını təklif etməli, öz məzmunluğu, operativliyi, informasiya zənginliyi ilə oxucuları inandırmalıdır. Bu xarakterik xüsusiyyətləri məlumat vasitəsi kimi sistemli kataloqlara da aid etmək olar.

Əvvəllər M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında hazırlanmış metodik tövsiyələrin əsas məqsədi kitabxanaçılara sistemli kataloqun əməli fəaliyyətinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuşdur. Bu işin nəticələri oxuculara xidmət işinin keyfiyyətinin və effektliyinin yüksəlməsinə təsir göstərməkdir.

Son dövrdə kitabxanada fondun məzmununu açan və əsas aparat funksiyasını yerinə yetirən sistemli kataloqların keyfiyyət problemi ön sıraya çəkilmişdir. Məlumdur ki, keyfiyyəti qiymətləndirmədən kataloqların funksional effektliyi problemini həll etmək mümkün deyil. Bu məqsədlə metodik tövsiyələrin buraxılması, sonra isə onların funksional effektliyinin qiymətləndirilməsi məqsədəuyğundur.



Sistemli kataloqun keyfiyyətinin müəyyənləşdirilməsində əsas məqsəd verilmiş kataloqun keyfiyyət vəziyyəti haqqında məlumatlar əldə etməkdir. Adətən kataloqun keyfiyyəti kataloqun işlədilməsi effektliyinin bir amilidir.

Kataloqun istifadə edilmə effektliliyi "oxucu-kataloq", "oxucu-kitabxana işçisi-kataloq" sistemi çərçivəsində müəyyən olunur, keyfiyyətin müəyyənləşdirilməsi ilə "kitabxanaçı-kataloq" sistemi daxilində gedir. Bu sistemləri müqayisə edərək görürük kataloqun istifadə edilməsi effektliliyində alınan məlumatları kataloqun keyfiyyətində də almaq olar. Məsələn, bunlar kitabxanada çap əsəri olan, lakin rədd edilmiş oxucu sorğularının təhlili nəticəsində müəyyənləşdirilir. Bu məlumatlar kataloqun keyfiyyət parametrinin düzgün qiymətini vermir. Kataloqun keyfiyyəti dedikdə kataloqun müəyyən növünə xas, lazımi funksiyaları yerinə yetirən xüsusiyyətlərin məcmusu nəzərdə tutulur. İstənilən kataloqun çoxlu sayda xüsusiyyətləri vardır, ancaq keyfiyyəti təyin edən zaman yalnız tələbat xüsusiyyətini nəzərə almaq lazımdır. Kataloqun tələbat xüsusiyyətləri ondan istifadə zamanı meydana çıxır.

Kataloqun keyfiyyətinin ierarxik strukturunu əmələ gətirən ayrı-ayrı xüsusiyyətlər ölçmə və hesablama yolu ilə xüsusiyyətlərin ölçüsü kimi verilir. Bu xüsusiyyətlərinə görə kataloqun keyfiyyət göstəricilərini vahid və kompleks göstəricilərə bölmək olar. Vahid göstəricilər ancaq bir xüsusiyyətə, kompleks göstəricilər isə bir neçə xüsusiyyətə aid edilir. Sistemli kataloqun keyfiyyətini müəyyən edərkən kompleks göstəricilərin aşağıdakı növləri meydana çıxır:

*Funksional* göstəricilər - kataloqun xüsusiyyətlərinin sayını göstərir, bu, məlumat tələbatçılarının sorğusunu ödəyir.

*Erqonik* göstəricilər - kataloqun xüsusiyyətlərini sayca xarakterizə edir. Belə ki, bu xüsusiyyətlər məlumat tələbatçısına kataloqdan istifadəyə şərait yaradır.

*Estetik* göstəricilər - kataloqun xarici xüsusiyyətlərini sayca xarakterizə edir ki, bu da oxucuların estetik tələbatına cavab verir.

*Pedaqoji* göstəricilərə oxuculara kataloqun təlim-tərbiyə təsirini göstərən xüsusiyyətlər aid edilir. Sistemli kataloqun pedaqoji göstəriciləri kataloqun məzmununu, strukturunu və onda ədəbiyyatın verilməsi metodikasını xarakterizə edir.

Sistemli kataloqdan istifadənin dərəcələri arasında müəyyən fərqlər vardır:

1) Sistemli kataloqun həcmi kitabxananın fondunun həcmindən asılı vəziyyətdədir;

2) Böyük həcmli kataloqlarda başa düşülməsi çətin olan təsnifat cədvəllərindən istifadə edilir;

3) Universal fondların kataloqlarında oxuculara naməlum olan çoxlu anlayışlar verilmişdir, bu da axtarışı çətinləşdirir.

Ümumiləşdirilmiş sadə göstərici 2 tərkib hissədən ibarətdir.

- Kataloqun göstəricisinin oxucunun təhsil səviyyəsinə uyğun olması;
- Əlifba-predmet göstəricisinin mövcudluğu və məsləhət almaq imkanı.

Əyani göstərici sadə göstərici ilə sıx əlaqədardır. Kataloqun xarici və daxili elementlərinin dolğunluğu onun əyaniliyini artırır.

Ümumiləşdirilmiş əyani göstərici 4 tərkib hissədən ibarətdir:

- göstəricidə şöbələrin siyahısı olan cədvəllərin mövcudluğu;
- göstəricidə sistemli kataloq üzrə axtarış alqoritminin mövcudluğu;
- göstəricidə kataloqun əsas şöbələrinin adlarının və indekslərinin mövcudluğu;
- göstəricidə şöbələrin yarımbölmələrinin siyahısı şəklində şkafüstü tərtibatın mövcudluğu.

Fondun tərkibinin açılmasında dolğunluq göstəricisini tapmaq üçün əvvəlcə baza göstəricisinin mənasını bilmək lazımdır. Bu zaman bunlarnəzərə alınır:

a) Kataloq haqqında tələblər: kataloq kitabxananın bütün fondunu, əsas saxlayıcı fondu, ixtisaslaşdırılmış fondları özündə əks etdirir;

b) Kataloqun funksiyaları: xidmət və oxucu. Xidmət funksiyasını yerinə yetirən kataloqlarda maksimal dolğunluq əks etdirilməlidir. Oxucu kataloqlarında çap əsərlərinin əks etdirilməsi məhdudlaşdırılır. Bu məhdudlaşdırmalarla əlaqədar olaraq baza göstəricisinin qiyməti aşağı düşür.

Dəqiqlik göstəricisinin 3 tərkibi var:

- çap əsərinin məzmun indeksinə uyğur gələn dəqiqlik göstəricisi;
- kartoçkaların yerləşdirilməsinin dəqiqlik göstəricisi;
- şifrənin qoyulmasının dəqiqlik göstəricisi.

I göstərici sistemləşdirici tərəfindən təsnifləşdirmənin düzgünlüyünü xarakterizə edir;



II göstəricini müəyyən edərkən kartoçkaların yerləşdirilməsi qaydalarına fikir verilir və qaydaların pozulmasının sayı hesablanır; III göstəricini müəyyən edərkən sistemli kataloqda yerləşdirilmiş kartoçkalarda şifrələrin yazılmasının düzgünlüyü yoxlanır.

Çoxcəhətli göstərici 2 tərkib hissədən ibarətdir:

- çap əsərinin məzmununun çoxcəhətliliyini göstərən göstərici;
- sistemli kataloqun lazımi sorğu aparatının mövcudluğu göstəricisi.

I göstərici müəyyən edilərkən sistemli kataloqda çap əsərlərinin əks etdirilməsinin qanunauyğunluğu təhlil edilir.

II göstəricini müəyyən edərkən sistemli kataloqun sorğu aparatının ayrıclarının dolğunluğu və qanunauyğunluğu təhlil edilir.

Çap əsərinin əks etdirilməsinin operativliyi göstəricisi 2 əsas tərkib hissədən ibarətdir:

- sistemli kataloqda çap əsərinin əks etdirilməsinin operativliyi göstəricisi;
- əlifba-predmet göstəricisində uyğun mövzunun əks etdirilməsinin operativliyi göstəricisi.

Oxucuların kataloqla işi zamanı stol və stulların miqdarının qiymətləndirilməsi üçün hər bir oxucuya işləmək üçün yaxşı şərait yaradılmalıdır. Bunun üçün kataloqa müraciətlərin orta sayını bilmək lazımdır.

Gigiyena göstəriciləri qrupuna bunlar aiddir:

- kataloqun işıqlandırıcı göstəricisi;
- otağın temperatur göstəricisi;
- kataloqun tozlanması göstəricisi
- kataloq kartoçkalarının təmizliyi və ya köhnəlməsi göstəricisi.

Keyfiyyət göstəricilərinin qiymətini müəyyən etmək üçün aşağıdakı metodlar məlumdur: təcrübi, ekspert, orqonoleptik, sosioloji, hesabi.

Təcrübi metod hadisə və obyektlərin sayını təyin etmək üçün tətbiq olunur.

Ekspert metodu ixtisasçı ekspertlərin təcrübəsinə əsaslanır, daha obyektiv metodlardan istifadə çətinləşdikdə ondan istifadə olunur.

Orqonoleptik metod texniki vasitələr istifadə etmədən hiss orqanlarına əsaslanır. Orqonoleptik metod zamanı bu və ya digər hisslər ancaq hissiyyat orqanları vasitəsilə verilir.

Sosioloji metod tələbatçıların və işçilərin faktiki fikirlərinin təhlilinə əsaslanır. Sosioloji metod zamanı fikirlər yığımı xüsusi anket suallar vasitəsilə əldə olunur.

Hesabi metod hesablamalara əsaslanır. Bu zaman parametrin qiyməti başqa metodlarla tapıla bilər.

Bütün bunların nəzərə alınması sistemli kataloqdan istifadənin səmərəliliyini artırır.

### *Ədəbiyyat*


*1. Воронько К.Л. Организация библиотечных фондов и каталогов: Учебник. – М., Книга, 1981. – 328 с*

*2. Kitabxana kataloqları: Dərslik (tərc.ed.: Ə.Ağayev və başq. – B.: Maarif, 1974. – 340 s.*

*3. Kitabxanaşünaslıq (Kitabxana kataloqları): Dərs vəsaiti/ prof.A.Xələfovun redaktəsi ilə.- B.:Bakı Universiteti Nəşriyyatı, 1996. - 212 s.*



***Халафова С.***


## ***Эффективность использовании систематического каталога***


### Резюме

*Систематический каталог играет важную роль в работе библиотеки. Особенно возрастает роль каталога в условиях централизации библиотек на современном этапе.*

*В статье указывается, что систематический каталог представляет читателю библиотечные фонды в значительно более узких аспектах.*

Əşrəf XƏLƏFOV
Pedaqoji elmlər namizədi, dosent

## ƏDƏBİ FAKTOQRAFİK AXTARIŞ HAQQINDA

Biblioqrafik axtarışın özünəməxsus funksiyası vardır. Onunla kitabxana-biblioqrafiya təcrübəsində oxuculara xidmət işində qarşılaşırıq. Bu, necə deyərlər, faktoqrafik sorğuları ödəmək üçün ona uyğun faktoqrafik axtarışın aparılmasının təşkilidir.

Faktoqrafik axtarışın növləri barədə nəzəri fikirdə müxtəlif nöqteyi-nəzər mövcuddur. Zənnimcə, ədəbi biblioqrafiyada faktoqrafik axtarışa axtarışın bir növü kimi baxılması, biblioqrafik, yaxud sənəd axtarışını bir-birinə qarşı qoymaq kimi deyil, məlumat axtarışının müstəsna halı kimi baxılması daha məqsədəuyğundur. Biblioqrafik faktın tapılması dərəcəsinin başa çatmaması, yaxud bilavasitə sənədin əldə edilməsi kimi oxucunun tələb etdiyi konkret məlumatı *(prosesə, hadisəyə aid olan faktik məlumatı)* tapmağa və onun formalaşmasına qədər *(əgər bu zəruridirsə)* baxılmalıdır.

Biblioqrafik axtarış bütöv, amma çoxpilləli prosesdir. Professor Z.H.Əliyev çap etdirdiyi "Ümumi biblioqrafiyaşünaslıq" adlı dərs vəsaitində yazır: "Biblioqrafik axtarış müəyyən topluda nəyinsə aşkar edilib müəyyənləşdirilməsi məqsədilə aparılan prosesləri nəzərdə tutan ümumi axtarış anlayışının bir tərkib hissəsidir." Bu fikirdən görmək olur ki, faktoqrafik axtarış axtarışın müstəqil tipi deyildir, oxucunun faktoqrafik sorğusu və sorğuya faktoqrafik formada cavab verilməsi kimi izah olunmalıdır. Biblioqrafik axtarışın elm üçün böyük əhəmiyyətini qəbul edən alimlər haqlı olaraq deyirlər ki, hər hansı ədəbi əsərin yazılması biblioqrafik axtarışdan başlayır. "Biblioqrafik axtarış" anlayışını "ədəbi faktın müəyyənləşdirilməsi", "elmi-tədqiqat mövzusu üçün ilkin materialın axtarılıb toplanması" mənasında qəbul etmişlər. Onun ümumi *(lakin təqribi, təxmini)* axtarış *(cari, retrospektiv)*, konkret axtarış, mövzu axtarışı kimi növləri vardır. Məlumdur ki, biblioqrafik axtarış biblioqrafiyalaşdır-

ma və biblioqrafik xidmət proseslərində baş verir. Biblioqrafik xidmət zamanı aparılan axtarış oxucu sorğularına əsaslanır və onların biblioqrafik mənada yerinə yetirilməsi məqsədilə həyata keçirilir. Sorğular məqsədinə görə müxtəlif ola bilər. Məsələn, mövzu, biblioqrafik əlaməti *(ünsürü)*, ünvanı *(biblioqrafik ünvan)* dəqiqləşdirmək məqsədilə verilə bilər. Bəzi sorğular isə faktoqrafik xarakter daşıyır. Yəni oxucu nəyinsə mahiyyətini aydınlaşdırmaq məqsədilə sorğu verir və ona müvafiq arayış almaq istəyir. Təbiidir ki, bu sorğuların yerinə yetirilməsi biblioqrafik axtarış aparılmasını tələb edir və son nəticədə müvafiq arayışlar tərtib olunur. Faktoqrafik arayış da bunlardan biridir. Məsələn, oxucu M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının biblioqrafiya şöbəsindən divan, divan ədəbiyyatı haqqında məlumat istəyir. Bu arayış ensiklopediya və yaxud izahlı ədəbiyyatşünaslıq terminləri lüğəti vasitəsilə yerinə yetirilə bilər. Aydın olur ki, "Divan" əsasən "toplanılan yer" deməkdir. Keçmiş zamanlarda davalara baxmaq və iş görmək üçün toplanılan məclisə "Divan" deyilirmiş. Daha sonralar Şərq ölkələrində bu ad bir şairin əsərləri məcmuəsinə verilmişdir. Divanda əsərlər, adətən, bu qayda ilə tərtib edilir. Əvvəl təyhid, minacat, sonra nət, daha sonra isə qəsidələr, qəzəllər, tərcibəndlər, mürəbbelər, müxəmməslər, saqinamələr və s. verilir. Bölmələr müəyyən qayda ilə tərtib edilir. Divan ədəbiyyatı - Orta əsrlərdə türk ədəbiyyatı, "avam" və "xəyyas" *(yüksək təbəqə, "seçilmişlər")* ədəbiyyatı adları ilə iki yerə ayrılmışdır. Bunlardan birincisi, heca vəznində, sadə xalq dilində şifahi lüğətdə yaranan və yayılan "xalq ədəbiyyatı", ikincisi isə, əsasən, əruz vəznində nisbətən mürəkkəb, çətin dildə yazılan "divan ədəbiyyatı" adlanırdı. Ona "klassik ədəbiyyat", "saray ədəbiyyatı" və "əndərun ədəbiyyatı" da deyilmişdir.

Oxucuya müəyyən ədəbi faktoqrafik məlumat birinci və ikinci dərəcəli biblioqrafik göstəricilərin, kitabxananın kataloqlarının köməkliyi ilə, ilkin mənbənin təhlili ilə verilə bilər. Buna görə də faktoqrafik axtarış son mərhələdə deyil, hazırlıq mərhələsində də baş verir. Bu o deməkdir ki, biblioqraf lazım olan sənədi *(ensiklopedik yeni məlumat kitabını, kommentariyalı nəşrləri)* əldə edərək onun əsasında təhlil və yaxud müstəqil ümumiləşdirmə ilə oxucuya lazım olan məlumatı tapıb çatdırır. Məhz buna görə faktoqrafik məlumat axtarışın texnologiyasına xüsusi baxmağı tələb edir. Burada hansı problem baş qaldırır?

Hər şeydən əvvəl, termin qanunauyğunluq, tarix, hadisə və predmet ədəbi faktla eyni halda az və ya çox rol oynayır. Ona görə ki, bütün ədəbi-bədii hadisədə faktın xarakteri mövcuddur - bu, konkret əsərdir, bu, yazıçıdır, onun təkrarolunmaz şəxsiyyət taleyi, yaradıcılıq bioqrafiyasıdır. Bu, ədəbi-tarixi bir əsərdir, milli ədəbiyyatdır, cəmiyyətin müxtəlif tarixi dövrüdür və s. Buna görə də faktoqrafik axtarışa biblioqrafik nöqteyi-nəzərindən baxsaq, axtarılan və dəqiqləşdirilən *faktlar yalnız bədii mahiyyətli estetik xarakterli* deyildir, həm də başqa növlü faktdır. Məsələn, M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"nı yazması faktı çar üsuli-idarəsinin mürtəce siyasətidir. Məhz buna görə də faktların böyük əhəmiyyətindən və çoxcəhətliliyindən yan keçmək olmaz.

Digər tərəfdən, xüsusi olaraq ədəbi sahənin öyrənilməsində ədəbi faktoqrafik sorğu az rol oynayır. Faktların əksəriyyətinin sənəd təbiəti, yaxud sənəd formasında qeyd olunması mövcuddur. Oxucunu maraqlandıran bütün faktoqrafik məlumatları iki qrupa bölmək olar:

1. Öyrənilən ədəbi elmin hadisə və predmeti: *(yaxud həmin elmin təşkili və yaradılması, fəaliyyəti)*.

2. Formalaşmış ədəbi elmin qanunauyğunluğunun açılması.

Bu iki qrup faktlar müəyyən səciyyəyə malikdir. Birinci qrup faktlar – bunlar ədəbi-bədii hadisələrdir *(ədəbi-bədii əsərlər, yazıçının yaradıcılığı, tərcümeyi-halı, ədəbi həyatın hadisələri, ədəbi prosesin mərhələləri və s.)*. Bu hadisələr əksər hallarda sənəd təbiətinə malik olan hadisələrdir, gec-tez sənədləşdirilmiş və qeyd formasına malikdir. Əsər sözlərlə yaradılır, yazı formasını alır. Sonra çap edilir. Hətta şifahi xalq yaradıcılığı *(folklor)* tərtib edənlər tərəfindən yazıya köçürülərək toplanır, nəşr olunur, öyrənilir.

Yazıçının yaradıcılığı, tərcümeyi-halı haqqında məlumatlar sənədləşdirilmiş faktlarla bağlıdır *(memuar, məktublar, gündəliklər, tərcümeyi-hal sənədləri, qeydləri və s.)*. Ədəbi həyatın başqa məlumat və hadisələri müxtəlif nəşrlərdə öz əksini tapır *(ədəbi cəmiyyətlərin deklorasiyası, manifesti, nəşriyyatların plan və prospektləri, jurnalın, monoqrafiyanın redkollegiyası və s.)*. Bütün bu materiallar çox diqqətlə açılır, aşkar edilir, axtarılır və nəşr olunur. Ədəbi tənqid və ədəbiyyatşünaslıq, ədəbi biblioqrafiya onları kommentariyalaşdırır, təhlil edir. Biblioqrafik vəsaitdə "yazıçının həyat və yaradıcılığının əsas tarixləri" bölməsində təqdim olunur. Məhz bunların sənədləşdirmə formaları biblioqrafik axtarışda nəzər-diqqətə çarpır.

İkinci qrup faktlar - bu, ədəbi elmin yaranmasıdır. Ədəbi tənqidin münasibətidir, ədəbi hadisəyə qiymətin verilməsidir, qanunauyğunluqlardır, qarşılıqlı əlaqələrdir. Ədəbiyyatşünaslıq elmində aparat və nəticə anlayışları texniki-təbii elmi biliklərdən fərqli olaraq təcrübi işdə formal deyildir. Ədəbiyyatşünaslığın nəticələri, təhlil, qiymətləndirmə, mürəkkəb, sosial, estetik hadisə və proseslərin şərhi əsas, başlıca məlumata, fikrə malikdir. Onlar ciddi, formal təsir altına düşmürlər. Buna görə də oxucuların faktoqrafik sorğularının böyük bir qismi real faktlar dairəsilə məhdudlaşır, onları ənənəvi mənbələrdən, lüğətlərdən, məlumat kitablarından, salnamələrdən, biobiblioqrafik lüğətlərdən, əsərlər külliyyatının məlumat aparatından və s. tapmaq mümkündür.

Nə vaxt ki, oxucuya nə tarix, nə də ad kimi əsas termin və anlayışlar lazım deyil, mahiyyət etibarilə nəzəriyyə və konsepsiyalar haqqında məlumat lazım gəlir. Belə sorğuları faktoqrafik adlandırmaq doğru deyildir. Onları ideoqrafik faktın deyil, ideyanın, nəzəriyyənin təsviri *(məzmunu)* adlandırmaq daha düzgündür.

Məlumat-axtarış sistemində ədəbi faktoqrafik sorğuya daha tipik və yazılı məlumat verilir. Bununla belə, biblioqraf mürəkkəb faktoqrafik sorğu üzrə axtarışı yerinə yetirərkən ilkin sənədin mətninə əvvəlcədən dərindən nəzər salmalıdır. İş ondadır ki, ensiklopediyada olduğu kimi, elmi monoqrafiyada, yaxud məqalədə ideya, nəzəriyyə, fakt termini və onun tərifi verilə bilər. Ancaq ensiklopediyalarda faktların siyahısı, anlayışlar bir qaydaya salınır, sistemləşdirilir ki, onları tapmaq mümkün olsun, onlar birmənalı izah edilir, müxtəlif formada təqdim edilməsinə yol verilmir. Burada faktoqrafik ədəbi məlumat subyektiv qiymətləndirmədən təmizlənir, bir çox az əhəmiyyətli faktlardan təcrid edilir, əridilir. Amma monoqrafiya və məqalədə bütün bu faktlar mətndə verilir, çox vaxt aydınlaşdırılmır, ola bilsin ki, başqa deyimdə verilir. Ənənəvi mənada deyil, diskussiya, mübahisə yolu ilə təqdim edilir. Ancaq mətni öyrənmək dərin təhlil yolu ilə aydınlaşır. Müəllif elmi işdə fakta və terminə isnad edir, onları faktoqrafik məlumat üçün yararlı etmək məqsədilə sistemləşdirmir. Məhz buna görə sorğuya cavab verməkdə elmi mətn yaradıcılıq vəzifəsini həll etməkdə çətinliklər yaradır. Faktoqrafik məlumatın mənbəyi kimi ilk elmi sənədlərdən istifadə etmək olduqca çətindir. Ədəbi sənədlər massivində olan məlumatdan bilavasitə istifadənin özü də ümumi bilik tələb edir. Ədəbiyyatşünaslıq



məlumatının sənədləşdirmə massivində dialektik proses kimi işlənməsi lazım gəlir.

*Sxem 1.*

Ədəbi sənədlər massivində elmi məlumatın işlənməsi




| | | | | | |
|---|---|---|---|---|---|
| Sahəvi elmi tədqiqatların ön tərəfi | Məqalələr və əlyazmaların surəti | Mövzu məcmuələri | Monoqrafiya | Ali məktəb dərslikləri | Sahəvi xarakterli məlumat kitabları, ensiklopediyalar |

Ədəbi elmşünas-alimlər müəyyən fənnin *(elmi biliyin)* elmi nəşrin massivini tədqiq etməklə onların janrları *(məqalə, xülasə, referat, monoqrafiya, dərslik və s.)* arasında qarşılıqlı əlaqəni, fərqləri müəyyənləşdirir. Bununla belə, elmi nəşrlərin janrında olan elmi məlumat onun yeniliyi, aktuallığı, yaxud fundamentallıq stabilliyi ilə seçilir.

Təzəcə yaradılmış elmi məlumat *(yeni faktın kəşf edilməsi, yaxud onun yeni kimi şərh edilməsi, yeni ideya, nəzəriyyə, metod)* ənənəvi elmi fəaliyyətə uyğun olaraq yaranmasından 2-5 il keçən müddətdə nəşr edilə bilər. Jurnal məqaləsi deponizə yolu ilə, yaxud məruzə halında nəşr olunur. Buna görə də axından yeni sahəvi sənədlərin, məqalələrin ayrılması bir qayda olaraq ən aktual yeni faktlar hesab olunur. Amma məqalələrdə elmi məlumat hələ qaydaya salınmamış, elmi-tənqid tərəfindən qiymətləndirilməmiş olur. Sahəvi elmi bilik də vahid axın kimi sistemləşdirilməmişdir. Müəllif tərəfindən yaradılmış və nəşr olunmuş elmi ideya sonradan elmdə müstəqil yaşamaq hüququ qazanır, o, sabit olmur, təsirə məruz qalır, qiymətləndirilir, ümumiləşdirilir, təhlil olunur. Bu məqsəd üçün elmi fənnin özünün vasitələri vardır. Məqalələrdə olan çoxcəhətli qaydaya salınmış məlumatlar, elmi xülasələrdə hazırlanmağa başlayır. Sonrakı bir neçə ildə *(2-3, 5-7 ilə qədər)* mütəxəssis, ixtisasçı yeni məlumat yarandığı andan *(çox hallarda məlumat xidmətinin sifarişilə)* məqalələrin tərkibində olan materialları

işləmək əsasında hər hansı ümumi problemə həsr edilmiş elmi xülasə yaradır. Onun üçün ən mühüm məqalələri seçir, müxtəlif prinsip üzrə materialları qruplaşdırır. Ən mühüm istiqaməti, yanaşmanı aşkara çıxaran ümumi problemin işlənməsi üçün ən mühüm aparıcı tədqiqatların adını çəkir və s. Beləliklə, xülasələrdən, məqalələrdən məlumat düzəldir, onu müəyyən qaydada sistemə salır, qiymətləndirir. Professional oxucular üçün ideyanın sonrakı inkişaf yolu daha aydın görünür, deyilən fikri genişləndirmək, mübahisəliliyini, perspektivliyini bildirir. Xülasədə ən səmərəli qiymətli məsələləri bilmək olur. Xülasə təşkil edilməmiş məlumatla elmin ön sırası arasında əlaqədar halqa rolunu oynayır, elmi monoqrafiyalar başlıca problemlərin nəzəri şərhini verir. O, məqalələrə görə say etibarilə 20-25 dəfə azdır, yeni məlumatın yaranmasından, onun işlənməsi və monoqrafiya halında nəşri üçün azı 5-10 il keçir. Oxşar məlumatın işlənmə xarakteri xülasədə daha mürəkkəbdir. Monoqrafiyanın təhlili ancaq məqalələrdə, xülasələrdə ümumiləşdirilən həmin problemin həllinə bilavasitə istiqamətləndirilmir. Həm də sahəvi bilik sistemində bütünlükdə həmin problemin yerinə görə yönəldilir. Baxılan monoqrafiyada problemin əhəmiyyətinə, nə dərəcədə yeni olmasına görə, əvvəllər elmi bilik sistemində olub-olmaması, yaxud mahiyyəti, həmin sistemin yaradılması, onun radikal yenidən qurulması baxımından maraq doğurur.

Sahəvi sənədlər massivində nəşr olunan monoqrafiyalar həmin ədəbi fənnin başlıca elmi biliklərin sistemli, bütöv şərhini verə bilməz. Bunu təmin etmək üçün ali məktəb dərslikləri yaradılır. O, fənni bütövlükdə əks etdirir. Buna görə dərsliklər sabit məlumatı tərkibində saxlayır, bilik sahəsinin məntiqi strukturasını açıb göstərir.

Sahəvi bilikləri ümumiləşdirən, yüksək dərəcədə toplayan terminlər lüğətlər, sahəvi məlumat kitabları və ensiklopediyalardır. Bir qayda olaraq, yeni məlumatdan bütöv on il keçəndən sonra baş verir *(fakt, ideya, qanun anlayışları)*, ümumiləşdirmələrin, işlənməyin bütün mərhələlərini keçir və sahəvi məlumat nəşrlərində əks olunur. Ən başlıca stabil faktlar, ədəbi qanunlar, ideyalar ensiklopediyalarda axtarış üçün əlverişli şəkildə təqdim edilir. Ensiklopediyadan məlumatı seçmək, işləmək, qiymətləndirmək, ümumiləşdirmək, bilik bazasının dərəcəsini yaratmaq - bu proses çox mürəkkəbdir, ziddiyyətlidir, səhvlərdən, boşluqlardan azad deyildir və s.



Elmi nəşrlərin massivinin dinamikası, sahəvi elmi biliyin obyektiv boy artımıdır. Elmi fənlər sistemində elmi məlumatın işlənməsidir. Məhz buna görə yeni məqalələrdə ən yeni ideyalar olur. Ən yeni ensiklopediyalar, dərsliklər, monoqrafiyalar məlum mənada elmin aparıcı, ön sahəsindən geri qalır.

Sahəvi sənədlər massivinin dinamikasını bu cür anlamaq biblioqrafa hər bir kitabxana-biblioqrafiya fəaliyyəti üçün *(tərtibatda, fondun komplektləşdirilməsi prosesində, ədəbiyyatın təbliği, məlumat-biblioqrafiya xidməti və ən nəhayət, soraq-məlumat işində)* zəruridir.

Faktoqrafik axtarış vəzifəsinin sxemini nəzərdən keçirək.

*Sxem 2.*

1. Axtarılan məlumatın müəyyən kateqoriyası

A. Zəruri məlumat<br>
I qrup *(öyrənilən elmin faktları)*

B. Zəruri məlumat<br>
III qrup *(elmin qanunauyğunluqlarının müəyyənləşdirilməsi)*

2-A. Ədəbi-bədii hadisə məlumatının müəyyən dərəcədə yeniliyi.

2-B. Axtarılan ədəbiyyatşünaslıq məlumatının işlənməsi səviyyəsinin təyin edilməsi.

3. Adekvat (tam uyğun) mənbənin təyini.

4. Cavabın tapılması və dəqiqləşdirilməsi.

Faktoqrafik sorğunu alan biblioqraf, hər şeydən əvvəl, axtarılan məlumatın qrupunu təyin edir. Əgər ədəbi-bədii hadisə *(ədəbi-tarixi faktlar, adlar, tarixlər, ədəbi həyatın hadisələri və s.)* haqqında məlumatın axtarışından söhbət gedirsə, sonra həmin məlumatın yenilik dərəcəsinin təyin edilməsi vacibdir ki, zəruri mənbələri düzgün seçmək mümkün olsun. Müasir yazıçıların, yaxud xarici ölkə yazıçılarının həyat və yaradıcılığı haqqında ən adi məlumatı axtarmaq asandır, nəinki keçən əsrdə gizli imzalarla çap olunmuş əsərləri müəyyənləşdirmək. Amma burada məsələnin həlli yolu oxşardır.

Əgər ikinci qrup məlumat, yəni ədəbi ideya, termin, anlayış, konsepsiya və s. lazımdırsa, belə halda başlıca vəzifə müasir sənədlər massivində axtarılan məlumatın işlənmə dərəcəsini təyin etməkdir. Bu ona görə lazımdır ki, bütün mənbələrə baxmağa ehtiyac qalmasın. Daha doğrusu, elmi nəşri seçmək və onun cavabını tapmaq daha məqsədəuyğundur. Ən sabit məlumat ənənəvi terminləri, fun-

damental nəzəriyyəni BSE-nın, ensiklopedik lüğətlərin, dərsliklərin köməkliyi ilə dəqiqləşdirilir. Metodologiyanın yeni problemləri, nəzəri yenilikləri, eksperimenti ədəbi janrların, tədqiqin və s. Monoqrafiyaya, xülasəyə, məqaləyə müraciət edilməsini tələb edir. Əgər lazım olan məlumatın işlənməsi səviyyəsinin müstəqil təyin edilməsi biblioqraf üçün çətindirsə, o zaman məntiqi axtarışı bütün mərhələlər üzrə, hətta mütəxəssislə məsləhətləşməyə qədər davam etməlidir (bax: sxem 3).

*Sxem 3.*

I və II qrup faktoqrafik məlumat mənbələrinin
təyin edilməsi alqoritmi

| | |
|---|---|
| Zəruri məlumat<br>I qrup *(ədəbi-bədii hadisə və məlumatlar)* | Zəruri məluma:<br>II qrup *(qanunauyğunluqları, ədəbi elmin yaradılması)* |

← BSE →

Birinci orta məktəb dərsliklər
Sahəvi ensiklopediyalar və məlumat kitabları
Ali məktəb dərslikləri

Ədəbiyyat tarixi üzrə ümumiləşdirilmiş əsərlər

| | |
|---|---|
| Əsərlər külliyyatı və başqa nəşrlər | Elmi monoqrafiya |
| Yazıçının əsərləri | Xülasə və məcmuələr |
| Çap olunmuş nəşrlər | Məqalələr *(elmi və tənqidi)* |
| | Deponir məqalələr |
| | Nəşr olunmuş sənədlər |
| | NİR |
| | Alim-məsləhətçi |

Sxemlərin nəzərdən keçirilməsi və təhlili axtarışın daha bir mühüm xüsusiyyətini qeyd etməyə imkan verir. I-II qrup məlumatın axtarışında mənbə ilk başlanğıcda ümumi olur. Sonra isə mürəkkəb situasiyaya bölünür. Hər iki qrup məlumat yenidən ümumiyə qayıdır. Belə hal çox zaman baş verir. Əgər ədəbi məlumat oxucu üçün maraqlıdırsa, ədəbiyyatşünaslıq elminin tədqiqatında təzəcə tanınmışsa, *(məsələn, məşhur yazıçının arxivindən əvvəllər çap*



*edilməmiş əsərlərin və məktubların tapılması),* belə materiallar, adətən, müvafiq kommentariya (izahatla) sübut edilən sənədlərlə nəşr olunur. Bunlar hələ biblioqrafik vəsaitlərdə öz əksini tapmır. Belə hallarda I qrup məlumatın axtarışı situasiyasında ədəbiyyatşünaslıq nəşrlərinin ilk massivinə müraciət edilir. Axtarışın qarşılıqlı əlaqəsini bilmək həmçinin, vacibdir. Konkret mənbənin, ədəbi faktoqrafik məlumatın özünün tapılması *(müəyyən məqalənin, monoqrafiyanın, məlumat kitabının, seçilmiş əsərlərin və s.)* bir qayda olaraq tam qiymətli və geniş biblioqrafik axtarışın aparılmasını təmin edir. Məsələn, M.F.Axundovun oğluna göndərdiyi məktub və oğlunun ona cavab məktubları, onun əsərlərinin biblioqrafik göstəricisinin çapından sonra tapılmış və kitab halında çap edilmişdir. Ona görə həmin nəşrin biblioqrafik təsviri biblioqrafik vəsaitdə yoxdur və s.

Biblioqrafik xidmət işində faktoqrafik axtarışda sənədin bəzi məzmun və ya formal meyarları nəzərdə tutulur və əldə edilən biblioqrafik informasiya bunlara uyğun gəlməlidir. Sənədin mövzusu, onun müəllifi, nəşr ili, nəşr forması və s. Beləliklə, demək olar ki, ədəbi faktoqrafik axtarış biblioqrafiyalaşdırma və biblioqrafik xidmətin ilkin əsası olmaqla biblioqrafik informasiyanın xüsusi halı kimi qəbul edilib dərk edilməli və şərh olunmalıdır.

### *Ədəbiyyat*

*1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. - B., 2001. - S.72.*

*2. Мирсит Э.М. Массив публикации в системе научных дисциплин. Системные исследования: Ежегодник._- М.: Наука, 1977. - С.133-154.*

*3. Xələfov Ə., İsmayılov N. Biblioqrafik axtarış biblioqrafik fəaliyyətin əsasıdır. //Mədəni-maarif işi – 1994. - №4 - s.9-11.*

**Халафов А.**

### *О литературно-фактографическом поиске*

**Резюме**

*В статье освещается литературно-фактографический поиск как исключительная форма библиографический информации и фактические обосновивает по не как специальной вид поиска.*

***Fərman BAYRAMOV***
*Filologiya elmləri namizədi, dosent*

# *H.Z.ŞİRVANİ YARADICILIĞINDA MÜTALİƏ VƏ BİBLİOQRAFİYA MƏSƏLƏLƏRİ*

Məşhur səyyah və coğrafiyaşünas-alim H.Z.Şirvani geniş yaradıcılığa malik olan görkəmli maarifçilərdən biri olmuşdur. O, eyni zamanda tarixçi, etnoqraf, filosof, ədib və şair olmuşdur. H.Z.Şirvani «Təmkin» təxəllüsü ilə çoxlu şer yazmış və kiçik yaşlarından elmə çox böyük həvəs göstərmişdir. Gələcəkdə görkəmli alim olmaq üçün mütaliəni də çox sevmiş, rəsmi elmləri və ədəbi fənləri öyrənməklə ciddi məşğul olmağa başlamışdı. H.Z.Şirvani bu münasibətlə yazmışdı: «Mən on iki il atamın və başqa alimlərin yanında rəsmi elmləri və ədəbi fənləri öyrənməklə məşğul olmuş, istedadıma görə fəzilət və kamal sahiblərinin xırmanlarından sünbül dərmişəm» (*1*).

H.Z.Şirvani geniş və planlı mütaliə etmək, dövrünün görkəmli alimləri ilə görüşmək və dünyanı gəzmək, müxtəlif ölkələrin adamları ilə görüşüb onların adət və ənənələrini, mədəniyyətini, tarixini öyrənmək, bunun nəticəsində də zəngin material toplamaq üçün səyahətə çıxır. Səyyahın Yaxın Şərq ölkələrini gəzməsi onun biliyini artırmış və zəngin material toplamasına kömək etmişdir.

Görkəmli alim H.Z.Şirvaninin yaradıcılığında nəzəri cəlb edən əsas cəhət əsərlərini tərtib edərkən biblioqrafik prinsiplərdən daha çox istifadə etməsidir.

Qırx ilə yaxın səyahətdə olmuş H.Z.Şirvani bu müddətdə Avropa, Asiya və Afrikanın bir sıra ölkələrini gəzmiş, Hind və Atlantik okeanında olmuşdur. Səyyah bu ölkələrin təbiəti, tarixi, əhalisi, təsərrüfatı və mədəniyyəti haqqında çox zəngin material toplaya bilmişdir. Bu materiallar əsasında «Hədayiqüs-səyahə» («Səyahət bağları»), «Riyazüs-səyahə» («Səyahət bağçaları»), «Bustanus-səyahə» («Səyahət bostanı»), «Kəşfül-maarif» (Ümərifətlərin kəşfi») əsərlərini yazmışdır. Alimin bu əsərləri o zaman bir sıra xarici ölkələrdə geniş yayıla bilmiş və elmi ictimaiyyətin diqqətini cəlb etmişdir.

H.Z.Şirvani kiçik yaşlarından başlayaraq çox geniş mütaliə ilə məşğul olmuş, ərəb, fars dillərini öyrənmiş və bunun nəticəsində də Şərq mədəniyyəti, ədəbiyyatı ilə daha yaxından tanış ola bilmişdir.



H.Z.Şirvani bir alim kimi nə qədər mütaliə edib, biliyini artırırsa da, yenə də özündən razı qalmadığını yeri gəldikcə bildirmişdir. Alimin ən başlıca arzusu daha çox mütaliə etmək, axtarış aparmaq və zəngin material toplamaq idi. H.Z.Şirvani elmi biliyini dərinləşdirmək üçün mütaliə etməklə yanaşı, dövrünün görkəmli alimləri ilə də yaxından əlaqə saxlamış və onlardan gələcək elmi fəaliyyəti üçün səmərəli məsləhətlər almışdı.

H.Z.Şirvani dövrünün görkəmli alimləri ilə söhbətlərində, elmi mübahisələrində heç də hamısından razı qalmamışdı. Bu münasibətlə o yazmışdı «Mən dünyadan xəbərsiz olan dar düşüncəli alimlərin xidmətinə getdim, çox səy göstərdim, ancaq... bir şey əldə edə bilmədim» (2).

Elm aləmində tanınmış böyük şəxsiyyətlərin həyatında mütaliə başlıca rol oynamışdır. Bu cəhətdən H.Z.Şirvaninin bir alim kimi yetişməsində onun mütaliə və elmi-biblioqrafik fəaliyyəti vəhdət təşkil edir. Onun mütaliə dairəsi geniş olduğu kimi biblioqrafik fəaliyyəti də geniş olmuşdur. İnsan həyatında mütaliənin əhəmiyyətini izah edərkən o yazmışdı: «Nəyin bahasına olursa-olsun, hamı qadınlı-kişili oxumalı, elm dalınca getməlidir. Elm bütün sirləri incəliklərinə qədər anlamaqda insana yardım edir. Elm işıqdır, elmsizlik qaranlıqdır» (3) deyən H.Z.Şirvani elmin bütün sirlərinin yolunu ancaq geniş mütaliədə görürdü.

H.Z.Şirvani elmin hər hansı sahəsində çalışmasından asılı olmayaraq bütün alimləri ardıcıl, planlı şəkildə mütaliə etməyə, öz ixtisasını dərindən öyrənməyə, biliyini durmadan artırmağa çağıraraq yazmışdır: «İnsan nə qədər elmə yiyələnsə yenə də az şey bilir, bu və ya digər cəhətdən biliyi çatmır, onu təkmilləşdirməkdə başqa bir böyük alimin köməyinə ehtiyacı vardır» (4).

Təəssüflə qeyd etmək lazımdır ki, H.Z.Şirvani gəzdiyi yerlər haqqında çox əzab-əziyyətlə topladığı müxtəlif materialların, biblioqrafik xarakterli mənbələrin hamısını axıradək qoruyub saxlaya bilməmişdir. Alimin yazdığından aydın olur ki, din xadimləri, müxtəlif ölkələrin dövlət başçıları onun topladığı ən qiymətli materialları əlindən alıb gözünün qabağında məhv etmişlər. H.Z.Şirvani başına gələn bir əhvalatı təsvir edərkən yazmışdı: «Şirazdan Kərbəlaya gedirdim. Qumşo qəsəbəsinə çatarkən oranın hakimi Məhəmmədqasım xan, Süleyman xan oğlu Qacar mənə zülm etdi. O, mənim bütün əmlakımı qarət etməklə kifayətlənməyib mənimlə münasibəti olanların hamısını həbs etdirdi. Hakim bizə çox zülm etdi. O, bununla kifayətlənməyib, 25 il ərzində zəhmət çəkib topladığım materialların *hamısını məhv etdi*» (5).

H.Z.Şirvaninin biblioqrafiya ilə olan əlaqəsini biblioqrafik mənbələrdən istifadə etməsindən və əsərlərini biblioqrafik qaydada tərtib etməsindən öyrənmək olur. Bu cəhətdən «Riyazüs-səyahə» əsərinin quruluşu, materialların biblioqrafik qaydada qruplaşdırılması maraq doğurur.

H.Z.Şirvani gəzdiyi ölkələrin kənd təsərrüfatı və təbabət elmi ilə maraqlanmış və bu sahələr üzrə də çox zəngin material toplaya bilmişdir. Alim müxtəlif xalqların tarixi haqqında çox zəngin mənbə olan «Riyazüs-səyahə» əsərini necə və nə məqsədlə yazdığını xatırladaraq göstərmişdir ki, «... dünyanı dolandıqda və bir çox tayfaların yanına səyahət etdikdə bəzi sədaqətli qardaşlar, vəfalı dostlar məndən xahiş etdilər ki, gördüklərimi, müşahidə etdiklərimi, müxtəlif din və məsləklərini qərəzsiz surətdə çəkinmədən yazım, dostlar üçün bir yadigar və gələcək nəsil üçün bir xatirə qoymaq məqsədilə bu əsəri yazdım» (6).

H.Z.Şirvaninin «Həqayiqüs-səyahə» əsərinin quruluşu, materialların biblioqrafik cəhətdən sistemləşdirilməsi diqqəti cəlb edir. Müəllif materialları fəsillər üzrə əlifba qaydasında düzmüşdür. Məsələn, əsərdə «B» hərfi ilə olan yer, insan adları, Bağdad, Bakı, Benqalə, Bədaxşan, Bəlx, Bərdə, Buyunaksk, Buxara və s. şəhər adları, «T» hərfi ilə olan yer adları - Tacikistan, Tibet, Tunis, Turan, Türküstan və s. həmçinin əlifba üzrə düzülmüşdür. Əsərin digər fəsillərində də materiallar əlifba qaydasında düzülmüşdür. Burada diqqəti cəlb edən cəhət sözlərin daxilində də əlifba qaydasına diqqət yetirilməsidir. O, əsərlərini tərtib etmək üçün özündən əvvəlki müəlliflərin çox qədim dövrə aid əsərlərini oxumuş və onların quruluşundan, tərtibi xüsusiyyətlərindən istifadə etmişdir. H.Z.Şirvani əsərində X əsrin məşhur coğrafiyaşünası Əbu İshaq İbrahim ibn Məhəmməd İstərxinin «Məsamikül məmalix», XIII əsrin tanınmış alimi Mahmud Qəzvinin «Əcaibəl-məxluqat», yenə X əsrin görkəmli Şərq tarixşünası Mirxonun 7 cildlik «Revzətüs-səfa» və s. kimi tarixi mənbələrinin təsvirini vermişdir.

«Riyazüs-səyahə» əsəri H.Z.Şirvaninin 30 ilə yaxın müşahidələrinin, biblioqrafik axtarışlarının səmərəli nəticəsi kimi meydana çıxmışdır. Səyyah-alim gəzdiyi ölkələrin coğrafiyası ilə yanaşı, həmçinin həmin ölkələrin ədəbiyyatı ilə də maraqlanmış və çox zəngin material toplaya bilmişdir. Səyyah bu əsərinin birinci hissəsinə aid topladığı materiallar əsasında müxtəlif ölkələrin 60-dan çox şairi haqqında biblioqrafik məlumat vermişdir. Kitaba daxil edilmiş şairlərin 30 min beytdən ibarət şerlərinin burada əks etdirilməsi də əsərin biblioqrafik cəhətdən əhəmiyyətini artırır. «Riyazüs-səyahə»



H.Z.Şirvaninin dediyi kimi, oxucular üçün «Zəngin faydalar xəzinəsi» hesab olunur. Səyyah-alim topladığı zəngin materialı tam biblioqrafik qaydada qruplaşdırmışdır. Biblioqrafik xarakterli nəşrlərlə tanış olması ona bu işdə istiqamət vermişdir. O əsərdə göstərdiyi kimi, ərəb tarixçisi və səyyahı Ə.Məsudinin «Mürücüz-zəhəb və mədənül-cəvahir», XIV əsrin məşhur alim və dövlət xadimi F.Rəşidəddinin «Cansəm-təvarix» və s. mənbələrdən istifadə etmişdir. Görkəmli tarixçi A.Bakıxanov H.Z.Şirvaninin «Riyazüs-səyahə» əsərinin zəngin məlumat mənbəyi olmasının əhəmiyyətindən bəhs edərək yazmışdı: «Həqiqətən bu kitab zəngin faydalar xəzinəsidir. Nəzəri və elmi cəhətdən müəllifin fəzl və kamalına möhkəm bir dəlildir» (7).

H.Z.Şirvaninin «Bustanus-səyahə» əsərinin tərtibi də biblioqrafik prinsipə uyğun olaraq həyata keçirilmişdir. Cəmi 28 fəsildən ibarət olan bu əsər onun müəllifinin həyatı haqqında bütün məlumatların öyrənilməsi üçün mühüm mənbə hesab olunur. H.Z.Şirvani gələcək oxucularına müraciət şəklində yazmışdı: «Hər bir şəxs... mənim həyatımdan məlumat almaq istəyirsə, bu kitabı çox mütaliə etsin» (8).

H.Z.Şirvani geniş mütaliə sahibi olduğu üçün onun biliyi, elmi məlumatı çox dərin olmuşdur. O, səyahətdə olduğu müddətdə görüşüb söhbət etdiyi hər bir elm adamının, dövlət başçısının nəzərdiqqətini cəlb etmişdir. O, səyahətdə olarkən Banqladeşin mərkəzi Dəkkə şəhərində olur. Burada bir çox görkəmli adamlarla, o cümlədən Dəkkə şəhərinin hakimi Nasiriddövlə ilə tanış olur. Hakim H.Z.Şirvanini qonaq sifətilə öz evinə dəvət edir. Söhbət ərəfəsində H.Z.Şirvaninin çox bilikli olduğunu hiss edən Nasiriddövlə ona çox qiymətli hədiyyə təklif edir. Lakin H.Z.Şirvani onun təklif etdiyi hədiyyədən imtina edir. Hakim H.Z.Şirvaninin tamahkar adam olmadığını hiss edib, onun kitaba, mütaliəyə daha çox maraq göstərdiyini nəzərə alaraq ona kitab hədiyyəsi vermək istəyir. Bu məqsədlə Nasiriddövlə 12 minə yaxın kitabı olan kitabxananın işçisinə kitabxanasında olan kitabların biblioqrafik siyahısını H.Z.Şirvaniyə təqdim etdirir. Onun yazdığına görə kitabxanadan bir ədəd qiymətli kitab götürür (9).

H.Z.Şirvaninin əsərlərinin biblioqrafik cəhətdən tərtibi xüsusiyyətləri, materialların məntiqi ardıcıllıqla lazımi qaydada qruplaşdırılması bir çox alimlərin diqqətini cəlb etmişdir. Bir sıra xarici ölkə alimləri məlumat və biblioqrafik xarakterli kitablarını tərtib edərkən H.Z.Şirvaninin kitablarından istifadə etmişlər. Şərqşünas alim A.Quliyev məqalələrinin birində bu məsələdən bəhs edərkən

yazmışdı: «İran alimləri Şirvaninin əsərlərindən ensiklopediyaları, tarixi-coğrafi lüğətləri tərtib edərkən geniş istifadə etmiş və etməkdədirlər» (10).

Beləliklə, XIX əsrin birinci yarısında yaşayıb-yaratmış görkəmli səyyah-alim H.Z.Şirvaninin elmi fəaliyyəti, kitab tərtibatı sahəsində olan nəzəri və təcrübi biliyi, onun mütaliə dairəsinin genişliyi, biblioqrafik fəaliyyəti bir-birilə vəhdət təşkil edir.

### *Ədəbiyyat*


1. *Kərimov N. Qırx il səyahətdə. – B., 1977. – s.7.*
2. *Şirvani H.Z. Riyazüs-səyahə. I hissə. – s. 6.*
3. *Şirvani H.Z. Bustanus-səyahə. – s. 6*
4. *Yenə orada. – s. 35.*
5. *Yenə orada. – s. 661.*
6. *Şirvani H.Z. Riyazüs-səyahə. - s. 6.*
7. *Bakıxanov A. Gülüstani-İrəm. – B., 1951. – s. 220.*
8. *Şirvani H.Z. Bustanus-səyahə. – s. 276.*
9. *Yenə orada.*
10. *Quliyev A. Uzaq eldən gələn səslər. – Bakı. - 1975. – 13 aprel.*



***Байрамов Ф.***


### *Вопросы чтение и библиография в творчестве Г.З.Ширвани*

**Резюме**


*Автор исследует позиции к вопросу и библиографии в мемориально-публицистических произведениях великого Азербайджанского путешественника, географа, ученого, етнографа, философа, писателя и поэта Гаджи Зейналабдина Ширвани.*

**Şəhla TAHİRQIZI**
*Bakı Universiteti Nəşriyyatının redaktoru*

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN NƏŞRİYYATI VƏ MƏTBU ORQANLARI

Əsrlərin sınağından keçib gəlmiş maddi-mədəniyyət abidələri, qədim dünyanın bir çox tarixi və ədəbi mənbələri, bir sözlə, xalqımızın bitib-tükənməyən mənəvi sərvəti Azərbaycanın zəngin mədəniyyət ölkəsi olduğunu təsdiq edir (1).

XX yüzillik Azərbaycan xalqının həyatında mühüm hadisələrlə zəngin olmuşdur. Təbii ki, bu hadisələr içərisində ən əsas nailiyyət Azərbaycanın dövlət müstəqilliyini əldə etməsidir.

Azərbaycan xalqının zəngin milli sərvəti olan təhsil sisteminin yaranması, inkişaf etməsi və formalaşması da, XX yüzilliyin xalqımıza bəxş etdiyi nailiyyətlərdən biridir. XX əsr həm də respublikamızda nəşriyyat işinin də inkişafı əsridir.

İnkişafda olan belə nəşriyyatlardan biri də əsası 1921-ci ildə "Universitet xəbərləri" adlı jurnalın redaksiyası ilə qoyulan və 1946-cı ildən nəşriyyat kimi fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin nəşriyyatıdır.

1960-80-ci illərdə bu nəşriyyat redaksiyası-nəşriyyat şöbəsinə çevrilmişdir.

Alimlərimizin, yaradıcı mütəxəssislərimizin arzu və istəyi nəzərə alınaraq 1984-cü ilin fevral ayında Azərbaycan Dövlət Universiteti Nəşriyyatının açılması haqqında sərəncam verildi. Lakin bu sərəncam elə kağız üzərində də qaldı (2).

Keçmiş Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 13 mart 1987-ci ildə qəbul etdiyi "Ali təhsilli mütəxəssislərin hazırlanması və xalq təsərrüfatında istifadə olunmasının köklü surətdə yaxşılaşdırılması tədbirləri haqqında" 325 №-li qərarında Ümumittifaq və Respublika əhəmiyyətli nəşriyyatların açılması, eyni zamanda mövcud

nəşriyyatların işinin yenidən qurulması təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Qərarda deyilirdi: "S.Orconikidze adına Moskva Aviasiya İnstitutunun, N.E.Bauman adına Moskva Texniki Peşə Məktəbinin, K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı İnstitutunun, Moskva Energetika İnstitutunun nəzdində I-ci dərəcəli;

S.M.Kirov adına ADU-nun, Qiyabi İttifaq Politexnik İnstitutunun, Moskva Poliqrafiya İnstitutunun, Lenin adına Moskva Pedaqoji İnstitutunun, Lenin Komsomolu adına Novosibirski Dövlət Universitetinin, Ukrayna Kənd Təsərrüfatı Akademiyasının nəzdində isə II dərəcəli Respublika əhəmiyyətli nəşriyyatlar yaradılsın" (3).

1987-ci ilin 3 iyulunda keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin "S.M.Kirov adına ADU Nəşriyyatının yaradılması haqqında" qəbul etdiyi 253 №-li birgə qərarı Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 13 mart 1987-ci il tarixli məlum qərarının həyata keçirilməsi sahəsində S.M.Kirov adına ADU Nəşriyyatının yaradılmasına dair əməli işin ilk parlaq təzahürü oldu (4).

Qərarda deyilirdi:

S.M.Kirov adına ADU-nun və mətbəəsinin bazası əsasında Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi və Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti üzrə Azərbaycan SSR Dövlət Komitəsinin tabeliyində olmaq şərtilə II dərəcəli Respublika əhəmiyyətli, təsərrüfat hesablı nəşriyyat yaradılması;

1990-cı il üçün 5 milyon çap vərəqi həcmində Respublika Ali məktəbləri üçün dərslik, dərs vəsaiti, monoqrafiyalar, tematik məcmuələr, metodik göstərişlər, broşuralar və digər materialların nəşrinin artırılması;

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığı ilə Azərbaycan SSR Ali və Orta İxtisas Nazirliyinin göstərişi ilə bu nəşriyyatın tərkibi və ştatının təyin olunması, dövriyyə vəsaitləri və lazımi datasiya ilə təmin olunması bu nazirliyə tapşırılsın;

Azərbaycan SSR Dövlət Plan Komitəsinin göstərişi ilə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin ADU nəşriyyatının illik həcmi göstərişləri nəzərə alınmaqla, nəşr və çap vərəqləri üçün lazım olan kağız ehtiyatı və mebellə təchizatı təmin edilsin. Maliyyə Nazirliyinin göstərişi ilə nəşriyyatın əmək haqqı fondunun və işçi ştatının müəyyən olunması məsələsinə baxılsın;



Azərbaycan Dövlət Plan Komitəsi və Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən ADU nəşriyyatına lazımi nəqliyyat vasitələri ayrılsın;

Azərbaycan SSR Nəşriyyat, Poliqrafiya, Kitab Ticarəti İşləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, Azərbaycan Dövlət Universiteti nəşriyyatını və mətbəəsini təsdiq olunmuş texnoloji layihə və bildirişləri əsasında poliqrafiya avadanlıqları ilə təchiz etsin;

Azərbaycan SSR Nəşriyyat Poliqrafiya və Kitab Ticarəti İşləri üzrə Dövlət Komitəsinə və Azərittifaqa tapşırılsın ki, ADU nəşriyyatı nəşrlərinin təyin olunmuş nüsxədə yayılması təşkil edilsin;

Azərbaycan SSR Rabitə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Dövlət Universiteti Nəşriyyatını və mətbəəsini nəzərdə tutulan miqdarda telefonla təmin etsin;

Bakı Şəhər İcra Hakimiyyətinə ADU-nun şərqşünaslıq fakültəsinin binasında nəşriyyat və mətbəənin yerləşməsi üçün təmir işinin qısa müddətdə başa çatdırılması tapşırılsın;

Azorərbaycan KP MK - "Kommunist" nəşriyyatı ADU nəşriyyatının il ərzində 200 çap vərəqəsi həcmində kiçik formatlı dərs vəsaitləri, monoqrafiyalar və digər materiallarının nəşrini təmin etsin;

ADU nəşriyyatının direktoru vəzifəsi Azərbaycan KP MK katibliyinə tabe edilsin;

1989-cu il 1 mart tarixinə qədər Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyi göstərilən qərarın yerinə yetirilməsi haqqında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinə məlumat verməlidir.

Qəbul edilmiş qərarların yerinə yetirilməsi işlərinə nəzarət Azərbaycan KP MK-nın təbliğat, təşviqat, elm və təhsil mütəxəssisləri üzrə şöbəyə və Azərbaycan SSR Nazirlər Sovetinin elm, texniki və təhsil müəssisələri şöbələrinə tapşırılsın.

İstər SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin qəbul etdiyi "Ali məktəblərin nəzdində fəaliyyəti göstərən və yenidən təşkil olunmuş mərkəzi və respublika əhəmiyyətli nəşriyyatların yaranması, istərsə də SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin SSRİ Dövlət Nəşriyyatı, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi ilə 28 oktyabr 1987-ci ildə qəbul etdiyi 667/505 №-li "Ali məktəb nəşriyyatlarının gələcək inkişafı haqqında" birgə qərarında ölkəmizdə açılacaq ali məktəb nəşriyyatının gələcək işi fundamental əsaslar üzrə işıqlandırılmışdır (5).

Universitet nəşriyyatının yaradılması üçün 1987-ci ildə mühüm işlər görülmüş, nəşriyyatla bağlı məsələlər həm universitetin Elmi Şurasında geniş müzakirə olunmuş, həm də bu məsələyə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinın Kollegiyasında baxılmış və müvafiq qərarlar verilmişdir.

ADU-nun nəşriyyatının iş strukturası, onun maliyyə sistemi qərarda ətraflı surətdə işıqlandırılmış, həmin qərarda onun gələcək kadr potensialı da müəyyənləşdirilmisdir. Qeyd etmək lazımdır ki, nəşriyyatın yenidən qurulması ciddi zərurətdən doğmuşdur. Həmin dövrdə ana dilində olan dərslik və dərs vəsaitlərinin çatışmazlığı, mövcud ədəbiyyatın dayazlığı ali məktəblərdə çalışan mütəxəssislərin qarşısında ciddi məsələlər qoyurdu ki, nəşriyyatın açılması ilə bu problem müəyyən mənada öz həllini tapmış oldu.

Universitet Nəşriyyatı göstərdiyi uğurlu fəaliyyətə görə 1986-cı ildə Polşada, 1987-ci ildə isə Moskvada keçirilən "Kitab sülh və tərəqqinin xidmətində" adlı VI Moskva Beynəlxalq Kitab yarmarkasında iştirak etmişdir. Həmçinin Sankt-Peterburqda (Leninqradda) keçirilən SSRİ Universitetlərinin Direktor Şurasında nəşriyyatın əsərləri nümayiş etdirilmişdir.

Yeni yarandığı dövrlərdə Universitet Nəşriyyatı respublikanın bütün ali məktəblərində, tədris ədəbiyyatının nəşri işini özündə birləşdirən yeganə nəşriyyat olmuşdur. Nəşriyyatın bütün çap məhsulları dörd redaksiyada: fizika-riyaziyyat və texniki elmlər; humanitar və ictimai elmlər; təbiət və tibb elmləri; dövri nəşrlər və digər tədris ədəbiyyatı redaksiyalarının və altı şöbənin (texniki və bədii tərtibat; istehsalat, korrektura və plan şöbələrinin) birgə əməyi ilə başa gəlmişdir (6).

Nəşriyyat fəaliyyətə başladığı ilk illərdə çox böyük canlanma şəraitində işləyirdi. Lakin illər ötdükcə dövlət büdcəsindən maliyyələşən nəşriyyatda həmin canlanma get-gedə azaldı (7).

Hazırda nəşriyyatda iki redaksiya: humanitar və sosial-siyasi elmlər redaksiyası və fizika-riyaziyyat elmləri redaksiyası fəaliyyət göstərir.

Doğrudan da, nəşriyyatın fəaliyyətini işıqlandıran biblioqrafik göstəricidə bu illərdə nəşriyyatın fəaliyyətinin sönük olduğu nəzərə çarpır. Belə ki, qeyd olunan 10 ildə "Bakı Universitetinin Elmi Xəbərləri" jurnalının dörd seriyada cəmi 14 nömrəsi nəşr olunmuşdur (8).



Ümumiyyətlə, yarandığı gündən Bakı Universiteti Nəşriyyatının fəaliyyətini işıqlandıran 8 biblioqrafik göstərici nəşr olunmuşdur.

Müasir həyatımızı kompütersiz təsəvvür etmək qeyri-mümkündür. Bu gün öz inkişaf dövrünü yaşayan Bakı Universiteti nəşriyyatı demək olar ki, qismən kompüter sisteminə keçmişdir və bu iş davam etməkdədir. Bu da o deməkdir ki, 16 fakültə və 120 kafedrada 3200-ə yaxın professor və müəllim heyətinə 1400-ə yaxın qələbə kontingentinə malik elm ocağının nəşriyyatı bu gün olduğu kimi gələcəkdə də tariximizə, dilimizə, ümumilikdə elmimizə dair neçə-neçə əsərə həyat vəsiqəsi verəcəkdir.

### *«Bakı Universitetinin Xəbərləri» elmi jurnalı*

1920-ci il iyunun 30-da Xalq Maarif Komissarlığının Kollegiyasında universitet rektorunun və İdarə Heyətinin qaldırdıqları 7 məsələyə, o cümlədən: "Bakı Universiteti Xəbərləri"nin çap edilməsi, Universitet "Əsərləri"-nın nəşr olunması və bunların kağızla təmin olunması məsələsinə də baxılmışdır (9).

Universitet dövri elmi orqanları 1921-ci ildən çıxmağa başlamış "Xəbərlər" və 1924-cü ildən nəşr olunmuş "Nəzəri və praktik təbabət" jurnalları idi. 1921-ci ildə "Bakı Dövlət Universitetinin xəbərləri"nin ikinci nömrəsi və 1-ci yarımcildi (təbiətşünaslıq və təbabət) çapdan çıxmışdır (10).

Universitetin adı dəyişdirilib ADU qoyulduqdan sonra onun əsas elmi orqanı olan "Xəbərlər" şöbələr üzrə çıxmağa başladı: a) təbiətşünaslıq və təbabət; b) ictimai elmlər; v) şərqşünaslıq; q) hüquq (11).

Bu məcmüə toplularda universitet alim və əməkdaşlarının tədqiqat işləri ilə öz əksini tapırdı. Maraqlı haldır ki, rus dilində olan materiallar kiril, Azərbaycan dilində olan isə latın qrafikası ilə çap olunurdu.

Hazırda "Bakı Universitetinin Xəbərləri" jurnalı fizika-riyaziyyat; təbiət, humanitar və sosial-siyasi elmlər adlı seriyalarla 4 seriyada 16 nömrədə, latın qrafikası ilə nəşr olunur.

Onu da qeyd etmək zəruridir ki, "Xəbərlər" yarandığı dövrdən fərqli olaraq özündə cəmləşdirdiyi məqalələrin sonunda rus və ingilis dillərində annotasiyalarla təmin olunur (əgər məqalə rus dilindədirsə, Azərbaycan, ingilis; əgər ingilis dilindədirsə, Azərbaycan və rus dillərində olmalıdır) və bu jurnallar İnternet vasitəsilə dünyanın 54 ölkəsinə yayınlanır.

Sevindirici haldır ki, Universitet rəhbərliyinin qayğısı və nəşriyyat kollektivinin birgə səyi nəticəsində 2001-ci ildə jurnalın 4 seriyada 16 №-si işıq üzü görmüşdür.

### *"Bakı Universiteti" qəzeti*

1929-cu ilin iyulunda jurnalizm kafedrasının tələblərinin nəşri olan "Student-jurnalist" qəzetinin ilk sayı latın qrafikası ilə çap olunur (12). 1947-ci ildən qəzet mütəmadi olaraq nəşr olunmağa başlamışdır. 1991-ci ilədək "Lenin tərbiyəsi uğrunda" və "Za Leninskoe vospitanie" adları ilə çap olunub.

1991-ci ildə qəzetin adı dəyişib "Bakı Universiteti" adlandırılmışdır. Bu illər ərzində "Bakı Uiversiteti" qəzetində Azərbaycanın ən tanınmış jurnalistləri və elm adamları ilk qələm təcrübələrini qazanmışlar. Yarım əsrdən artıqdır ki, qəzet sanki doğma universitetimizin həyatını seyr edir, onun acılı-şirinli, kədərli-təntənəli günlərini yaddaşına köçürüb, sinəsində qoruyur.

Qocaman təhsil ocağında keçirilmiş elə bir ictimai-siyasi tədbir, maraqlı təşəbbüs yoxdur ki, bu qəzetdə öz əksini tapmamış olsun.

Alimlərin əməyinin qiymətləndirilməsi, onlara dövlət mükafatlarının, fəxri adların verilməsi barədə dərc edilən yazılar tərbiyəvi xarakter daşıyır. Müxtəlif rubrikalar və janrlarla professor-müəllim və tələbələrin gündəlik həyatı işıqlandırılır. Bir sözlə, qəzetdə günün aktual məsələləri, universitetdə gedən yenidənqurma, təmir tikinti və abadlıq işləri barədə maraqlı yazılar dərc olunur (13).

Onu da qeyd edək ki, universitet rektorluğu "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununa əsasən əmr imzalanmışdır. Əmrin 4-cü bəndi "Bakı Universiteti" qəzetinin latın qrafikası ilə nəşrinin təmin olunması ilə bağlıdır (14) və bu gün "Bakı Universiteti" qəzeti də latın qrafikası ilə nəşr olunur.

İstər Bakı Universitet Nəşriyyatı, istər "Xəbərlər" jurnalı, istərsə də "Bakı Universiteti" qəzeti respublikamızda ana dilində ədəbiyyatın və elmi-publisistik materialların elmi ictimaiyyətə çatdırılmasında mühüm işlər görür və ümid edirik ki, hər üç struktur indiyə kimi əldə etdiyi uğurlarla kifayətlənməyəcək, yeni-yeni nailiyyətlər qazanacaqdır.



### *Ədəbiyyat*


*1. B.V.Allahverdiyev. Kitablar haqqında kitab. - B., 1972. - S.5.*

*2. Şəhla Tahirqızı. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti nəşriyyatının nəşrləri. Biblioqrafik göstərici (1987-1997). – B., 1999. - S.5.*

*3. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri. Moskva, 13 mart 1987.*

*4. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı. Bakı, 17 iyun 1987-ci il.*

*5. SSRİ Ali və Orta İxtisas Nazirliyi və SSRİ Dövlət Nəşriyyatı, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin 667/505 №-li birgə qərarı. Moskva, 28 oktyabr 1987-ci il.*

*6. Bakı Universiteti Nəşriyyatının 1990-cı il hesabatı.*

*7. Yenə orada.*

*8. Şəhla Tahirqızı. Göstərilən əsəri. - S.14-15.*

*9. A.M.Atakişiyev. Bakı Dövlət Universitetinin tarixi. B., 1991. - S.100.*

*10. Yenə orada. – S.204.*

*11. Sevil Ağabəyova. ""Bakı Universiteti" qəzetinin dünəni və bu günü" // Yeni Naxçıvan. - 27 iyul 2001. - S.5*

*12. Abel Məhərrəmov. Bakı Dövlət Universitetinin tarixi. – B., 2000. – S.436-438.*

*13. Sevil Ağabəyovanın göstərilən yazısı.*



***Шахла Тахиркызы***


### ***Издательство бакинского университета и органы печати***

**Резюме**


*В статье освещается история создания и сегодняшнее состояние Издательства Бакинского Университета и органов печати.*

# TƏBRİK EDİRİK!

## ŞAİR TƏBLİ BİBLİOQRAF-ALİM



***Tanınmış ədəbiyyatşünas alim, peşəkar biblioqraf, zəngin şəxsi kitabxana sahibi, şair, publisist, filologiya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, səmimi dostumuz İslam Ağayevin 70 yaşı tamam olur***

*Professional biblioqraf İslam Məhəmməd oğlu Ağayev 1932-ci il avqustun 20-də Bakı şəhərinin qədim yaşayış məskəni olan Bülbülə qəsəbəsində anadan olmuş, ilk təhsilini həmin qəsəbənin 79 və 208 saylı məktəblərində almış, 10-cu sinfi isə Sabunçu qəsəbəsinin 51 saylı axşam fəhlə məktəbində bitirmişdir.*

*1952-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin "Kitabxanaşünaslıq və biblioqrafiya" şöbəsinə daxil olmuş və 1957-ci ildə ali təhsilini başa vurmuşdur. Üç il M.F.Axundov adına Respublika Dövlət Kitabxanasında baş biblioqraf vəzifəsində çalışmış, biblioqrafik göstəricilərin tərtib edilməsində bilavasitə iştirak etmişdir. Professional biblioqrafik fəaliyyəti sonrakı illərdə də - 1960-cı ildən Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində kiçik elmi işçi işləyərkən, 1964-cü ildə "Satirik "Zənbur" jurnalı" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasına ədəbiyyat siyahısı tərtib edərkən, "Azərbaycan ədəbiyyatı ensiklopediyası" şöbəsində elmi katib işləyərkən, 1984-cü ildə "Molla Nəsrəddin" jurnalı və "XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının ideya-bədii inkişafı problemləri" mövzusunda doktorluq dissertasiyasına biblioqrafiya tərtib edərkən, 1986-cı ildə institutda yaranan "Mətbuat və informasiya", bir qədər sonra "İnformasiya və biblioqrafiya" şöbələrinin müdiri vəzifəsində işləyərkən, 1992-ci ildə "Yeni dövr*



*ədəbiyyatı" şöbəsində baş elmi işçi kimi çalışarkən - öz bəhrəsini vermişdir.*

*Tədqiqatçı-biblioqraf alim İslam Ağayev yarım əsrdən çox elmi yaradıcılıq yolu keçmişdir. Onun çoxşaxəli yaradıcılığında biblioqrafik fəaliyyəti xüsusi yer tutur.*

*Azərbaycan ədəbiyyatı tarixində şair, yazıçı kimi yaradıcılığa başlayıb sonralar alim olanlar az deyildir. Məsələn, M.A.Dadaşzadə şair kimi ədəbiyyata gəlmiş, lakin görkəmli ədəbiyyatşünas, akademik kimi məşhur olmuşdur. Görkəmli tarixşünas-alim İsmayıl Hüseynov, ədəbiyyatşünas M.Rəfili yaradıcılığa şair kimi başlamış, sonralar alim kimi tanınmışlar. İslam Ağayev də yaradıcılığa yazıçı-şair kimi başlamış, professional biblioqraf, ədəbiyyatşünas-alim səviyyəsinə yüksəlmişdir. Rus yazıçısı A.P.Çexov demişdir: "Təbabət mənim qanuni arvadım, bədii ədəbiyyat mənim məşuqəmdir. Birindən zəhləm gedəndə digərinin yanında gecələyirəm." İ.Ağayev də elmi yaradıcılıqla yanaşı, meylini bədii yaradıcılığa salmış, bu sahədə də təbii ki, istedadını sınamış, bir sıra əsərlər yazmışdır. Lakin elmi yaradıcılığı bədii yaradıcılığını üstələmişdir. Elmi-bədii təfəkkürün qoşa qanadı onu şair-yazıçı kimi oxucuya tanıtdırır.*

*İ.Ağayevin elmi yaradıcılığının özünəməxsus xüsusiyyəti biblioqrafik fəaliyyəti elmi fəaliyyətlə vəhdətdə inkişaf etdirməsidir. Alimlərimizin əksəriyyəti biblioqrafik fəaliyyəti elmi yaradıcılığın əsası hesab etmədiyi, tədqiq etdiyi mövzu ilə əlaqədar biblioqrafik göstəricinin tərtibini zəruri saymadıqları halda, İ.Ağayevin elmi yaradıcılığının rüşeymi məhz biblioqrafiya ilə bağlıdır, ilkin mənbələrlə tanışlıqdan doğur. O, təcrübi biblioqrafik fəaliyyətə görülməmiş bir işin iştirakçısı kimi başlayır. Buna görədir ki, biblioqrafiyalaşdırma mövzunun tədqiq edilib-edilməməsini müəyyənləşdirməyə səbəb olmuşdur. Təsadüfi deyildir ki, hələ "Azərbaycan kitabı" adlı biblioqrafik göstəricinin tərtibatçılarından biri kimi fəaliyyət göstərdiyi zaman təxminən 110 addə kitabın biblioqrafik təsvirini hazırlamışdır. Bu kitablardan istifadə XIX əsrin sonu və XX əsrin əvvəllərində ictimai-siyasi fikrin, dövrün siyasi-mədəni, elmi-ədəbi məsələlərinin tədqiq edilməsinə gətirib çıxarmışdır. Elmi yaradıcılığa başladığı ilk andan biblioqrafiyanın elmə, əməli işə xidmətini önəmli saymış, onsuz elmi yaradıcılığın mümkün olmadığını öz işi ilə təsdiq etmişdir. İstər təcrübi, istərsə də elmi yaradıcılığında biblioqrafik qaydalar, üsullar öz əksini yüksək səviyyədə tapmışdır. Bu ağır və zəhmətli, əzablı iş İslam Ağayevin istər professional biblioqraf kimi formalaşdmasında, istərsə də alim kimi yetişməsində öz rolunu*

*oynamışdır. Ona görə də İ.Ağayevin biblioqrafik fəaliyyəti elmi fəaliyyətinin müstəqil qolu kimi işıqlandırılmalıdır.*

*İ.Ağaeyivn çap olunmuş kitablarında təqdim edilən biblioqrafik siyahılarda, sətiraltı isnadlarda, "Azərbaycan Sovet Ensiklopediyası"nda dərc olunmuş məqalələrinin sonunda verilmiş biblioqrafik təsvirlər özünün zəngin və dolğun biblioqrafik kartotekasında, həmin dövrdə yaşamış böyüklü-kiçikli ədəbiyyat və mədəniyyət xadimlərinin əsərləri və haqqında çap olunmuş materialların biblioqrafik göstəricisində öz əksini tapmışdır. Bu mənbələrin araşdırılıb öyrənilməsi nəticəsində bir sıra elmi əsərləri yaranmış və nəşr olunmuşdur. Onlardan "Satirik "Zənbur" jurnalı" (1969), "Molla Nəsrəddin"in tarixi hünəri" (1976), "Əliqulu Qəmküsar" (1976), "Molla Nəsrəddin"in poetikası" (1992), "Ələbbas Müznib" (2000) adlı kitablarını qeyd etmək olar.*

*Məlumdur ki, bu əsərləri yazarkən İ.Ağayev dəfələrlə çap əsərlərinə müraciət etməli olmuşdur. Bu kitabların bir qismi onun yazdığı kitabın metodoloji əsasını, başqa bir qismi mövzunun sələfləri kimi onları öyrənməyə, əsərin elmi konsepsiyasını inkişaf etdirməyə, üçüncü bir qismi isə mövzuya dair nə kimi ədəbiyyatın mövcud olduğunu göstərməyə və onun haqqında fikir söyləməyə, mühakimə yürütməyə xidmət etmişdir. O, şərh etdiyi fikrin doğruluğunu təsdiq etmək üçün bir çox müəlliflərin fikirlərinə isnad edir. Bu kitabiçərisi biblioqrafiyanın yazılmasına xidmət göstərirsə də, əsərin oxucusu üçün də gərəklidir və mövzunun dərindən öyrənilməsini tövsiyə etmək məqsədini güdür. Əgər sitat gətirilən yeri göstərən biblioqrafik informasiyanın məqsədi sitatın düzgünlüyünü, onun təhrif edilmədiyini bilmək üçündürsə, onun başqa bir məqsədi də vardır. Bu da mövzu ilə əlaqədar olan ədəbiyyatı oxuculara çatdırmaqdır. Məqsədin belə ikili xarakterdə olması biblioqrafik isnadlardan istifadə edilməklə həll edilir. Elmi əsərlərdə aşağıdakı biblioqrafik isnadlar verilməlidir: sitatın mənbəyini göstərən isnadlar, fikrin başqa mənbələrdən götürüldüyünü bildirən isnadlar, özünün şərh etdiyi məsələlərin hansı əsərlərdə tam əhatə edildiyini göstərən isnadlar, mətndə ötəri bəhs edilən məsələlərin hansı müəllifin əsərlərində tam şərh edildiyini göstərən isnadlar.*

*İslam Ağayev bir biblioqraf-alim kimi daha bütöv və daha yetkindir, kamildir, kitabarası və kitabiçərisi biblioqrafiyanın yaxşı nümunələrini yaratmışdır. O, professional biblioqraf kimi Azərbaycan biblioqrafiyası tarixində özünəməxsus yer tutmaqla yanaşı, müasir biblioqrafiya təcrübəsində öz dəsti-xətti ilə seçilir.*



*İndiyə qədər çap edilmiş biblioqrafik göstəricilərdə radio-televiziya verilişlərində gedən materialların, eləcə də əlyazma əsərlərin biblioqrafik təsviri verilməmişdir. Belə materialların biblioqrafik təsviri İ.Ağayev tərəfindən ilk dəfədir ki, tətbiq edilir. Bu, biblioqrafın dəst-xəttidir. Çünki bu materialların əhatə edilməməsi tədqiqat işinin birtərəfli aparılmasına gətirib çıxarır, biblioqrafik informasiya natamam olur.*

*İnanırıq ki, İ.Ağayev bir alim kimi biblioqrafiyanın onun həyatında oynadığı rola dair sanballı biblioqrafik oçerk yazacaqdır. Seyfəddin Rzasoyun "İslam Ağayev: ömür və yaradıcılıq etüdləri" kitabını bəyənir, onun çap olunmasını alqışlayırıq. Kitaba yazılmış "Yanan şama, çırağa çıraq tutan çıraqsız" adlı ön sözün müəllifi, həm də kitabın redaktor, əməkdar elm xadimi mərhum Yaşar Qarayevin ruhuna rəhmət diləyir, biblioqraf sənətinə verdiyi yüksək qiyməti ərməğan hesab edirik. Kitabda İslam Ağayevin əsərləri və haqqında materialların biblioqrafik göstəricisi verilmişdir. Biblioqrafik təsvirin standarta uyğun verilmədiyini, materialların ardıcıl qruplaşdırılmadığını nəzərə çatdırmağı isə özümüzə borc bilirik.*

*Seyfəddin Rzasoyun dediyi kimi, İslam Ağayev ayrı-ayrı vaxtlarda qısa fasilələrlə elmi yaradıcılıqla yanaşı bədii yaradıcılıqla da məşğul olmuş, "Görüş gecəsi", "Qonaq", "Gənclik nəğmələri", "Tər çiçəklər", "Duyğular", "Tez böyümək istəyirəm", "Dostunu yaxşı tanı", "Ayrılıq düşüncələri", "Salam olsun", "Sirli dünya" və s. əsərləri çap olunmuşdur. Bu bədii əsərlər İslam Ağayevin mənəvi yaşantılarının tarixidir, ayrılıq və kədərin təcəssümüdür, oxucular üçün faydalıdır, ədəbiyyatşünaslığın obyektidir. Bu məqalədə biz ancaq İ.Ağayevin biblioqrafik fəaliyyətindən qısa da olsa bəhs etdik. Ona bu yolda yeni yaradıcılıq uğurları diləyir, anadan olmasının 70 illik yubileyini ürəkdən təbrik edir, cansağlığı arzulayırıq. Bütün bunlarla yanaşı əsərlərinin və haqqında materialların mükəmməl elmi biblioqrafik göstəricisinin tərtib edilməsini gözləyirik.*

***Xəlil İSMAYILOV,***
*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-İnformasiya fakültəsinin dekanı,*
*pedaqoji elmlər namizədi, dosent,*
***Əşrəf XƏLƏFOV,***
*Biblioqrafiyaşünaslıq kafedrasının dosenti,*
*pedaqoji elmlər namizədi,*
***Knyaz ASLAN,***
*Kitabxanaşünaslıq kafedrasının baş müəllimi,*
*şair-publisist*

*Nəşriyyatın direktoru:* *Bulakişi AĞAYEV*
*Mətbəənin müdiri:* *Əlaş QASIMOV*
*Bədii redaktor:* *Mahir SÜLEYMANOV*
*Bilgisayar tərtibçisi:* *Dürdanə ABİYEVA*
*Bilgisayar yığıcısı:* *Maisə RƏHİMOVA*
*Korrektoru:* *Şəhla TAHİRQIZI*

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

Yığılmağa verilmişdir. 20. 12. 2002.
Çapa imzalanmışdır: 25. 12. 2002.
Kağız formatı: 60x84 1/16.
Fiziki ç.v.8.
Sayı 200.
Qiyməti müqavilə ilə.

*Ünvan: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*